# 8 MART BEYNƏLXALQ QADINLAR GÜNÜDÜR

Xalqın qəzeti!
# Xalq qəzeti
№ 53 (30457) 8 mart 2024-cü il, cümə
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Prezident Beynəlxalq Qadınlar Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Mart – Beynəlxalq Qadınlar Günü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda “8 Mart – Beynəlxalq Qadınlar Günü” sözləri yer alıb.

# Yüksəlişin nəbzi Qarabağ və Şərqi Zəngəzurda döyünür



Səhifə ⇨ 7

## Analarınanası

*Xalqımızın sevimli qızı*



Səhifə ⇨ 9

## “Panaçeya məntiqi” və Ermənistanın iflas anonsu



Səhifə ⇨ 10

## “Toplum TV” ilə bağlı obyektiv araşdırmalar ABŞ-ni niyə narahat edir?




**Azərbaycan hüquq-mühafizə orqanları “Toplum TV” redaksiyasında axtarış aparıblar. İlkin açıqlamalardan belə məlum olur ki, “qrant qaçalmalçığı” üzrə şübhələr vardır. Bu şübhələr təsadüfdən yaranmayıb.**

Baş redaktor Xədicə İsmayılın dünən xarici KİV-lərə verdiyi açıqlamalardan belə məlum olur ki, “Toplum TV” redaksiyasında 10-15 nəfərlik işçi heyəti çalışır. Gündəlik işləyirlər, əmək haqqı alırlar. Amma redaksiyanın əmək haqqı fondunun hansı mənbədən formalaşdırılması barədə bilgi verilmir. Nəzərə alaq ki, “Toplum TV” abunə sistemi ilə işləmir. Onun hazırladığı məhsulların daimi alıcıları yoxdur. Oxucular üçün kod sistemi də tətbiq etməyiblər. Yəni, öz məhsullarını, informasiyalarını ödənişsiz əsaslarla təqdim edirlər.

Saytda elan, reklam, bir sözlə, müstəqil KİV qurumu üçün qazanc gətirən legitim maliyyə qaynağı görünmür. Hansı ki, nə milli, nə də beynəlxlaq sənədlər KİV qurumlarının maliyyələşməsi üçün fərqli mənbə tanımır. Beynəlxalq sənədlərdə qeyd edilir ki, normal fəaliyyət göstərən KİV qurumunun legitim maliyyə mənbəyi reklam və elanlardır. Maliyyəsinin ən azı 75 faizi reklam və elandan formalaşmalıdır ki, müstəqil fəaliyyət göstərə bilsin. Digər 25 faiz isə satışdan, abunədən, ianələrdən, qrantlardan, təsisçinin yardımından formalaşmalıdır.

Əgər bunların heç biri yoxdursa, “Toplum TV”nin maliyyə mənbəyi haradan qaynaqlanır? Stabil maliyyə qaynağı yoxdursa, redaksiya ofisinin icarəsi, işçilərin əmək haqqı, texniki avadanlıqlar və digər xərclər üçün zəruri olan vəsait hansı mənbədən ödənilir? Baş redaktor Xədicə İsmayıl və portalın hüquqi təsisçisi olan Ələsgər Məmmədli bu sualların cavablandırılmasından yayınırlar. Araşdırmalar göstərir ki, “Toplum TV”nin kifayət qədər böyük maliyyə dövriyyəsi mövcuddur. Sadəcə maliyyənin qaynağı şəffaf deyil.

“Toplum TV”nin maliyyə qaynaqları sırasında görünən yalnız bir mənbə var ki, o da qrantlardır. Amma xəbər portalının sahibləri qrant vəsaitlərini hansı donorlardan və hansı həcmdə aldıqlarını da qapalı saxlayırlar. Bu tip sualları cavablandırmaqdan yayınırlar. Sanki normal bir hal imiş kimi üzərindən keçirlər. Bu özü də ciddi qanun pozuntusudur. “Qrantların qeydiyyatı haqqında” Qanuna əsasən, alınmış vəsaitlər Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilməlidir. “Toplum TV” bu qanunu pozub. Qrantları qanuni deyil, qaçaqmalçılıq yolu ilə alaraq realizə edib.

**(ardı 4-cü səhifədə)**

## Sərhəddə Azərbaycan – Ermənistan delimitasiya komissiyalarının növbəti görüşü



**Martın 7-də Azərbaycan ilə Ermənistan arasında sərhəddə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistanın baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, həmçinin Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın yeddinci görüşü keçirilib.**

Görüşdə tərəflər delimitasiya məsələləri üzrə fikir mübadiləsi aparıb, Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, həmçinin iki ölkə arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılmasına başlayıb, habelə delimitasiya işlərinin görülməsinin qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə ediblər.

Tərəflər komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırmasını ən qısa zamanda başa çatdırmaq barədə sövdələşiblər.

Onlar, həmçinin komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

*XQ*

## Geosiyasi çağırışlar Orta Dəhlizə marağı artırır




**Yəmən husiləri Səudiyyə Ərəbistanının Ciddə və Şərqi Afrikadakı Cibuti limanları arasında Qırmızı dənizdə dörd dənizaltı internet kabelini zədələyib. Bu barədə İsrailin “Globes” qəzeti məlumat yayıb. Nəşrin məlumatına görə, bu, Avropa və Asiya arasında internetdə fasilələrə səbəb olub. Əsas zərər Körfəz ölkələri və Hindistanda qeydə alınıb.**

Nəşr aydınlaşdırıb ki, “AAE-1”, “Seacom”, “EIG” və “TGN” şirkətlərinə məxsus kabellər zədələnib. Həmin kabellər Misir və Səudiyyə Ərəbistanından keçərək Şərqi Asiya, Avropa, Afrika, Hindistan, BƏƏ, Cibuti , Cənubi Avropa və Marsel arasında internet əlaqələrini gerçəkləşdirir.

Beləliklə, nəşrin məlumatına görə, husilərin hücumu internet rabitəsində ciddi pozulmalara səbəb olub, ən çox zərərin Körfəz və Hindistandakı istifadəçilərə dəydiyi bildirilib. Eyni zamanda, fəsad ciddi olsa da, kritik həddə çatmadığı vurğulanıb.

“Globes” qəzetinin yazdığına görə, kabel əməliyyatı 8 həftədən gec olmayaraq bərpa edilə bilər. Həmçinin şirkətlərin çox güman ki, təmir zamanı risklərə görə podratçılara yüksək mükafat ödəməli olacaqları da gözlənilir.

Nəşr, eyni zamanda, xatırladıb ki, husilər Qırmızı dənizdə İsrailə aid gəmilərə hücum etmək niyyətlərini açıqlayıblar. Onlar İsrail və Fələstin arasında qarşıdurma başlayandan yəhudi dövləti ilə əlaqəli şirkətlərin gəmilərinə hücum edəcəklərini bildiriblər, lakin hücumlar nəticəsində üçüncü ölkələrin ticarət gəmilərini də vurublar.

**(ardı 5-ci səhifədə)**

## Rusiya–Ukrayna savaşı: sülhə yol tapılacaqmı?



Səhifə ⇨ 11

# “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli və “Hədəfli maliyyə sanksiyaları haqqında” 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 4 oktyabr tarixli 401 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 716 (Cild I) 2.3-cü bəndinə “Maliyyə Nazirliyi” sözlərindən sonra “və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi” sözləri əlavə olunsun və həmin bənddə “keçirir” sözü “keçirirlər” sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 481 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”nin 7.9-3-cü bəndindən “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın və həmin bəndə “maliyyələşdirilməsinə qarşı” sözlərindən sonra “, o cümlədən hədəfli maliyyə sanksiyalarının tətbiqi ilə bağlı” sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 794 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5.8-1-ci bənddən və 5.8-2.2-ci yarımbənddən “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın;

3.2. 5.8-2.1-ci yarımbənddən birinci halda “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın və həmin yarımbənddə “pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi” sözləri “əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”nin 9.32-1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“9.32-1. notariuslara və qeyri-hökumət təşkilatlarına, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinə münasibətdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı, o cümlədən hədəfli maliyyə sanksiyalarının tətbiqi ilə bağlı qanunla nəzərdə tutulmuş qaydada və hallarda nəzarət orqanının funksiyalarını həyata keçirmək;”.

**5.** “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə II – “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə”nin 8.29-1-ci bəndi ləğv edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə VII – “Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti haqqında Əsasnamə”nin 8.2-1-ci bəndi ləğv edilsin.

**6.** “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1132 (Cild I) 1.1-ci bəndindən “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın və həmin bənddə “Azərbaycan Respublikası Qanununun” sözləri “və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası qanunlarının” sözləri ilə, “həmin Qanunla” sözləri “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu ilə” sözləri ilə əvəz edilsin.

**7.** “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 dekabr tarixli 1175 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2093 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. adında və preambulada “461-VQD” sözləri “461-VQ” sözləri ilə əvəz edilsin;

7.2. 3-cü hissədən “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın və həmin hissədə “Azərbaycan Respublikasının Qanununa” sözləri “və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarına” sözləri ilə əvəz edilsin.

**8.** “Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 may tarixli 95 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 963 (Cild I) 2-ci hissəsindən “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın və həmin hissədə “siyasətin” sözü “dövlət siyasətinin” sözləri ilə əvəz edilsin.

**9.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1954 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.0.3-cü yarımbənddən “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın;

9.2. 3.0.68-ci yarımbənddən “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın və həmin yarımbənddə “monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən digər şəxslərin, nəzarət və digər dövlət orqanlarının” sözləri “öhdəlik daşıyan şəxslərin, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin, nəzarət orqanlarının və digər dövlət orqanlarının (qurumlarının)” sözləri ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 339 (Cild I) ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı” üzrə Tədbirlər Planı”nın “Prioritet 3. Maliyyə şəffaflığının təmin edilməsi və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlər” hissəsinin adından, 3.4-cü bəndinin “Tədbirin adı”, “İlkin nəticə”, “Yekun nəticə” sütunlarından və 3.5-ci bəndinin “Tədbirin adı” sütunundan “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın.

**11.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

11.1. “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanununun 31.8-ci maddəsinə uyğun olaraq, illik maliyyə hesabatının Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməməsinə görə inzibati məsuliyyəti müəyyən edən normativ hüquqi aktın layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 mart 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri.**

Yenidən Prezident seçilməyiniz münasibətilə Sloveniya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırır, ölkənizə və xalqınıza davamlı tərəqqi, inkişaf arzu edirəm.

Mən çox məmnunam ki, Sloveniya və Azərbaycan dostluq münasibətlərinə malikdir. Əminəm ki, bu münasibətlər daha da dərinləşməkdə davam edəcəkdir.

Biz mübahisələrin danışıqlar yolu ilə həlli və ən mühüm çağırış olan qlobal iqlim böhranının aradan qaldırılması, multilateralizm kimi ortaq maraqları paylaşırıq. İnanıram ki, Siz bu sahədə, xüsusilə Bakının COP29-a ev sahibliyi etməsi fonunda ölkənizin və xalqınızın hərtərəfli inkişafını təmin etmək naminə səylərinizi davam etdirəcəksiniz.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Nataşa Pirts MUSAR,***
***Sloveniya Respublikasının Prezidenti***

* * *

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan xalqının təhlükəsizliyinin, iqtisadi inkişafının və əmin-amanlığının təmin olunmasında Sizə yeni böyük nailiyyətlər arzu edirəm.

Əminəm ki, yenidən Prezident seçilməyiniz ikitərəfli əlaqələrimizin daha da möhkəmlənməsinə töhfə verəcək və Ukrayna-Azərbaycan əməkdaşlığını yeni dinamik səviyyəyə çıxaracaq.

Beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində iki dövlətin müstəqilliyi və ərazi bütövlüyünə Ukraynanın və Azərbaycanın qarşılıqlı dəstəyi olduqca vacibdir.

Bu gün Ukrayna xalqı Rusiyaya qarşı mübarizədə öz azadlığını müdafiə edərkən Azərbaycan Respublikasının həmrəyliyi xüsusi əhəmiyyət kəsb edir. Biz humanitar yardıma, Rusiya ilə müharibədən zərər çəkmiş şəhərlərin infrastrukturunun yenidən qurulması, azad edilmiş Ukrayna ərazilərinin minalardan təmizlənməsi prosesində iştiraka görə minnətdarıq.

Mən Ukrayna–Azərbaycan əməkdaşlığına mühüm dinamika verən şəxsi konstruktiv və səmimi dialoqumuzu yüksək qiymətləndirirəm. Əminəm ki, hörmət və etimada əsaslanan strateji tərəfdaşlıq bundan sonra da möhkəmlənəcəkdir.

Mən Azərbaycanın Ukraynanın sülh formulunun implementasiyasına cəlb olunmasına və İsveçrədə keçiriləcək ilk Sülh Sammitində iştirakınıza ümid edirəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, enerji və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzu edirəm.

**Hörmətlə,**

***Volodimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

* * *

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə və xalqınıza təbriklərimi, ən xoş arzularımı çatdırıram.

Qarşıdakı illərdə Sizinlə və hökumətinizlə işləməyi səbirsizliklə gözləyirəm.

Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Yeni səlahiyyət müddətinizdə Zati-alinizə daha böyük uğurlar diləyirəm.

**Hörmətlə,**

***Mette FREDERİKSEN,***
***Danimarkanın Baş naziri***

# Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Mustafa oğlu Yusubov Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 mart 2024-cü il**

# Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Emin Zamin oğlu Hüseynov Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

**2.** “Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 1 dekabr tarixli 3022 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1438 (Cild I) ləğv edilsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 mart 2024-cü il**

# Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi emblemi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi emblemi haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**2.** “Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi embleminin təsviri” təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 mart 2024-cü il**

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi emblemi haqqında əsasnamə

**1.** Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin (bundan sonra – Xidmət) rəsmi emblemi Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın rəmzidir. O, Xidmətin hər bir əməkdaşına Xidmətin fəaliyyət istiqamətlərinə uyğun məsələlər üzrə öz xidməti vəzifələrini vicdanla və layiqincə yerinə yetirmək borcunu xatırladır.

**2.** Xidmətin rəsmi emblemi Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın əməkdaşlarının, həmçinin silah, xüsusi vasitə, texnika və digər əmlakın Xidmətə mənsubiyyətini bildirən nişandır.

**3.** Xidmətin rəsmi emblemi onun hərbi qulluqçularının geyim formasında və fərqlənmə nişanlarında yerləşdirilir. Xidmətin rəsmi emblemi onun blanklarında və inzibati binalarının adı göstərilən lövhələrində də yerləşdirilə bilər.

**4.** Xidmətin rəsmi embleminin təsvirindən istifadəyə aşağıdakı hallarda yol verilir:

4.1. Xidmətin çap məhsullarında, kino, video və fotomateriallarında;

4.2. Xidmətin sifarişi ilə hazırlanan reklam-informasiya məhsullarında (bukletlər, təqvimlər, nişanlar, vımpellər, saatlar, medalyonlar, dəftərxana ləvazimatları, suvenirlər və digər məhsullar).

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi embleminin təsviri

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi emblemi qızılı haşiyəli qara dairə formasındadır. Dairənin kənarında qövs boyunca qızılı hərflərlə yuxarıda “AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN”, aşağıda “TƏHLÜKƏSİZLİK XİDMƏTİ” sözləri yazılmışdır. “AZƏRBAYCAN” sözündən əvvəl və “PREZİDENTİNİN” sözündən sonra qızılı rəngdə səkkizguşəli ulduz təsvir edilmişdir.

Dairənin mərkəzində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri verilmişdir. Həmin təsvirin sol və sağ tərəflərində iti ucları aşağıda bir-biri ilə birləşən və kəsici tərəfləri dairənin kənarına baxan qızılı rəngdə iki ədəd qılınc yerləşir (rəsmi emblemin şəkli əlavə edilir).




*“Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəsmi embleminin təsviri”nə əlavə*

# Azərbaycan qadınlarının “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Atamoğlanova Natəvan Dəmirçi qızı
Behbudova Gülşən Behbud qızı
Əhmədova Kəhlik Talış qızı
Əliyeva Gültəkin Budaq qızı
Haqverdiyeva Sevda Haqverdi qızı
Həsənova İlhamə Hüseyn qızı
Hüseynova Mariya Pavlovna
Hüseynova Reyhan Kamranovna
Hüseynova Zərifə Bəşir qızı
Mehrəliyeva Sevil Əli qızı
Məsimova Taliyə Fəxrəddin qızı
Ramazanova Bədyalcamal Süleyman qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 mart 2024-cü il**

# Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Karbon emissiyalarının azaldılmasında, enerji səmərəliliyinin yüksəldilməsində və nəqliyyat sənayesində innovasiyaların təşviqində elektrik mühərrikli nəqliyyat vasitələrinin rolunu nəzərə alaraq, dayanıqlı və ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması daha təmiz və dayanıqlı nəqliyyat sisteminə keçidi sürətləndirmək üçün xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, elektrik nəqliyyat vasitələrindən istifadənin genişləndirilməsini, zəruri infrastrukturun inkişafını, habelə ümumi nəqliyyat sisteminə inteqrasiyanı təmin edən normativ hüquqi bazanın formalaşdırılması zəruridir.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi, Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilməsi, 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi bu sahədə aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin təzahürüdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin və elektrik enerjisi doldurma məntəqələrinin əhatə dairəsinin genişləndirilməsi, həmin məntəqələrin yaradılması işlərinə sahibkarlıq subyektlərinin cəlb edilməsi məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Azərbaycan Respublikası Energetika Nazirliyinin, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin və “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin təklifləri əsasında elektrik enerjisi doldurma məntəqələrinin quraşdırılması üçün yerləri bir ay müddətində müəyyən etsin;

1.3. elektrik enerjisi doldurma məntəqələrinin quraşdırılması, zəruri infrastrukturun yaradılması, habelə həmin məntəqələrin dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti və “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti tərəfindən müvafiq tədbirlər görülməsini təmin etsin;

1.4. bu Sərəncamın 1.3-cü bəndində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin və “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin təklifləri əsasında cari ilin və növbəti ilin dövlət büdcəsindən müvafiq vəsait ayrılması üçün tədbirlər görsün;

1.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 mart 2024-cü il**

# Baş nazir Dünya Bankının vitse-prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 7-də Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlığın mövcud olduğu bildirilib. Ötən müddət ərzində müxtəlif sahələri əhatə edən birgə layihələrin uğurla həyata keçirilməsindən məmnunluq ifadə olunub.

Baş nazir Azərbaycanda dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyatın təmin edilməsi, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, qeyri-neft iqtisadiyyatının inkişaf etdirilməsi, məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Eyni zamanda, Azərbaycanın yaşıl enerjiyə keçid strategiyası, həyata keçirilən enerji səmərəliliyi və bərpaolunan enerji layihələri, ölkəmizin iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə verdiyi töhfəsi haqqında söhbət açılıb.

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında bir çox istiqamətlərdə tərəfdaşlığın perspektivləri, əməkdaşlıq gündəliyində duran prioritet layihələrin icrası, Dünya Bankının yeni Ölkə Tərəfdaşlıq Çərçivəsinin hazırlanması, habelə cari ildə ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

# Əmək münasibətləri tənzimlənir



**Prezident İlham Əliyevin 2017-ci il 17 mart tarixli Sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib.**

Iclasda dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" çərçivəsində ötən il ərzində görülmüş işlər, əldə edilmiş nəticələr və qarşıda duran vəzifələr müzakirə edilib.

Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov 2023-cü il ərzində qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində görülmüş işlər və əldə edilmiş nailiyyətlər barədə ətraflı məlumat verib.

Komissiyanın fəaliyyəti dövründə əmək müqaviləsi bildirişlərinin sayında 41,8 faiz, fiziki şəxs fərdi sahibkarların sayında 66,4 faiz, sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz əldə etmiş sabit vergi ödəyicilərinin sayında isə 7,5 dəfədən çox artımın qeydə alındığı vurğulanıb.

"Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın icrası ilə əlaqədar Tədbirlər Planı hesabatı layihəsi müzakirə olunaraq qəbul edilib.

# Mərkəzi Seçki Komissiyasının iclası



**Məzahir Pənahovun sədrliyi ilə martın 7-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

MSK-dan bildiriblər ki, əvvəlcə Komissiyanın fevralın 1-də, 5-də və 11-də keçirilmiş iclaslarının protokolları təsdiq edilib.

Sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişikliklər olunması məsələsinə baxılıb.

Aparılan müzakirələrdən sonra 65 saylı Salyan-Biləsuvar-Neftçala, 77 saylı Lənkəran şəhər və 81 saylı İmişli seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

Media nümayəndələrinin iştirak etdikləri iclasda, həmçinin cari məsələlərə baxılıb.

*XQ*

# Ramazan ayı martın 11-dən başlayacaq

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası Ramazan ayının başlanması ilə bağlı fətva verib.**

Fətvada bildirilir ki, Qafqaz Müsəlmanları İdarəsinin müvafiq sorğusuna əsasən Elm və Təhsil Nazirliyi Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının cavab məktubuna görə, bu il Ramazan ayının 1-i miladi təqvimlə mart ayının 11-nə düşür.

*XQ*

# COP29 hazırlığı davam edir



**Martın 7-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin ikinci iclası olub.**



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Prezident İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq, ilk iclasdan ötən müddət ərzində COP29-a hazırlıq çərçivəsində görülmüş işləri qeyd etdi. Samir Nuriyev dövlətimizin başçısının sərəncamı ilə Təşkilat Komitəsinin tərkibinin daha da genişləndirildiyini, Milli Məclisin deputatlarının və vətəndaş cəmiyyəti nümayəndələrinin təmsilçiliyi ilə inklüzivliyin təmin olunduğunu diqqətə çatdırdı.

Təşkilat Komitəsinin sədri Azərbaycan Prezidenti İlham Əliyevin Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasındakı çıxışında və "Euronews" televiziyasına müsahibəsində COP29 Sədrliyinin gündəliyinin əsas istiqamətlərini və çərçivəsini müəyyən etdiyini bildirdi. Samir Nuriyev bu tezislərdə əks olunduğu kimi, xüsusilə neft və təbii qaz ehtiyatları ilə zəngin olan ölkələrə münasibətdə ədalətli yanaşmanın və bu dövlətlərin fəaliyyətlərinin onların ətraf mühit məsələlərinə verdiyi töhfə müqabilində qiymətləndirilməsinin vacibliyini vurğuladı. Təşkilat Komitəsinin sədri bu günlərdə Azərbaycanın 2020-ci il ilə müqayisədə 2030-cu ilədək metan emissiyalarının həcminin 30 faiz azaldılması hədəfini ehtiva edən "Qlobal Metan Vədi"nə qoşulduğunu bildirdi.

Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Tədbirlər Planının artıq təsdiqləndiyini, COP29-un keçirilməsi ilə bağlı Tədbirlər Planının hazırlandığını diqqətə çatdıran Təşkilat Komitəsinin sədri hər iki Tədbirlər Planı arasında uzlaşmanın təmin edilməsinin önəmini vurğuladı.

Samir Nuriyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi ilə aparılan işlərə toxunaraq, ölkəmizin hazırlıq səviyyəsinin BMT tərəfindən müsbət qiymətləndirildiyini qeyd etdi.

Təşkilat Komitəsinin sədri COP29-da Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrlik təcrübəsini və digər beynəlxalq təşkilatlarda fəal təmsil olunmasını nəzərə alaraq, ölkəmizin qlobal Cənub və qlobal Şimal arasında körpü rolunu oynamağa qadir olduğunu və COP29-da qlobal həmrəyliyə və konsensusa nail olunması istiqamətində səylər göstərəcəyini bildirdi.

Samir Nuriyev, həmçinin Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Azərbaycan və Braziliya arasında COP-la bağlı "Üçlük" mexanizminin yaradılmasının təqdirəlayiq addım olduğunu bildirdi.

Daha sonra ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev çıxış edərək, ölkəmizin COP29-a sədrliyindən irəli gələn məsələlərin müzakirəsi məqsədilə Türkiyə, Almaniya, BƏƏ və Keniyaya səfərləri, xarici ölkələrin və beynəlxalq təşkilatların iqlim məsələlərinə məsul rəsmi şəxsləri ilə keçirdiyi görüşlər barədə məlumat verdi. Muxtar Babayev bu mötəbər tədbirə hazırlıq prosesi çərçivəsində daha çox səfər və görüşün təşkil olunacağını qeyd edərək, növbəti səfərin Çinə olacağını diqqətə çatdırdı.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev COP29-a hazırlıq prosesində nəqliyyat məsələlərinin həlli istiqamətində atılan addımlar barədə məlumat verdi.

Xarici işlər nazirinin müavini, COP29-un Baş danışıqçısı Yalçın Rəfiyev Azərbaycanın COP29 prioritetləri və təşəbbüsləri, müxtəlif tərəf müqabilləri ilə təmaslar barədə danışdı.

COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri Nərmin Carçalova təşkilati-logistika məsələləri və hazırlıq işləri barədə məlumat verdi.

Milli Məclisin deputatı Nigar Arpadarai İqlim dəyişikliyi üzrə yüksək səviyyəli çempion kimi öz fəaliyyəti barədə danışdı.

Deputat Fatma Yıldırım parlament diplomatiyası və iqlim dəyişiklikləri, həmçinin Azərbaycan Respublikası Milli Məclisinin COP29-la bağlı fəaliyyəti barədə məlumat verdi.

Gənc İqlim çempionu Leyla Həsənova bu statusda keçirdiyi görüşlər və apardığı fəaliyyət barədə məlumat verdi.

Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva və "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru, "Environmental Protection First" Koalisiyasının həmtəsisçisi Pərvanə Vəliyeva COP29-da vətəndaş cəmiyyətinin rolu barədə danışaraq, vətəndaş cəmiyyəti nümayəndələrinin də Təşkilat Komitəsinə daxil edilməsinin yüksək qiymətləndirildiyini, milli və beynəlxalq QHT-lər, özəl və dövlət sektorlarının nümayəndələrinin birgə əməkdaşlığının təqdirəlayiq olduğunu bildirdilər.

İclasın sonunda COP29-un təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verildi.

*XQ*

# Dostlar, qardaşlar, strateji müttəfiqlər



**Martın 7-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Türkiyənin xarici işlər nazirinin müavini Yasin Ekrem Serim ilə görüşüb.**

Görüşdə ölkələrimizin bütün səviyyələrdə strateji müttəfiqlik münasibətlərinin daha da genişləndirilməsi istiqamətində səylərdən məmnunluq ifadə olunub.

Nazir Ceyhun Bayramov Antalya Diplomatiya Forumunun yüksək səviyyədə təşkili ilə bağlı təəssüratlarını bölüşüb, Türkiyə – Azərbaycan Universitetinin yaradılması istiqamətində qərarın iki ölkə arasında təhsil sahəsində əməkdaşlığı daha da dərinləşdirəcəyini diqqətə çatdırıb.

Azərbaycanın əsas xarici siyasət prioritetlərindən olan Türk Dövlətləri Təşkilatı çərçivəsində birgə tədbirlərin intensivliyinin artırılmasının, yeni çoxtərəfli təşəbbüslərin irəli sürülməsinin əhəmiyyəti qeyd olunub.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

# "Sağlam gələcəkdir hər ağac, hər ting"

**Mingəçevir Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəyliyə gedən yol" mövzusunda dəyirmi masa keçirilib.**



"Əvvəlcə "Yaşıl Dünya Naminə Həmrəylik ili"nə həsr olunmuş videoçarx nümayiş olunub. Sonra şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov giriş nitqi ilə çıxış edib. O bildirib ki, Prezident İlham Əliyev ötən il dekabrın 25-də 2024-cü ilin "Yaşıl Dünya Naminə Həmrəylik ili" elan olunması ilə əlaqədar sərəncam imzalayıb. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Bildirilib ki, noyabr ayında ölkəmizdə keçiriləcək COP29 beynəlxalq konfransında Azərbaycan iqlim dəyişikliyinə verdiyi töhfələrini əyani şəkildə dünya ictimaiyyətinə çatdıracaq, bütün bunlar ölkəmizin nüfuzunu dünyada bir daha artıracaq. Mingəçevir yaşıllığı ilə hər zaman seçilir. Şəhər əhalisi ekologiya ilində qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.

Tədbirdə MDU-nun şöbə müdiri, dosent Asim Məmmədov, 8 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin məsləhətçisi Ülkər Paşayeva, Mərkəzi Aran Regional Təhsil İdarəsinin Mingəçevir Təhsil sektorunun Uşaq Gənclər İnkişaf Mərkəzinin direktoru Ədalət Quliyeva müzakirə edilən mövzu ilə bağlı fikir və təkliflərini bildiribər.

Sonra tədbir iştirakçıları Bayraq Meydanı yaxınlığında və Şərq giriş qapısındakı yaşıllıq zolaqlarında müxtəlif növlü tinglər əkiblər.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Televiziya və radio verilişləri: peşəkarlıq, yoxsa bəsitlik?

## *Aparıcıların kultlaşdırılması, Maklyuenin "kənd dedi-qoduları", ictimai mənafelərə həqarət və…*

**Azərbaycanın teleradio məkanındakı mövcud vəziyyətdən danışacağıq. Əslində, indiyədək mövzuya çox yer verilib, xüsusən də nöqsan və çatışmazlıqlar qabardılıb. Amma çifayda.**



Əvvəlcə bildirək ki, teleradio məkanımızda konkret uğurlar var. Yayım keyfiyyətinin yüksəldilməsi, peşəkar kadrların işə dəvət edilməsi göz önündədir. Habelə, mövzu rəngarəngliyi, operativlik və dəqiqlik kimi jurnalistika meyarlarına ciddi şəkildə riayət edilməsi də həmçinin. Həm telekanllarımız, həm raidolarımız, həm də ümumən mediamız ümummilli məsələlərin təqdimatında, o cümlədən, Azərbaycanın ədalətli mövqeyinin təbliğində mühüm rol oynayıblar və eyni missiyanı davam etdirirlər. Onlar cəmiyyətin milli və bəşəri ideyalar ətrafında səfərbərliyi kimi məsələlərdə də öz sözlərini layiqincə deyir, vətənpərvərliyi peşə prinsipləri ilə uzlaşdırırlar.

Digər tərəfdən, Azərbaycanda medianın, televiziya və radio məkanının inkişafına dövlət dəstəyi, diqqət və qayğısı var. Bu siyasət konseptual baxışa əsaslanır. Dövlət dəstəyi medianın və jurnalistikanın cəmiyyət üçün prioritet əhəmiyyət daşıyan məsələlərə köklənməsini, onun mövcud istiqamətdəki fəaliyyətinin stimullaşdırılmasını, qeyri-obyektiv rəqabət mühitinin ictimai mənafeləri ikinci plana çıxarmasına qarşı müqavimət yaratmağı hədəf seçir.

Bəli, media fəaliyyətinin özü də müstəsna ictimai hadisədir. Bu hadisənin gerçəkləşməsi onun başlıca aktorlarının, yəni jurnalistlərin ayrı-ayrı proseslərə, olaylara həssas yanaşmasını aktuallaşdırmaqdadır. Həssaslıq isə ən böyük peşəkarlıq meyarıdır. Təəssüf ki, televiziya və radio kanallarımızdakı bəzi proqramlarda peşə həssaslığının reytinqlərdə üstünlüyə yiyələnmək istəklərinə qurban verildiyinin şahidiyik. Bu, üzücü mənzərə formalaşdırır. Əlbəttə, mənzərə yalnız üzücü deyil...

Belə bir klişeləşmiş deyim var: media cəmiyyətin güzgüsüdür. Bu deyim ilk baxışdan elə təəssürat yaradır ki, cəmiyyət necədirsə, media da həmin durumdadır. Ancaq gəlin, bir anlıq məsələyə əks bucaqdan baxaq və deyək ki, media necədirsə, cəmiyyət də elədir. O zaman belə bir suala cavab verək: mediamız, konkret olaraq televiziya və radiolarımız necədirlər, hansı durumdadırlar? Yazımız daha çox telekanallarla bağlı olduğundan, deyə bilərik ki, onların bəzi proqramlarında məsuliyyətsiz və qeyri-həssas yanaşma tərzi, əslində, cəmiyyətin də düzgün formalaşmasına mənfi təsir göstərir. Bununla bağlı misallar yetərincədir. Onlara konkretliklə diqqət yetirmək və hər birinin üzərində ayrı-ayrı dayanmaq istəməzdik. Ona görə yox ki, yarıtmaz faktları bir yazıya yerləşdirmək mümkünsüzdür. O səbəbdən ki, mənzərə utanc doğurur. Fikrimizcə, həmin mənzərənin ayrı-ayrı detallarının diqqətə çatdırılması həm də əks effekt yaradır. İstəmirik ki, miskin durumun təzahürü olan məqamlar hansısa formada reklam olunsun. Elə isə ümumi şəkildə telekanallardakı bəzi sosial və şou-biznes xarakterli verilişlər üçün səciyyəvi sayılan mənfi cəhətləri diqqətə çatdıraq.

**Birinci cəhət.** Aparıcıların auditoriyaya müraciət tərzi. Onlar öz aləmlərində xalq dilində danışdıqlarını zənn edirlər. Ləhcə və şivənin istifadəsində bəsit motivlərə köklənirlər. Ümumiyyətlə, bu baxımdan heç bir artistizm və istedad gözə dəymir. Üzə çıxan yalnız və yalnız cılızlıqdır.

**İkinci cəhət.** Əlbəttə, media, müəyyən mənada, tərbiyələndirici funksiya daşımalıdır. Yəni, onun maarifləndirici missiyası həm də fərdləri tərbiyə etməlidir. Ancaq ayrı-ayrı şəxslərin tərbiyəsizliklərinin və mədəniyyətsizliklərinin təqdimatını görürük. Bu təqdimat onların davranışlarını, bir növ, ictimailəşmiş hadisə kimi aşılayır. Nəticədə həmin davranışlar adiləşir, etalon kimi qəbul edilir.

**Üçüncü cəhət.** Bir qayda olaraq, sosial proqramlar şəxsi həyata müdaxilə motivlərinə köklənib. Düşünürük ki, bu, son dərəcə təhlükəli tendensiyadır. Aparıcılar, guya ki, kimlərinsə eyiblərini üzə çıxarmaq istəyirlər. Bu istək o qədər qeyri-peşəkar tərzdə özünü göstərir ki, istər-istəməz haqqında söz açdığımız motiv - şəxsi həyata müdaxilə ön plana çıxır. Tutalım, birinin nigahdankənar övladı var. Bu, elə tərzdə göstərilir ki, ailə dəyərləri və mental xüsusiyyətlər bir kənarda qalır, həmin adam, sözün əsl mənasında, linç olunur. Sanki telekanalda orta əsrlərdəki kimi inkvizisiya məhkəməsi qurulur. İki-üç ekspert də ortaya düşüb mənzərəni bir qədər də eybəcərləşdirir.

**Dördüncü cəhət.** Ayrı-ayrı verilişlərdə aparıcıların kultlaşdırıldığını görürük. Mövzudan çox, bu adamların obrazları gözə dəyir. Sanki ictimai motivlər bu obrazların arxasınca sürünür. Halbuki, əsla, belə olmamalıdır. Bəzi məqamlarda aparıcıların audotoriya ilə məzələnmə səhnələri və digər xoşagəlməz, təvazökarlıqdan uzaq hərəkətləri gözümüzə girir. Beləliklə, həm cəmiyyətin normaları, həm də media prinsipləri tapdalanır.

**Beşinci cəhət.** Ayrı-ayrı sosial proqramlara diqqət yetirəndə elə təəssürat yaranır ki, sanki Azərbaycanda dövlət hakimiyyəti yoxdur, dövlətin bütün funksiyalarını telekanallar yerinə yetirir. Bəzi proqramlarda aparıcılar sanki detektivdirlər və ağır cinayətin üstünü açırlar, təhqiqat aparırlar, günahkar və məsumları müəyyənləşdirirlər. Sıralarında saxta insanpərvərliyə bürünüb, guya mərhəmətli davranırmış kimi görüntü yaradanları da var. Bu kimi hallar, əslində, vətəndaşla dövlət arasında inamsızlıq toxumları səpir. **İstər-istəməz, sual yaranır: bir halda ki, aparıcılar hər bir işin öhdəsindən gəlirlər, o zaman dövlətə nə ehtiyac var?**

**Altıncı cəhət.** Bəzi televiziya və radio kanallarındakı proqramlara diqqət yetirəndə küçə söyüşlərini, jarqonları, ədəbsiz sözləri eşidirik. Ən pisi isə budur ki, belə verilişlər saatlarla davam edir. Təsəvvürə gətirin, heç bir ictimai motiv daşımayan sırf ailə-məişət məsələləri ümumi efir vaxtının 3-5 saatını alır. Heyif deyilmi? Budurmu televiziyaçılıq, budurmu jurnalistika? Qətiyyən yox!

Əslində, telekanallarımızdakı başqa mənfi halları da xarakterik tendensiyalar kimi qruplaşdırmaq mümkündür. Ədəbi dilin normalarının və qanunlarının pozulması məsələsi isə düşünürük ki, ayrıca mövzudur və məsələyə daha detallı yanaşma tələb edir. Mövcud sahədə vəziyyət, həqiqətən, bərbaddır. Nəzərə alsaq ki, media həm də dil hadisəsidir, tam əminliklə demək olar ki, hazırda bəzi televiziya və radio kanallarımız ana dilimizi korlamaqla, ona həqarətli münasibət göstərməklə məşğuldurlar.

Daha bir xarakterik tendensiyaya diqqət yetirək. Sosial şəbəkələrin informasiya yükünün artdığı hazırkı şəraitdə bu müstəvidə yayılmış bilgilərin, ayrı-ayrı fikirlərin media tərəfindən xəbərə çevrildiyinin şahidi oluruq. Əlbəttə, bunun birmənalı qaydada pis hal olduğunu söyləmək doğru olmaz. Tam mümkündür ki, hansısa vətəndaşın öz sosial şəbəkə profilində qaldırdığı məsələdə ictimai motiv olsun. Heç şübhəsiz, jurnalist, indiki halda telekanal və radio həmin məqamı işıqlandıra bilər.

Ancaq, bir qayda olaraq, sosial şəbəkələrdəki bəsitliklərin, eybəcərliklərin, dedi-qoduların televiziya ekranlarına çıxdığının, hətta dəfələrlə yayımlandığının şahidi oluruq. Bu mənzərəyə aparıcıların əl-qolla, ucuz populizm tonu, yersiz mimika və jestikulyasiyalarla "rəng qatmaları" həmin eybəcərliyi tragikomik duruma gətirir.

Digər tərəfdən, sosial şəbəkələrlə telekanalların, belə demək mümkünsə, tandemi var. Birincilər ikincilər üçün "material" olduqları kimi, ikincilər də birincilər üçün "materiala" çevrilirlər. Yəni, televiziyaların və raidoların bəsit verilişlərinin ayrı-ayrı hissələri sosial şəbəkə seqmentini "bəzəyir". Beləliklə, birincilərin nalayiq təqdimatlarındakı sərsəm motivlər sosial şəbəkələrdəki müzakirələr fonunda daha da iyrənc xarakter daşımağa başlayır.

Sonda kanadalı məşhur kulturoloq və filosof Marşal Maklyuenin bir fikrini xatırladaq. O deyirdi ki, televiziyaların sayəsində dünya böyük kəndə çevrildi və buna görə də onların verilişlərinin bir çoxu kənd dedi-qoduları üzərindədir. Əlbəttə, filosofun belə yanaşması reallığın acı inikası, telekanalların bir media orqanı olaraq ictimai maraq və mənafeləri nəzərə almamasının təsviridir. İndi Azərbaycan telekanallarındakı efir vaxtının böyük hissəsini tutan sosial verilişlərə, şou-proqramlara, eləcə də radio proqramlarına diqqət yetirəndə, kanadalı alimin nə qədər haqlı fikir söylədiyini görür, hiss edirik. Əlbəttə, təəssüflənirik də. Ancaq təəssüflənməklə iş keçmir, problemlər həllini tapmır. Ümid edirik və inanmaq istərdik ki, əlaqədar qurumlar, ən əsası isə telekanal rəhbərləri qaldırdığımız məsələlərə həssas yanaşacaq, loru dildə desək, efirə əl gəzdirəcəklər. Onlar nəzərə almalıdırlar ki, efirə əl gəzdirmək yalnız yayım siyasətini səmərəli və faydalı qurmaq yox, həm də cəmiyyətin düzgün formalaşdırılması məsuliyyətinin dərkidir.

***R.ƏVƏZ***
***XQ***

# "Toplum TV" ilə bağlı obyektiv araşdırmalar ABŞ-ni niyə narahat edir?

**(əvvəli 1-ci səhifədə)**

Xədicə İsmayıl dünən xarici KİV-lərə verdiyi müsahibədə qeyd edib ki, "Toplum TV" hüquq-mühafizə orqanları tərəfindən onun ofisində axtarış aparılmasına zəmin yaradan heç bir hüquq pozuntusuna yol verməyib. Sual yaranır: görəsən hüquq pozuntusu necə olur? Yaxud, Xədicə ismayıl qanun pozuntusu olmayıb deyəndə nəyi nəzərdə tutur? Yuxarıdakı nümunədən də görünür ki, "Toplum TV" öz fəaliyyəti dairəsində Azərbaycanın Qrant haqqında qanununu pozub.

Amma xəbər portalının pozduğu başqa bir qanun da var. "Toplum TV" KİV qurumudur. İnternet səhifəsində qeyd edilib ki, "2016-cı ilin oktyabr ayından yaradılmış müstəqil informasiya resursudur" (https://toplum.tv/sehife/biz-kimik).

"Media haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, ölkə ərazisində fəaliyyət göstərən KİV qurumları Media Reyestrində qeydiyyatdan keçməlidirlər. Düzdür, bu tələb sosial şəbəkə platformalarını əhatə etmir. O cümlədən, "Toplum TV"nin yutub sosial şəbəkə platforması üzərindən yayımlanan versiyası da mübahisələndirilə bilər. Amma yutub üzərindən yayımlanan verilişlər onun məhsulunun bir qismidir. "Toplum TV" domen adı, veb-səhifəsi, rekvizitləri olan xəbər portalıdır. Bu cür redaksiyalar üçün reyestrə düşmək zəruri şərtdir. Bu tələb "Media haqqında" Qanunda çox aydın şəkildə təsvir edilib.

"Toplum TV" qanunun tələblərini pozub, reyestrdə qeydiyyatdan keçməyib. Saytın rəsmi təsisçisi olan Ələsgər Məmmədlinin, həmçinin baş redaktor Xədicə İsmayılın açıqlamalarından görünür ki, onlar qanunun tələblərini bilərəkdən pozublar. Arqumentləri budur ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununun şərtləri ilə razılaşmırlar. Nəzərə almırlar ki, dünyanın heç bir ölkəsində legitim qanunlara tabelilik könüllük prinsipinə söykənmir.

Məsələ araşdırılmalıdır, hüquqi ölçü götürülməlidir. Bu KİV-lərin hansı məqsədlə yaradıldıqları, nə üçün maliyyələşdirildikləri və hansı güc mərkəzlərinə xidmət etdikləri müəyyənləşdirilməlidir.

Müşahidələr göstərir ki, ABŞ başda olmaqla Qərb mərkəzləri Azərbaycanda ictimai rəyi çaşdırmaq üçün çox sayda təsir agentləri yetişdiriblər. İz azdırmaq üçün onların adlarını "KİV qurumu", "QHT", "Siyasi partiya" qoyublar. Yəni, öz agentlərini məsuliyyətdən yayındırmaq üçün bir növ hüquqi platforma yaradıblar. Qrant vermək adı altında onlar üçün "qanunu maliyyə mənbəyi" təmin ediblər. Azərbaycan 2000-ci illərdən başlayaraq, bu şəbəkəni qismən ifşa edib. Zərərsizləşdirmək üçün qanunvericiliyi yeniləyib. 2014-cü ildə qrant alma prosedurlarını sərtləşdirib. Digər zəruri tədbirlər görüb. Amma indi bəlli olur ki, Azərbaycan ehtiyat tədbirləri gördüyü kimi, "qrant şəbəkəsi" də çevik tərpənib. Qeyri-leqal vəsaitin ölkəyə gətirilib agentura şəbəkəsinə çatdırılması üçün son 6 il ərzində tamamilə yeni metodlardan istifadə ediblər. "Abzas Media", "Kanal-13", "Toplum TV", "Demokratik Təşəbbüslər İnstitutu" və digərlərinin fəaliyyətinin araşdırılması bu yöndə çoxsaylı nümunələr verir.

Bu təşkilatlar öz fəaliyyətlərini Azərbaycan qanunları əsasında deyil, ABŞ-dən gələn direktivlər əsasında qururlar. Maliyyə xərcləri kimi, informasiya tezislərini də Qərbdən alırlar. Problem ondadır ki, hazırki dönəmdə Qərbdən gələn həmin tezislər milli maraqlarla daban-dabana ziddir. Onlar Azərbaycanda ictimai rəyi çaşdırmağa çalışırlar. Qarabağ üzərində qazanılmış Zəfərə kölgə salmaq istəyirlər. Xalqla dövlət arasında inamsızlıq yaratmaq, cəmiyyəti parçalamaq və ölkəni qarşıdurma zonasına çevirmək niyyətindədirlər.

Hadisələr göstərir ki, Qərb mərkəzləri Azərbaycan Ordusunun əzib dağıtdığı işğalçı Ermənistan ordusunu yenidən dirçəldirlər. Azərbaycanla Ermənistan arasında münasibətləri yenidən gərginləşdirmək, bu gərginlik fonunda Cənubi Qafqaza daxil olmaq və regionu təsir dairələrində saxlamaq üçün planlar qururlar. "Abzas Media", "Kanal-13", "Toplum TV", "Demokratik Təşəbbüslər İnstitutu" və Qərbin təxribat şəbəkəsinə daxil olan digər QHT və KİV-lər isə aldıqları qrant qarşılığında bu neokolonialist siyasəti təbliğ edirlər. Bu mövzuda Azərbaycan KİV-lərində yetərincə verilişlər hazırlanıb və araşdırma yazıları dərc edilib (https://apa.az/blog/blog-single/abs-ni-meyus-eden-secki-texnoloqlari-219). "Toplum TV"nin Qərbdən gələn sifarişlər üzrə necə təxribatlar törətdiyi arqumentlərlə isbat edilib.

İndi hüququ araşdırma aparılır. İstintaq prosesi bütün bu suallara aydınlıq gətirəcək. Bəlkə də bəraət alacaqlar. "Abzas Media" işi üzrə aparılan istintaq prosesində bu təcrübə yaşanıb. Məsələn, jurnalist Şahin Rzayev də qrant qaçaqmalçılığı işi üzrə saxlanılaraq, dindirilib. Amma prosesdə iştirakı təsdiq olunmayıb, bir sutka keçməmiş azadlığa buraxılıb. Digərlərinin əməlində şübhələr təsdiqlənib, iş davam etdirilir. Yəni, istənilən halda hüquq-mühafizə orqanlarının ədalətli qərar verəcəyinə ümid vardır.

Amma ABŞ başda olmaqla, Qərb dairələri "Toplum TV" mövzusuna sərt təpki verərək, Azərbaycan hüquq-mühafizə orqanlarına qarşı etimadsızlıq yaradırlar. Dünən ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller öz brifinqində bu məsələyə toxunub. Azərbaycanda çoxsaylı müstəqil jurnalistlərin və vətəndaş cəmiyyəti fəallarının həbs olunduğunu deyib. O, "Toplum TV" üzrə prosesin qeyd-şərtsiz dayandırılmasına çağırıb.

Buna uyğun olaraq, ABŞ-dən yönləndirilən, "milli", "regional" və "transmilli" KİV-lər hərəkətə keçiblər. "Azadlıq radiosu", "Amerikanın səsi", "OC media", "JAMnews" və digərləri "Toplum TV" ətrafında aparılan hüquqi araşdırmanı "siyasi repressiya" kimi təqdim etməyə çalışırlar. Beynəlxalq kampaniya formalaşdırmaq, təzyiq göstərmək, prosesi dayandırmaq istəyirlər. Niyə, maraqları nədir?

Görünür, onlar araşdırmalar zamanı yeni detalların üzə çıxacağından narahatdırlar. 2023-cü ilin oktyabr ayında Gürcüstan Təhlükəsizlik Xidməti USAİD-in əməlini ifşa etmişdi. Onun bir sıra "milli QHT"lərə qanunsuz qrant vəsaiti ayırdığını, "dövlət çevrilişi üçün" təlimlər keçdiyini bildirmişdi. İndi belə görünür ki, ABŞ daha bir ifşaedici materialın Azərbaycandan gələcəyini bilir. "Toplum TV"-nin daxil olduğu şəbəkə üzərində hüquqi araşdırmaların dayandırılmasını tələb edir.

***"Xalq qəzeti"nin analitik qrupu***

# Naxçıvanda 8 Mart təntənəsi



**Dünən Naxçıvanda 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təntənəli toplantı keçirilib.**

Muxtar Respublika Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkil etdiyi mərasimin əvvəlində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və iştirakçılar istedadlı qadınların rəsm və əl işlərindən, ailə təsərrüfatı məhsullarından, eləcə də qadın müəlliflərin kitablarından ibarət sərgiyə baxıblar. Məclisdə Naxçıvan Televiziyasının hazırladığı "Naxçıvan Muxtar Respublikası – 100: Azərbaycanın inkişafında qadınların rolu" filmi nümayiş etdirilib.

Toplantıda Fuad Nəcəfli ölkəmizdə həyata keçirilən dövlət qadın siyasətinin uğurlarından söz açaraq muxtar respublika qadınlarını beynəlxalq bayram münasibətilə təbrik edib, onlara yeni müvəffəqiyyətlər arzulayıb. Qadın əməyini müstəqil Azərbaycanın yumşaq gücü adlandıran natiq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə xalqımızın milli dəyərlərinin, adət-ənənələrinin dünya miqyasında təbliği, qorunması və inkişaf etdirilməsi istiqamətində görülən çoxsaylı tədbirlərdən söz açıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova qeyd edib ki, bu gün dövlət qadın və gender siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. O, qadınlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Sonra muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup qadına müxtəlif nominasiyalar üzrə diplomlar təqdim olunub.

Mərasim bədii hissə ilə davam edib.

***XQ***

# Minaaxtaran qadınların bayram şənliyi

**Martın 7-də Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) Tərtər Regional Peşə Təlim Mərkəzində 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə qadınlardan ibarət minatəmizləmə qrupu üzvlərinin iştirakı ilə bayram şənliyi keçirilib.**



Mərasimi giriş sözü ilə açan BAMF sədri Umud Mirzəyev Vətən torpaqlarını ölümsaçan minalardan təmizləyən cəsur qadınları 8 Mart münasibəti ilə təbrik edib. O bildirib ki, qadınlarımız Böyük Qayıdış prosesinə layiqli dəstək göstərir, bərpa-quruculuq meydanlarında əzmkarlıqla çalışırlar. Minaaxtaran qadınların fədakarlığı isə bütün ölkəmizi heyran qoyub. Onların çoxu məcburi köçkün, ürəklərində yurd sevgisi olan insanlardır.

Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov da minaaxtaran xanımları qadınlar günü münasibətilə təbrik edib.

***XQ***

# Xankəndidə yaşayan ermənilərə yardım

**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanov və AzQAC-ın rəhbər işçi heyəti Xankəndidə yaşayan erməniəsilli sakinləri ziyarət ediblər.**



Ziyarət zamanı onlarla müvafiq söhbətlər aparılıb, həmçinin ərzaq və gigiyenik dəstlər təqdim olunub. Novruz Aslanov bu cür görüşlərin davamlı keçiriləcəyini, onların həmişə diqqət mərkəzində olduqlarını vurğulayıb.

Erməniəsilli sakinlər humanitar yardımla bağlı AzQAC-ın əməkdaşlarına təşəkkürlərini bildiriblər.

**XQ**

# Ermənistan: siyasi dalanda yeni konstitusiya axtarışları



III MƏQALƏ

## Birinci etiraf: millətsevərliklə etnomərkəzçiliyin fərqi işığında

Ermənilər millətsevər deyillər, etnomərkəzçilərdir. "Etnomərkəzliçik" qədim yunan dilindən təcümədə "xalqın mərkəz olduğuna fokuslanmaq" anlamını verir. Bu, elə bir dünyagörüşüdür ki, öz mədəniyyəti nümunəsində başqa mədəniyyətlərin insanları haqqında mühakimə yürüdülür. Konkret olaraq, öz etnik mənsubluğunun müstəsnalığı duyğusu prizmasında başqalarının həyatı, ənənəsi və dəyərləri haqqında mövqe formalaşdırılır. Bu zaman, etnomərkəzçinin dayanıqlı identikliyi olmalıdır. Ancaq etnomərkəzçi üçün öz identikliyinin dayanıqlığı mütləq həqiqətdir, başqalarının identikliyi isə nisbidir. Bununla yanaşı, etnomərkəzçi başqalarının identikliyini aşağılaya bilir, onun dəyişməsini tələb edir və bunun üçün ən radikal addımlar belə atmağa hazırdır. Çünki onun üçün "dünyanın mərkəzi" öz etnik qrupudur.

1906-cı ildə E.Samner "etnomərkəzçi" terminini leksikona daxil edəndə izah etmişdi ki, etnomərkəzçi üçün öz qrupu "hər şeyin mərkəzində" olur, digərləri bu mövqedən qiymətləndirilir.

Məsələ bununla məhdudlaşmır. Etnomərkəzçi bu baxışlarını ideoloji səviyyəyə transfer edəndə radikalçı, terrorçu, başqalarını qəbul etməyən, özündənrazı və riyakar bir insan tipinə çevrilir. Bu proses kütləvi hal alıb, bütövlükdə, toplumu əhatə edirsə, etnik qrupun (və ya xalqın) dünyaya baxışı yanlış olur, ətrafa şizofrenik münasibət formalaşır. Erməniləri yaxından tanıyanlar bütün bunların onlara xas olduğunu dərhal qəbul edirlər.

Tarixi təcrübə göstərir ki, erməni milliyyətçisi millətsevər ola bilmir, lakin qatı etnomərkəzçi ola bilir. Bunu məhz ermənilərin qonşu xalqlara və onların mədəniyyətlərinə münasibəti sübut edir. Məsələ ondan ibarətdir ki, əsl millətsevər başqa millətlərə nifrət edə bilməz, onlara yuxarıdan aşağı baxmaz, günahsız insanlara qarşı terror törədə bilməz. Çünki millətsevər, ümumiyyətlə, "millət" anlayışını sevir. Millətin və ya xalqın nə demək olduğunu dərk edir. Bunun fonunda əgər öz xalqını, etnik qrupunu və ya daha yüksək birgəyaşam forması kimi millətini sevirsə, başqalarına sayğılı münasibət göstərər.

Rusiyada aparılmış bir sosioloji araşdırmada tədqiqatçılar bu baxımdan maraqlı nəticə alıblar. Onlar Moskvada yaşayan miqrantlardan yalnız öz tarixini yaxşı bilənlərin, mənsub olduğu xalqı dərindən sevib, ona hörmət edənlərin yad mühitə daha tez uyğunlaşdığını aşkar ediblər. Və azərbaycanlılar bu siyahıda ilk sırada olanlardandır. Çünki azərbaycanlı millətsevərdir, etnomərkəzçi deyil. O, ümumiyyətlə, xalq və millətin nə demək olduğunu Qafqazda ən yaxşı anlayandır!

Tarixə baxanda görürük ki, ermənilər, adətən, kənar təsirlər sayəsində özlərinin müstəsnalığı xəstəliyinə tutulmuşlar. Bəzi ermənilər hətta İusus Xristosun (İsa peyğəmbərin) də erməni olduğu fikrindədirlər. Bu düşüncə ilə onlar Ağrı dağını gerblərində Ermənistanın rəmzi kimi vermişlər. Onlara elə gəlir ki, dağ da etnik mənsubluq kateqoriyasına aid olan gerçəklikdir. Bir qədər də dərinə gedirlər: Nuh Peyğəmbər də ya ermənidir, ya da ona dua oxuyan, tərənnüm edəndir!

İndi N.Paşinyan nə özünü, nə də erməniləri bu miflərə uymaqla böyük tarixi səhv etdiklərinə inandıra bilmir. Hər halda bu vəziyyətin dəyişməsi üçün cəhdlər göstərir. Həmişə olduğu kimi isə yanlış yerdən başlayır. Çünki konstitusiyadan hər hansı rəmzi və ya müddəanı silə, mətndən çıxara bilərsən, lakin insanların şüurunda və psixologiyasında əsrlərlə formalaşdırılmış xəstə təxəyyülü bu yolla çıxara bilməzsən. Buna görə də ermənilər öncə özlərini dəyişməli, sonra konstitusiyalarına baxmalıdırlar. Hazırda Ermənistanda meydana gəlmiş siyasi böhranın kökündə bu ziddiyyət dayanır.

Onların Azərbaycana qarşı olan münasibətin tarixi qənaətimizi tam təsdiq edə bilir. Erməniyə elə gəlir ki, hər cəhətdən türkdən, o cümlədən azərbaycanlıdan üstündür. Bu əsasda etnomərkəzçi kimi azərbaycanlılara nifrət edir. Nifrət erməni mənəviyyatını və psixologiyasını deqradasiyaya uğradır, onu bir varlıq kimi məhv edir. Dində və elmdə deyildiyi kimi, nifrət hər bir insanın ilk növbədə özünü məhv edir. Məsələn, K.Q.Yunq, Z.Freyd, Q.D.Lassuel və başqa psixoloqlar bu barədə fikir bildirmişlər. Onlar insanın özünü daxili psixoloji dinamikada yaratdığına inanırdılar. Məsələn, K.Q.Yunq hesab edirdi ki, insan ətraf mühitin qavramına yönəlmiş insan canatması (ekstravert istiqamət) ilə özünə empatiyaya yönəlmiş (introvert istiqamət) "özünüdərkin" qarşılıqlı əlaqə dinamikasında şəxsiyyət kimi formalaşır. Burada hər hansı təhrif insanda psixoloji qüsur yaradır. Konkret isə insan etnomərkəzçi kimi əsas olaraq "öz etnik mənsubluğu"nu bütün müqayisələrin mərkəzinə qoyanda qaçılmaz olaraq psixoloji problemləri meydana gəlir.

Məsələn, insan narsist ola bilir. Psixologiyada "narsisizm" insanın özünəvurğunluğunu, eqosentrizmini və özünün hətta mənsub olduğu etnoqrup daxilində müstəsna olduğunu ifadə edir. Ermənilərdə toplum halda narsisizm güclüdür və təsadüfi deyildir ki, özlərinin çox qədim olması mifini uydurmuşlar. Qədimlik "ana bətninə", "yuvaya" qayıdışın rəmzidir və psixologiyaya görə, bu psixoloji özəlliyə narsistlər daha çox sahibdirlər.

Təbii ki, insan keçmişə xüsusi hörmətlə yanaşmalı, ənənəni davam etdirməlidir. Lakin bu, ifrat formada olursa, müasirlik unudulursa və ya ona keçmişin reallıqları prizmasında baxılırsa, birtərəfli təsəvvürlər yaranır, özünün müstəsnalığı meyli formalaşır. Ermənilər üçün bədbəxtçilikdən avropalılar və ruslar onların bu özəlliklərini daha yaxşı bilirlər və həmin radikal təsəvvürlərin ideoloji səviyyədə möhkəmlənməsinə təkan vermişlər.

Nəticədə tarixdə "erməni milli qəhrəmanı" obrazı və ya adı altında çox sayda başkəsən, terrorçu, radikal dağıdıcı, özünü hər kəsdən üstün tutan riyakar və qəddar nümunələr meydana gəlmişdir. Buna görədir ki, indiki mərhələdə belə adi erməni şüurunda türkə nifrət edən terrorçu həm də "milli qəhrəman"dır.

Məsələn, Nijde! Bu, on minlərlə zəngəzurluya qarşı terror etmiş, onları yurdlarından amansızcasına və işgəncə ilə deportasiya etmiş qatı faşist və terrorçuya qəhrəman kimi heykəl qoyanların adı nədir? Milli qəhrəman erməni təsəvvüründə millətinə müsbət xidmət edən deyildir, türk və müsəlmana daha çox nifrət edən, kütləvi qətllər törədən, vəhşiliyin bütün üsullarına bələd olan terrorçudur!

İndi bu avropalılar və farslar papaqlarını qabaqlarına qoyub fikirləşsinlər: qonşu xalqa bu cür yanaşan topluma necə haqq qazandırmaq və ya etibar etmək olar? Şübhə etmirəm ki, ermənilərə nə avropalılar, nə farslar, nə də ruslar etibar edirlər. Bunların hər biri sadəcə erməni xislətini bilərək, ondan istifadə edir və lazım olmayanda kənara atırlar! Lakin ermənilərin özləri bunu bilmirlər!

Sonra, konstitusiya və Qarabağda müharibədə məğlubiyyətlə bağlı müzakirələrdə müşahidə edilən siyasi böhranın yaranmasında bu gerçəkliyin əsas rolu vardır. Ermənin fərdi şüuru gerçəkliyi görür, baxır ki, biabırcasına uduzmuşdr, lakin bu vəziyyəti kollektiv halda obyektiv qiymətləndirməyə etnomərkəzçiliyi, psixoloji natamamlığı və özü haqqında əsrlərdir formalaşdırılmış qədimlik, mədənilik və müstəsnalıq xülyaları ona mane olur! Bu bəladan xilas olmaq üçün ilk olaraq, adam kimi Azərbaycanın qalib gəldiyini qəbul etmək zəruridir. Bu etirafı etməsələr, praktiki həyatda ona əməl etməsələr, ermənilərin nə xalq, nə də dövlət kimi gələcəyi yoxdur.

Ola bilər ki, etiraflar gerbdə, bayraqda, konstitusiyada, müstəqillik aktında bir sıra müddəaları, rəmzləri dəyişməklə müşayiət olunsun. Bunun da önəmi vardır. Lakin bütün hallarda daim uğur qazanmaq və bütövlükdə, erməni xalqının xilası üçün Azərbaycanın qalibiyyətini tam olaraq qəbul etmək gərəkdir! Görmək lazımdır ki, Azərbaycan xalqı bu regionun ən güclü dövlətçiliynə, mədəniyyətinə, pozitiv psixoloji faktorlarına və sarsılmaz iradəyə malik, gələcəyini aydın görən liderinə sahibdir. Ona görə də Azərbaycan və azərbaycanlılara yuxarıdan aşağı baxmaq yox, həmişə barışçıl, yardım edən, çətinə düşmüş qonşularına yardım əlini uzadan humanist xarakterli müasir xalq kimi baxmaq lazımdır. Təcrübə üçün Gürcüstan xalqına müraciət edə bilərlər. Bir dönəmdə Azərbaycan Gürcüstan dövləti və cəmiyyətini məhv olmaqdan xilas etdi. Ermənilər müraciət etsələr, gürcülər bunun nə demək olduğunu onlara anladarlar.

Birinci etirafın izahı hansı gerçəkliyi ortaya qoyur? Hər şeydən öncə, Ermənistan rəhbərliyinin konstitusiyanı dəyişmək cəhdi müsbət haldır. Ancaq bunu cəmiyyətdə həyata keçirilən real islahatlar fonunda etmək lazımdır. Konkret olaraq, Ermənistan insanların şüurlarında və psixologiyasında əsrlərdir yer almış xəstə təsəvvürlərdən təmizlənməlidir. O cümlədən, azərbaycanlıların (türklərin) düşmən obrazı dağıdılmalıdır. "Soyqırımı" nağılına son qoymaq gərəkdir. Bütün dövlət rəmzlərindən Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarını əks etdirən məqamlar əbədi çıxarılmalıdır.

Deməli, birinci etiraf göstərir ki, Ermənistanda böhranın syasi dalana çevrilməsinin dərin kökləri vardır və onlar cəmiyyətdaxili sosial-psixoloji faktorlardan qaynaqlanır. Ermənistan hüquqi dəyişiklikdən öncə mənəvi-psixoloji və şüuri dəyişikliyə getməlidir. Bu etirafın üzərində geosiyasi və siyasi-ideoloji səviyyədə özünü göstərən ikinci və üçüncü etiraflar edilməlidir.

Burada onu vurğulayaq ki, Azərbaycanın Qələbəsinin erməni etnomərkəzçiliyi kontekstində etirafı ilə siyasi ideoloji səviyyədə ediləcək etiraf arasında funksional fərqlər vardır. Əgər birinci etiraf, ümumiyyətlə, ermənilərin mənəvi, əxlaqi və psixoloji özəlliklərini konstruktiv yönə istiqamətləndirməklə bağlıdırsa və bu anlamda daha çox toplumsal xarakterlidirsə, siyasi-ideoloji səviyyədə etiraf cəmiyyətin idarə edilməsi və dövlətlərarası münasibətlərin formalaşdırılması ilə əlaqəlidir. Bu səbəbdən, ona ayrıca baxmaq lazımdır.

Beləliklə, birinci etiraf digərləri üçün mənəvi, psixoloji və müəyyən mənada tarixi baza rolunu oynayır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**(əvvəli 1-ci səhifədə)**

Onu da qeyd edək ki, bu il fevralın 18-də Yəməndə husi üsyançıları Ənsar Allah tərəfindən Britaniyanın Rubymar yük gəmisinə hücumundan sonra Qırmızı dənizin 18 mil (təxminən 29 kilometr) ərazisində neft ləkəsi əmələ gəlib. Bundan 3 gün sonra isə husi üsyançıları tərəfindən Yəmənə humanitar yardım aparan "Sea Champion" gəmisinə iki raket atılıb. Raketlərdən biri gəminin yaxınlığında partlayaraq kiçik ziyana səbəb olub. Buna baxmayaraq, ekipaj son mənzilə doğru yolunu davam etdirə bilib.

Son zamanlar husilərin Qırmızı dənizdə gəmilərə hücumu yükdaşıma proseslərinə də ciddi təsir göstərib, təchizat zəncirinin pozulmasına səbəb olub. Baş verən hadisələr fonunda logistika şirkətləri tərəfindən alternativ marşrutlara üz tutmağa qərar verilib. Bu marşrutlardan biri Ümid burnundan keçməklə yüklərin Avropaya çatdırılmasıdır ki, bu zaman çatdırılma müddəti ən yaxşı halda 20 gün, daşımaların xərci isə ən azı 70 faiz artıb. Həmçinin yeni yoldan istifadə gəmi və konteyner çatışmazlığına da səbəb olub ki, bu da qiymət artımında öz əksini tapıb. Bütün bu amillər Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) cəlbediciliyini və Azərbaycan logistikasının əhəmiyyətini ön plana çıxarıb.

Son dövrlər regionda baş verən hadisələr, xüsusilə Rusiya–Ukrayna münaqişəsi Orta Dəhlizin əhəmiyyətini və bu istiqamətdə daşımaların həcmini nəzərəçarpacaq dərəcədə artırıb. Təsadüfi deyil ki, ötən il Azərbaycanda dəniz nəqliyyatı ilə yükdaşımaların həcmi 2022-ci illə müqayisədə 2,1 dəfə artıb. Bu nəqliyyat vasitəsilə ixrac olunan yüklərin həcmində 48 faiz, idxal olunan yüklərin həcmində isə 2,1 dəfə artım müşahidə olunub.

Beləliklə, hazırda dəyişən geosiyasi vəziyyət nəticəsində Orta Dəhlizin artan potensialı husilərin Qırmızı dənizdə üzən gəmilərə hücumu ilə diqqət çəkir. Bunun əsas səbəblərindən biri də son həftələrdə Asiya-Avropa kimi ən çox zərər görən marşrutlarda yükdaşıma tariflərinin təxminən 300 faiz artmasıdır ki, bu tariflər potensial olaraq daha iki dəfə arta bilər. Bir çox gəmiçilik şirkəti yükdaşımalarda, əsasən, təhlükəsizliyə üstünlük versə də, xərc və zaman amili də diqqətdən kənarda qalmır. Hazırda ən böyük logistika şirkətləri tərəfindən gəmilər təhlükəsizlik səbəbi ilə Qırmızı dəniz və Süveyş kanalına deyil, Ümid burnundan (Cənubi Afrikanın yaxınlığından) keçməklə Avropaya çatdırmağı qərara alınıb, bu zaman ciddi vaxt və maliyyə itkisi ilə üzləşilib. Bununla da bu gün diqqət Azərbaycanın da fəal iştirakçısı olduğu Orta Dəhlizə yönəlib.

***V.BAYRAMOV***
***XQ***

# Geosiyasi çağırışlar Orta Dəhlizə marağı artırır




## Ekspert rəyi

**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**



Hazırda dünyada güc mərkəzləri arasında resurslar və bazarlar uğrunda qızğın mübarizə gedir. Bu baxımdan tranzit yollarının önəmi inkşaf etmiş ölkələin iqtisadiyyatları üçün mühüm əhəmiyyət daşıyır. Ona görə də dünya iqtisadiyyatının təchizat zəncirində əsas amillərdən biri olan beynəlxalq ticarət yolları "Şərq-Qərb" və "Şimal-Cənub" bu gün dunyanın gündəmindədir. Çünki Qırmızı dənizdə İsrail və Avropa gəmilərini hədəf alan Husi yaraqlılıarı böyük şirkətlərin ticarət marşurutlarını dəyişdirməyə təsir göstərir.

Mövcud problemlər barədə danışarkən qeyd edə bilərik ki, bu gün Almaniyada elektromobil istehsal edən "Tesla" şirkəti vəsait çatışmazlığı səbəbindən zavodlarını bağlamağı düşünür. Son günlər aparıcı sosial mediya şəbəklərinin fəaliyyətində belə meydana gələn problemər də bütün şübhələri Husi yaraqlılarının üzərinə yönləndirir. Belə ki, kommunikasiya xətlərinin onlar tərəfindən kəsilməsi versiyası üzərində daha çox dayanılır.

Bütün bunları nəzərə alaraq Orta Dəhlizin əhəmiyyətinin artdığını və Avropa logistik şirkətlərinin diqqət mərkəzinə gəldiyini söyləmək olar. Son zamanlar Almaniyanın Azərbaycan–Ermənistan arasinda sülhyaratma missiyası və vasitəçiliyi, Avropanın lokomativ ölkəsinin Cənubi Qafqazda dayanıqlı sülhdə nə qədər maraqlı olduğunu bir daha göstərir.

İndiki geopolitik reallıqlar Azərbaycanın tranzit imkanlarını da artırır. Respublikamız həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" marşrutlarının inteqrasiya etdiyi bir ölkəyə çevirilir. Baxmayaraq ki, Avropanın bəzi ölkələri 2023-cu ildə Orta Dəhliz üzrə yükləri otürməkdən qismən imtina etsələr də, artıq bunun əksi müsahidə olunur.

Azərbaycanın tranzit imkanları aparılan işlər nəticəsində artrılır. Eyni zamanda, Rusiya Federasıyasinin baş nazirinin müavini Marat Xusnullin də öz çıxışında Rusiyanın Hindistana edəcək ixracın Azərbaycan üzərindən keçərək həyata keçirilməsini nəzərdə tutduğunu bəyan etməsi tarixi İpək Yolu üzərində yerləşən Azərbaycanın açar ölkə olmasının bariz göstəricisidir.

Son olaraq onu demək olar ki, "Azerbaijan Digital Hub" proqramının birinci mərhələsi çərçivəsində icra edilən ən mühüm layihələrdən biri də məhz Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin yaradılması ilə bağlı aparılan "Rəqəmsal İpək Yolu" ("Digital Silk Way") layihəsidir.

Tarixi İpək yolunu üzərində yerləşən əlverişli coğrafi mövqeyə "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin mərkəzinə çevrilmiş Azərbaycan Respublikası hazırda Qərblə Şərq arasında, həm də rəqəmsal ipək yolunun yaradılması üzrə geniş imkanlara sahibdir. Proqram çərçivəsində icra olunan bu layihə Avropa internet mərkəzlərindən rəqəmsal kontentin və internet xidmətinin məhz Azərbaycan üzərindən Asiya ölkələrinə daşınmasını nəzərdə tutur.

Layihə Azərbaycanın yaradılacaq telekommunikasiya dəhlizində mərkəzi mövqeyə sahib olmasını, internet xidmətinin və iri kontent operatorları olan "Google", "Amazon", "Alibaba", "Netflix", "Facebook" və digərlərinin kontentin daşınmasında tranzit ölkə olmasını, gələcəkdə isə Bakının İnternet Mübadilə Mərkəzinə çevrildikdən sonra mərkəzə çevrilməsini və bu kontentin, eləcə də internetin artıq buradan Orta və Cənubi Asiya regionu dövlətlərinə, eləcə də ətraf region dövlətlərinə daşınmasını özündə ehtiva edir.

# İrəvan–Avropa İttifaqı: xoruzun quyruğu göründü

*Ermənistanın Rusiya ilə körpüləri yandırmaq qərarı ciddiləşir*

**Ermənistan–Avropa İttifaqı (Aİ) münasibətlərinin mülkidən daha çox hərbi xarakter daşıdığı əvvəlcədən bəlli idi. Fransanın dominantlıq etdiyi bu qitə təşkilatının Ermənistanda yerləşdirdiyi bədnam "mülki missiya"nın nadincliyi barədə dəfələrlə yazmışıq. Faktiki olaraq kəşfiyyat xarakterli missiyanı yerinə yetirən, istefadakı fransız jandermeriyasının və ordudan tərxis olunmuş alman hərbçilərinin təmsil olunduğu bu kontingent birtərəfli qaydada İrəvanı qorumaqla məşğuldur. İki ölkə arasında situasiyanın monitorinqini həyata keçirdiyini bəyan edən bu missiya ermənilərin Azərbaycanla şərti sərhəddə törətdiyi təxribatlara nəinki susur, əksinə, birtərəfli qaydada Bakını günahlandırmağa cəhd göstərir. Yeri gələndə isə faktları təhrif edir, reallığa uyğun olmayan məsuliyyətsiz bəyanatlar səsləndirir.**





Məsələnin maraqlı tərəfi həm də odır ki, Yelisey sarayının diktəsi ilə hərəkət edən missiyanın davranışından ermənilərin özləri də məmnun deyil. Onlar bu barədə tənqidlərini açıq şəkildə yazır və dilə gətirirlər. Aİ missiyasının ünvanına həmin iradlar onun bölgədə mövcudluğundan qəti narazı Rusiyanın, yaxud İranın mediasında deyil, Ermənistan mətbuatında yayılır. Axı, sadəcə, adı mülki olan bu missiyanın Cənubi Qafqazda peyda olması Bakıdan da çox Moskvada və Tehranda qıcıq yaradır.

*

Rusiyanın "Grey Zone" teleqram kanalı Ermənistanın müdafiə naziri Suren Papikyanın Avropa İttifaqının baş diplomatı Josep Borrelə məktubu ilə bağlı material dərc edib. Həmin məktubda Papikyan Aİ-dən Avropa Sülh Fondu (ASF) vasitəsilə "logistika və hərbi tibb sahəsində" Ermənistana yardım göstərilməsini istəyib. Papikyan yazır ki, bu yardım "Ermənistanın təhlükəsizlik arxitekturasının şaxələndirilməsində mühüm rol oynayacaq" və bu, "regionda mövcud reallıqları nəzərə alaraq, Ermənistan üçün həyati əhəmiyyətə malikdir".

Məktubun məzmunundan göründüyü kimi, Ermənistan və Aİ arasında birgə əməkdaşlıq münasibətləri prinsipcə yeni mərhələyə qədəm qoyur. Bu, artıq Aİ-nin ASF vasitəsilə Ukrayna silahlı qüvvələri üçün səxavətlə həyata keçirdiyi layihənin Ermənistana "tamhüquqlu əməkdaşlıq" formasında yardım kampaniyası ola bilər. Papikyanın məktubundan bu məntiqi nəticə çıxır. Aydın məsələdir ki, "məktub olayı"nın ortaya çıxarılmasında başqa məqsədlər də var. Yəni, Moskva özündən sürətlə uzaqlaşmanın sürətlənməsi kontekstində İrəvana göstərmək istəyir ki, onun atdığı və atacağı bir addım belə Rusiya xüsusi xidmət orqanlarının diqqətindən kənarda qalmır.

**Rəsmi İrəvanın atdığı bu addımın bir sıra məqsədlərdən xəbər verdiyini deyən Qərbi Kaspi Universitetinin professoru, siyasi şərhçi Fikrət Sadıxovun fikrincə,** bununla



Paşinyan hakimiyyəti elektoratı sakitləşdirməyə çalışır: "Demək istəyirlər ki, müharibədə Azərbaycana uduzmağımıza baxmayaraq, biz artıq silahlanmışıq və özünü müdafiə etməyə qadir dövlətə çevrilmişik. Digər tərəfdən, demək istəyirlər ki, baxın, bizi dəstəkləyən qüvvələr az deyil. Bu, həm də region ölkələrinə, o cümlədən Azərbaycana yönəlik ismarıcdır. Amma bu ideyanın nə dərəcədə reallaşacağını zaman göstərəcək. Çünki Aİ Ukraynaya yardım göstərmək planında bir sıra problemlərlə üzləşib. Misal üçün, Macarıstan buna etirazını bildirmişdi. Aİ üzvləri yalnız müxtəlif vasitələrlə Budapeşti ram edəndən sonra Kiyevə hərbi kömək edə bildilər".

Tanınmış politoloq Papikyanın Borrelə məktubunun altında Paşinyanın beynəlxalq müstəvidə hesablanmış siyasi addımının gizləndiyini də istisna etmir: "Paşinyan ölkəsinin Rusiyaya çox tellərlə sıx bağlı olduğunu yaxşı başa düşür. İrəvanın atdığı yeni addımlar reallaşacağı təqdirdə, bu, Kremli ciddi şəkildə narahat edəcək. Bu narahatlıq və narazılığın, hətta, regionda, ilk növbədə, Ermənistanda hərbi qarşıdurmaya gətirib çıxaracağını istisna etmək olmaz. Belə texnologiyaların ustası sayılan Rusiya tərəfdaşlarına kömək adı altında Ermənistanda olduqca mürəkkəb hərbi-siyasi situasiya yarada bilər. Paşinyan bu cür təhlükəli oyunlara gedəndə, görünür, bu amilləri yaddan çıxarır. Bu, ya onun diplomat kimi səriştəsizliyindən, ya da bunu, guya, region ölkələrinə əzələ nümayişi kimi qələmə vermək planından irəli gəlir".

*

İndi İrəvan sanki özü üçün nəyin pis, nəyin isə daha pis olduğunu aydınlaşdırmağa çalışır. S.Papikyanın J.Borrelə, demək olar ki, gizli məktubunu ələ keçirən Moskva bununla hər tərəfə çatacaq uzun qollara malik olduğunu bir daha göstərdi. Bu iki ölkənin münasibətlərində səsi eşidilən "həqiqət saatı"nın yaxınlaşdığının sübutu kimi başqa bir faktı da yada sala bilərik. Söhbət Antalyada keçirilən diplomatik forumda erməni həmkarı Ararat Mirzoyanın ona yaxınlaşmasını səbirlə gözləyən Rusiya Xarici işlər naziri Sergey Lavrovun, bu, baş verməidiyindən Moskvaya qayıtdıqdan dərhal sonra "ələkeçməz" diplomata telefon açmasından gedir. Telefon danışığının təfsilatı açıqlanmasa da, Lavrovun



Mirzoyana Antalyada eşitməkdən qaçdığı nə barədəsə xəbərdarlıq etdiyi şübhə doğurmur.

"Əgər tezliklə erməni mallarının Rusiya ərazisinə girişi qadağan edilsə, buna təəccüblənmərəm. İrəvanın anti–Rusiya ritorikası üzərində bizim təsir rıçaqlarımız var". Bu sözləri isə rusiyalı ekspert Yevgeni Mixaylov söyləyib. O, daha sonra erməni xalqına yazığı gəldiyini bildirsə də, fəqət İrəvan indiki siyasətini davam etdirərsə, bunun yaxşı heç nəyə gətirib çıxarmayacağına əminliyini ifadə edib.

**Mövzu ilə bağlı "XQ"yə açıqlama verən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu İrəvanın Moskva ilə artıq "va-bank"a getdiyini dedi:** "Baş nazir Nikol Paşinyan, eləcə də hökumətin digər üzvləri açıq şəkildə bildirirlər ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) fəaliyyətini dondurub və bu qurumu tərk etmək barədə ciddi düşünür. Bu fikri Paşinyanın özü də açıqlayıb. Bu isə o deməkdir ki, lap yaxınlarda bu məsələ rəsmi şəkildə



qaldırılacaq. Artıq İrəvan Moskvaya rəsmi məktubla müraciət edərək, rus sərhədçilərinin "Zvartnos" hava limanından çıxmalarını tələb edib. Yəni, Rusiya ilə aralarındakı körpülərin hamısını yandırmağa başlayıblar. İntəhası, Paşinyan onu da yaxşı anlayır ki, əgər o, Rusiyadan uzaqlaşırsa, bunun alternativini tapmalıdır. Yaranacaq təhlükəsizlik boşluğunu kimsə doldurmalıdır. Avropa İttifaqına müraciətlərin sayı məhz buna görə artıb. Üstəgəl, Ermənistanın bu quruma üzvlüyü ilə bağlı daxildə müzakirələr başlayıb. Bir növ Paşinyan məsələlərə kompleks yanaşır. O, başa düşür ki, əgər Rusyadan sürətlə qopacaqsa, həmin sürətlə o boşluğu doldurmalıdır. Əks–təqdirdə Moskva Ermənistanı və Paşinyanın özünü çox ciddi şəkildə cəzalandıra bilər".

İrəvanın alternativ gücü yalnız Avropada gördüyünü vurğulayan E.Şahinoğlu Avropa İttifaqının Ukraynada necə hərəkət etdiyini də göz önünə almağın vacibliyini önə çəkdi: "Ukrayna az qala Avropanın tərkib hissəsi sayılan ölkə olsa da, artıq iki il idi Aİ Kiyevə normal hərbi texnika göndərə bilmirdi. İndiki vəziyyətdə Paşinyana da müxtəlif şirin vədlər verilə bilər. Amma bu, həmin vədlərin yerinə yetiriləcəyi mənasına gəlmir".

*

Beləliklə, Ermənistan hökuməti Rusiya ilə münasibətləri aşkar şəkildə kəsməyə başlayıb. Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini Konstantin Zatulin bildirib ki, Ermənistan hökuməti Moskva ilə əlaqələri nümayişkaranə şəkildə kəsir: "Buna səbəb axtarır, bir addımın ardınca digəri gəlir, bu, onların siyasətinə uyğundur. Düşünürəm ki, məsələ "Zvartnots"la məhdudlaşmayacaq. İndi nə deyirlərsə–desinlər, yavaş-yavaş KTMT-dən çıxmağı həyata keçirirlər. Sonra da Gümrüdəki 102-ci hərbi bazamızın çıxması məsələsini qaldıracaqlar".

Bununla paralel olaraq, göründüyü kimi, "daşlar ölkəsi"ni cənubdan da sıxmağa başlayıblar. Həmin Papikyanın iki gün bundan əvvəl Tehrana səfər etməsi də əbəs deyildi. Eyni vaxtda Qərbyönlü erməni KİV-ində anti-İran isterikasının güclənməsi də təsadüf sayıla bilməz. Bu barədə özünün Telegram kanalında politoloq Sergey Melkonyan müəyyən fikirlərini paylaşıb. Onun tezislərinin Moskvanın Ermənistandakı "Verelq" kimi ideoloji ruporu tərəfindən dərc edilməsi müəyyən qənaətə gəlməyə əsas verir. Belə tezisləri, bir qayda olaraq, Rusiya əleyhinə təbliğat aparan saytlar və ayrı-ayrı şəxslər yayırlar.

İrəvanın yeritdiyi xarici siyasət xəttinin nəticələrini indidən görmək mümkündür. Ermənistan hakimiyyəti Rusiya ilə körpüləri yandırmaqda davam edərsə, digər tərəfdən, İranla da münasibətləri bilərəkdən pisləşdirərsə, o zaman yaranan boşluğu dolduracaq yeganə regional güc Türkiyə ola bilər.

**Bu barədə fikirlərini "XQ" ilə bölüşən politoloq Fərhad Məmmədovun sözlərinə görə,** İran indi "Ermənistandan gözləntilərinə cavab tələb edir: "O cümlədən Azərbaycanla şərti sərhəddə İran missiyasının yerləşdirilməsi, habelə Tehranın Moskva ilə birlikdə Qərbi Zəngəzurda hərbi bazasını yerləşdirməsi planı var. İran hazırda Hindistan silahlarının çatdırılması üçün Ermənistana öz ərazisindən istifadə imkanı yaradır və bu xidmətindən rəsmi İrəvanı şantaj etmək üçün yararlanmağa çalışır. Bu minvalla Ermənistan tədricən klassik tərəfdaşları arasında qarşıdurmaya sürüklənir və bu qarşıdurma informasiya cəbhəsində də davam edir".



Münasibətlərin açıq qarşıdurmaya keçidin zaman məsələsi olduğunu deyən F.Məmmədov bunun qarşısını ilin əvvəlindən haqqında danışılan daxili siyasi böhran və ya növbədənkənar seçkilərin ala biləcəyinə diqqəti çəkdi: "Rusiya ilə İranın strateji müttəfiqliyini nəzərə alsaq, Moskva və Tehranın İrəvana eyni vaxtda təzyiq etmək qərarına gəldiklərini ehtimal etmək olar. Ermənistan mətbuatında İran əleyhinə kampaniya Paşinyan tərəfindən deyil, ABŞ səfirliyinin təşəbbüsü ilə aparılır. Bu kampaniyaya ABŞ-ın Ukraynadakı keçmiş səfiri və informasiya resurslarının formalaşdırılması üzrə mütəxəssis rəhbərlik edir".

*

Hələlik Paşinyan eyni vaxtda iki, üç, yaxud daha çox stulda oturmağa cəhd edir. Amma görünən odur ki, Ermənistanın Qərb himayədarları artıq bu variantdan heç də razı deyillər. İndi Paşinyana təkcə daxildəki Rusiyayönlü müxalifət deyil, həm də ofisinin divarları arasında daha radikal Qərbyönlü düşərgə dayanıb. Bu arada Tehran səfəri zamanı İranın müdafiə naziri Məhəmməd Rza Aştiani ilə görüşən Ermənistanın müdafiə naziri Suren Papikyan hər iki ölkənin regional sabitlik məsələsində oxşar mövqedə olmasının vacibliyindən, təhlükəsizliyə nail olmaq üçün əlaqələri daha da sıxlaşdırmağın əhəmiyyətindən danışıb. Öz növbəsində M.R. Aştiani bütün qonşularla münasibətlərin möhkəmləndirilməsinin İranın xarici siyasətinin tərkib hissəsi olduğunu, amma Ermənistanın onlar üçün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Nazir Tehranın region ölkələrinin ərazi bütövlüyü və suverenliyinin dəstəklənməsində qətiyyətli mövqeyini bir daha bəyan edib.

Cənubi Qafqazın təhlükəsizlik arxitekturası regionun özündə formalaşmalıdır. Əkshalda, o, bu gün İrəvanın atdığı yanlış addımların sonucunda fövqəldövlətlər arasında hərbi teatr meydanına çevrilə bilər.

***İmran BƏDİRXANLI***
***XQ***

# İran – Ermənistan ziddiyyəti: Aştiani dedi, Papikyan qulaq asdı

*Regional təhlükəsizlik məsələsinə fərqli baxışlar*

**Ermənistanın müdafiə naziri Suren Papikyanın İrana səfəri və həmkarı Məhəmməd Rza Aştiani ilə görüşü siyasi müşahidəçilərin və ekspertlərin diqqət mərkəzindədir. Bu barədə söz açacağıq. Ancaq əvvəlcə bir məqamın üzərində dayanaq.**

Məlum olduğu kimi, İran – Ermənistan əməkdaşlığı hər zaman özünün çoxqütblülüyü ilə fərqlənib. Əgər İran – Azərbaycan münasibətlərində zaman-zaman gərginliklər qeydə alınıbsa, bu baxımdan Tehran – İrəvan əlaqələrində hansısa diskomfort yaşanmayıb. Məsələyə bir qədər geniş yanaşsaq, İranın, böyük ölçüdə, nə Rusiya, nə Türkiyə, nə də Gürcüstanla problemi olub.

Onu da demək lazımdır ki, İranda anti-Azərbaycan və anti-Türkiyə qüvvələrin baş qaldırdıqlarını görmüşük. Bu mənfi meyil rəsmi Tehranın kursuna da təsir edib. Ümumən, İran – Azərbaycan münasibətlərindəki gərginliyin hər zaman Ermənistan fazasının olduğunu da vurğulamalıyıq.



Digər tərəfdən, vaxtilə Ermənistanın İrana yanaşmasında Rusiya faktoru mühüm rol oynayıb. Yəni, Moskva hara qədər icazə veribsə, İrəvan həmin məsafəyədək Tehranla işbirliyi qurub. Əslində, mövcud reallığı İslam respublikasının rəsmi dairələri də yaxşı biliblər. Sadəcə, durum onlara sərfəli olduğundan, əməkdaşlıq xəttini davam etdiriblər.

Demək olmaz ki, 2018-ci ildə Qərbpərəst Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra Ermənistanın Qərbin düşməni kimi qəbul edilən İranla münasibətlərində hansısa soyuqlaşma qeydə alınıb. İrəvan rəsmiləri anlayıblar ki, eyni anda həm Azərbaycana, Türkiyəyə və Rusiyaya, həm də İrana qarşı çıxmaq mümkünsüzdür. Yəni, bu səriştəsizlər və siyasi qısırlar yığını, heç olmasa, bu məsələdə düzgün davranıblar.

Ermənistan rəhbərliyi İranın, xüsusən, 44 günlük müharibədən sonrakı mövqeyinə arxalanmaq xətti seçib. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərin icrasından boyun qaçıran rəsmi İrəvan ölkənin ərazi bütövlüyü və suverenliyi məntiqini, belə demək mümkünsə, satışa çıxarıb. Obrazlı desək, bu məntiqin ən birinci "alıcısı" məhz İran olub. Beləliklə, rəsmi Tehranın Azərbaycanın "Zəngəzur dəhlizi" (Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yol – red.) ideyasına qarşı çıxmasına dair siyasi klişe yaranıb.

Ancaq o zaman İrəvan Qərbi Cənubi Qafqaza indiki qədər əzmlə gətirməmişdi. Paşinyan Naxçıvana yola özünün də imzasının yer aldığı üçtərəfli bəyanatda əksini tapmış təminat məsələsini Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin pozulması kontekstində yanaşmış və mövcud istiqamətdə manipulyasiyalara əl atmışdı. İslam respublikası isə İran–Ermənistan ənənəvi quru yolunun bağlanmasının yolverilməzliyi üzərində dayanmışdı. Halbuki, sonradan tam aydın oldu ki, Azərbaycanın Naxçıvana yolu Ermənistan ərazisinə qəsb deyil. Bakı, sadəcə, həmin yolda sərhəd və gömrük nəzarətinin tətbiqini istəmir. Yəni, "Azərbaycandan Azərbaycana yol" məntiqini əsas götürür.

O da məlumdur ki, hazırda Ermənistan bu məntiqə, başqa sözlə desək, ölkəmizin mövqeyinə Qərbə arxalanaraq qarşı çıxır. Mövcud prosesdə biz Qərbin Cənubi Qafqaza daha çox nüfuz etmək və Rusiyanı bölgədən tamamilə sıxışdırmaq niyyətini görürük. Heç şübhəsiz, durum İranın da diqqət mərkəzindədir və bunu Aştiani ilə Papikyanın Tehran görüşündə səslənmiş fikirlərdən də duymaq mümkündür.

Ancaq hələ buna qədər vurğulanmalı bir məqam da var. Söhbət "3+3" regional platformasından gedir. O platforma ki, "region region ölkələri üçündür" prinsipini rəhbər tutur. Ermənistan sözügedən müstəvidə təmsil olunur. Ancaq onun təmsilçiliyi candərdi xarakter daşıyır. Əksinə, İran üçün məsələ son dərəcə aktualdır və kifayət qədər ciddi təminatdır. Cənubi Qafqazın ənənəvi oyunçuları Azərbaycan, Türkiyə və Rusiya Tehranı əmin edirlər ki, "3+3" həm də onun regional maraqlarının nəzərə alınmasıdır. Əlbəttə, bu xüsusda region dövlətlərinin sərhədlərinin dəyişməzliyi amili də var ki, bu isə İranın hazırkı mövqeyi ilə səsləşən siyasi tezisdir.

Bəs Ermənistan hansı xətti götürür? İrəvan əvvəlki kimi, ölkənin ərazi bütövlüyü və suverenliyi məntiqini satışa çıxarır və görünür, Qərb özünün Cənubi Qafqaz avantürizmi müstəvisində İrandan daha yaxşı alıcıdır. Əgər hazırda Tehran üçün sərhədlərin dəyişməzliyi prinsipi prioritetdirsə, Ermənistan özünün destruktiv mövqeyi ilə həmin prinsipə, bir növ, zor tətbiq etməklə məşğuldur. Birincisi, ölkə Azərbaycanla şərti sərhəddə təxribatlar törədir, Bakını işğalçı kimi qiymətləndirib silah-sursat alır. İkincisi, sürətli silahlanmanın Azərbaycana qarşı yeni müharibəyə başlamaq məqsədini yalnız biz yox, erməni mediasının özü vurğulayır. Belə olan halda, İranın prinsipial xəttində dəyişikliyin formalaşması mütləqdir. Çünki hazırkı durumda Azərbaycana qarşı müharibə həm də Qərbin Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq əzminin göstəricisidir. Rusiyasız Cənubi Qafqaz məntiqinə gəldikdə, bu, o deməkdir ki, Moskvadan sonra növbə Tehranındır. Şübhəsiz ki, İslam respublikasında məsələnin yaxşı fərqindədirlər.

Yəqin, bütün bunlara görədir ki, Papikyanın Tehranda iranlı həmkarı Aştiani ilə görüşü heç də rəvan müstəvidə keçməyib. Regional təhlükəsizliklə bağlı məsələlərin müzakirəsinin aparıldığı görüşdə Aştiani bütün qonşularla əlaqələrin gücləndirilməsinin İran İslam Respublikasının xarici siyasətinin prinsiplərindən biri olduğunu bildirib. O, mövcud xüsusda Ermənistanla da əlaqələrə böyük əhəmiyyət verildiyini deyib. Müdafiə nazirinin bu fikirləri İranın regionda münasibətlər baxımından paritet yaratmaq istədiyinin göstəricisidir. Qeyd edək ki, indiyədək İran – Ermənistan təmasları baxımından mövcud ritorika heç də indiki qədər qabarıq olmamışdı. Hesab edirik ki, belə yanaşma ikincinin avantürizminin birinci tərəfindən qəbul edilməməsinin təsdiqidir.

Maraqlıdır ki, Məhəmməd Rza Aştiani İranın ərazi bütövlüyü və suverenliyin toxunulmazlığı prinsipinə sadiqliyini ölkəsinin regionda sülhün bərqərar olmasına dəstəyi kontekstində ifadə edib. Bu, nə deməkdir? Belə düşünmək mümkündür ki, əgər bölgədə sülhü pozmağa yönəlmiş qüvvələr aktivləşəcəksə, sözügedən prinsiplərin Tehran üçün heç bir əhəmiyyəti qalmayacaq. Həmin qüvvələrin kim olduqları isə hər kəsə yaxşı məlumdur.

Bəli, İran rəhbərliyi həmin qüvvələrin kimliyini yaxşı dərk edir. Elə məhz buna görə də cənab Aştiani bildirir ki, İslam respublikası Qafqaz regionu ilə bağlı siyasətinə sadiq qalacaq və Azərbaycanla Ermənistan arasında birbaşa danışıqları dəstəkləyəcək. Birbaşa danışıq təklifini irəli sürən Bakıdır, ondan imtina yolu tutan isə İrəvan. O zaman Qərbin Cənubi Qafqazda möhkəmləndirmək məqsədinin olduğunu yenidən vurğulayaq. Aydındır ki, İran məhz bu tendensiyanı regional təhlükəsizlik üçün təhdid kimi görür. Ona görə ölkənin müdafiə naziri deyir ki, regional təhlükəsizlik region ölkələri tərəfindən dəstəklənməlidir və bu siyasətə zidd hansısa yanaşma heç bir şəkildə qəbuledilməzdir.

O zaman gəlin, görək S.Papikyan Tehranda iranlı həmkarı ilə görüşdə nələrdən söz açıb. Yox, elə düşünməyin ki, erməni nazir böyük mətləblərə baş vurub. Onun Aştianinin sadaladığımız fikirlərinin qarşılığında deyəcək heç bir tutarlı sözü ola bilməz. Fikrimizi erməni mediası da təsdiqləyir. Hiss olunur ki, Papikyan Tehrana getməyinə əməlli-başlı peşman olub.

Əslində, yazıda vurğuladığımız ayrı-ayrı məqamlarla İran – Ermənistan münasibətlərindəki hazırkı ziddiyyət trayektoriyasının müxtəlif qütblərini diqqətə çatdırdıq. Ancaq bu baxımdan erməni nazirin dilə gətirdiyi yalnız bircə cümlə (mediada ancaq bu cümlə yer alıb – red.) hər şeyi deyir: "Bizim üçün hər iki ölkənin regionda sabitliyə eyni münasibət bəsləməsi çox vacibdir".

Bəli, Papikyanın əlavə olaraq Tehran və İrəvan arasında daha sıx ikitərəfli münasibətlərə çağırış səsləndirməsi yalnız və yalnız təfərrüatdır. Çünki İran və Ermənistan regional təhlükəsizlik və sabitlik məsələlərinə fərqli münasibət bəsləyirlər. Bunu Aştianinin fikirləri də göstərdi, həmin fikirlərə qarşılıq Papikyanın bircə cümləlik münasibəti də. Hiss olunur ki, İrəvan Tehranı özünün saxta səmimiyyətinə inandırmaq və qəti şəkildə öz tərəfinə çəkmək niyyətindədir. Tərəf bəllidir. Ən əsası isə Ermənistan tərəfində İrana nəinki yer olmadığı, ölkəni parçalamaq istəyən qüvvələrin pusquda dayandıqları da gün kimi aydındır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Yüksəlişin nəbzi Qarabağ və Şərqi Zəngəzurda döyünür

**“Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası üçün 2022–2026-cı illərdə təqibən 32 milyard manat məbləğində vəsait tələb olunur. Bundan əvvəl–2021–2023-cü illərdə isə dövlət büdcəsindən bu məqsədə 12,1 milyard manat vəsait ayrılıb.**

Qeyd edək ki, təkcə 2023-cü ildə işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində işlər sürətlə davam etdirilib, bu ərazilərdə Azərbaycan Ordusunun, fövqəladə hallar, təhlükəsizlik orqanlarının fəaliyyətinin təmin edilməsi, ərazilərdə minatəmizləmə tədbirlərinin təşkil olunması, habelə su, elektrik enerjisi, qaz və istilik təchizatı, həmçinin yol infrastrukturunun qurulması, habelə təhsil, səhiyyə, idman, mədəniyyət obyektlərinin tikintisi, azad olunmuş ərazilərdə əhalinin mərhələlərlə maliyyələşdirilməsi təmin olunub. Ötən il dövlət büdcəsindən azad edilən ərazilərin yenidən qurulması üçün 5 milyard 588 milyon manat vəsait ayrılıb.



Vətən müharibəsindən dərhal sonra düşməndən təmizlənən ərazilərdə aqrar sektor üzrə layihələrin icrasına başlanılıb. Təkcə 2022–2023-cü təsərrüfat ili üzrə 84,4 min hektar sahədə payızlıq taxıl əkini aparılıb. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında” Prezident İlham Əliyevin 2021-ci il 27 aprel tarixli Fərmanının icrası çərçivəsində aqrar sahədə fəaliyyət göstərən subyektlərlə Zəngilan rayonunda 2,2 min hektar (o cümlədən 720 hektar örüş), Qubadlı rayonunda 2 min hektar əkin sahəsi üzrə uzunmüddətli (40 il), digər sahələr üzrə isə qısamüddətli (11 ay) icarə müqavilələri bağlanılıb.

2022-2023-ci təsərrüfat ilində icarəyə verilən 68,5 min hektar əkin sahəsi üzrə icarə müqavilələrinin müddəti 2023-ci ilin noyabr ayında başa çatdığı üçün müqavilələrə xitam verilib. 2023–2024-cü təsərrüfat ili üzrə qısamüddətli icarə müqavilələri imzalanıb. Həmin ərazilərin kənd təsərrüfatı potensialının dəqiqləşdirilməsi məqsədi ilə faktiki əkin yerlərinin məlumatlar bazasına daxil edilərək xəritələnməsi gerçəkləşdirilib.

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən işğaldan azad edilən sahələr üzrə Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Xocalı, Xocavənd, Zəngilan və Tərtər rayonlarının müvafiq ərazilərində fəaliyyət göstərən 18 kənd təsərrüfatı məhsul istehsalçısına 73,5 min hektarda becərilən əkinlərə və çoxillik əkmələrə görə, dövlət büdcəsinin vəsaiti hesabına 16 milyon 701 min manat məbləğində əkin subsidiyası verilib.

Bundan başqa, Tərtərin Çaylı və Xocavənd rayonunun Məmmədderə kəndləri ərazisində salınmış meyvə bağları üçün Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaiti hesabına ümumi dəyəri 2 milyon 75 min manat olan 2 dəst damlama suvarma sistemlərinin alışının, Qubadlı rayonunun Xanlıq kəndi ərazisində 14 dəst pivot suvarma sisteminin alışının maliyyələşdirilməsi məqsədi ilə 999 min manat güzəşt ayrılıb. Eyni zamanda, ümumi dəyəri 525 min manat olan 15 kənd təsərrüfatı texnikasının alışının maliyyələşdirilməsi məqsədilə 86 min manatlıq kredit və 183 min manatlıq güzəşt reallaşdırılıb.

Görülən işlər sırasında azad edilmiş rayonlarda daşınmaz əmlakın arxiv sənədlərinin rəqəmsallaşdırılması da diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə 165 min daşınmaz əmlakın arxiv sənədləri rəqəmsallaşdırılıb. Məsələn, Laçın rayonu ərazisində təmir olunan 367 fərdi yaşayış evinin və 144 mənzilin, Zabux kəndində yeni tikilən 223 fərdi yaşayış evinin və Şuşa şəhərində 223 mənzilin texniki pasportu hazırlanıb. Bundan başqa, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın, Zəngilan, Xocavənd, Ağdam rayonları üzrə arxiv sənədlərinin mövcud tikililərə bağlantısı prosesi həyata keçirilib, yaranan uyğunsuzluqlar araşdırılaraq müvafiq rayon icra hakimiyyətləri nümayəndələrinin iştirakı ilə dürüstləşdirilib.

İşğaldan azad olunan ərazilərdə dəymiş ziyanın müəyyənləşdirilməsi məqsədi ilə rayon icra hakimiyyətlərinin, mərkəzi icra hakimiyyətləri və digər dövlət müəssisə və təşkilatlarının nümayəndələrinin iştirakı ilə 2023-cü il ərzində “QRGS” üzərindən 968 daşınmaz əmlak (bina va tikili) barədə arxiv məlumatları (sənədləri) rəqəmsallaşdırılıb, həmçinin 1132 bina və tikili ərazilərdə aparılan inventarlaşdırma nəticəsində təsbit edilib. Ümumilikdə isə hesabat ilinin sonuna 165 min daşınmaz əmlak (bina və tikili) barədə arxiv məlumatları rəqəmsallaşdırılaraq “QRGS”ə daxil edilib.

Azad olunan ərazilərdə su anbarlarının bərpası da diqqətdə saxlanılıb. Vətən müharibəsindən sonrakı müddətdə bu istiqamətdə işlər davam etdirilərək Tərtər rayonunda sututumu 5,86 milyon kubmetr olan Suqovuşan su anbarında və 5,2 kilometrlik magistral kanalda, Ağdam rayonunda sututumu 23 milyon kubmetr olan Xaçınçay su anbarında və 7 kilometrlik magistral kanalda tikinti işləri başa çatdırılıb. Bundan başqa, Füzuli rayonunda ümumi sututumu 15,5 milyon kubmetr olan Köndələnçay üzərində 3 su anbarında və uzunluğu 20,2 kilometr, sərfi 20 kubmetr/saniyə olan Tərtərçay Sol Sahil kanalının yenidən qurulması üzrə kanalın 20,17 kilometr hissəsi betonla üzlənib, 1066 poqonometr uzunluğunda selötürən kanal tikilərək üzərində “SKADA” sisteminin quraşdırılması işləri tamamlanıb.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Emin BAĞIROV,**
**iqtisadi şərhçi**

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün işğaldan azad olunan ərazilərdə bərpa-quruculuq layihələri Böyük Qayıdış üzrə strateji çərçivədə həyata keçirilir. Başqa sözlə, keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşdırılması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənir, yeni şəhərsalma prinsipləri nəzərə alınmaqla yaşayış və qeyri-yaşayış komplekslərinin inşası sürətlə reallaşdırılır. Bu prosesdə isə, əsasən, “ağıllı şəhər və ağıllı kənd” konsepsiyalarının gerçəkləşdirilməsi önə çəkilir. Bax belə bir əsasda Qarabağ və Şərqi Zəngəzur müasir standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin edilir. Kommunal və sosial xidmətlər şəbəkəsinin, xüsusilə tullantıların səmərəli idarə edilməsi sisteminin qurulması diqqətdə saxlanılır.

Bir sözlə, bölgədə iqtisadiyyatın sürətli bərpası və dayanıqlı inkişafı, o cümlədən rəqabətli istehsal sahələrinin səmərəli fəaliyyəti müasir infrastrukturun qurulması ilə şərtləndirilir. Prioritet istiqamətlərdə sahibkarlara geniş çeşidli stimullar verilir, vergi-gömrük azadolmaları və güzəştli maliyyələşmə prinsipləri geniş tətbiq olunur, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılır.

Ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpaolunan enerji mənbələrindən istifadə də diqqət mərkəzində saxlanılır, bu məsələdə “yaşıl enerji zonası” konsepsiyasına xüsusi əhəmiyyət verilir. Elə bunun nəticəsidir ki, Qarabağ və Şərqi Zəngəzurun ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda payı davamlı şəkildə artır. Bir sözlə, bu prioritetlər dövlət başçısının müvafiq göstərişləri və “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış” Dövlət Proqramı çərçivəsində reallaşdırılır.

Ümumiyyətlə, bərpa-quruculuq layihələrinin icrasına başlanan vaxtdan indiyədək birinci və ikinci mərhələlər üzrə bir sıra genişmiqyaslı tədbirlər həyata keçirilib və bu, hazırda da intensiv davam etdirilir. Əsas məqsəd isə işğaldan azad olunan ərazilərdə yenidənqurma işlərinin qısa zamanda tamamlanması və soydaşlarımızın öz torpaqlarına geri dönüşü üzrə yüksək səviyyəli həyat tərzinin yaradılmasıdır. Prezident İlham Əliyev bununla bağlı çıxışlarının birində deyib: “Qarşımızda nəhəng vəzifə var. İnfrastruktur layihələri ilə yanaşı, əsas vəzifə azərbaycanlı məcburi köçkünlərin rahat qayıdışı və məskunlaşmasıdır. Bir milyona yaxın azərbaycanlı işğalın qurbanı olub, onların evləri talan edilib və dağıdılıb. Bu gün onların əksəriyyəti hər cür yaşayış şəraiti yaradılan doğma şəhər və kəndlərinə böyük istəklə qayıdır.

Yeri gəlmişkən, düşməndən təmizlənən ərazilərin ümumi planının qısa müddət ərzində hazırlanması Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən gerçəkləşdirilib. Ağdam və bir çox digər şəhər və kəndlərin Baş planlarının hazırlanması artıq başa çatdırılıb, eyni zamanda digər yaşayış məntəqələrinin layihələndirilməsinə başlanılıb.

Ağdam şəhərinin adı çəkilərkən bir məsələni də xatırlatmaq istərdim. Artıq 3 mindən çox keçmiş məcburi köçkün ailəsi öz doğma torpaqlarına qayıdıb. Ümumiyyətlə, 34 min 500 ailədən 16 min ailə Qarabağ iqtisadi rayonuna köçürülməsi planlaşdırılıb. Ağdamda 20 min nəfərin məskunlaşması nəzərdə tutulub. Bu şəhərdən başqa, onun 12 kəndinin, eyni zamanda Füzuli şəhəri və 10 kəndinin bərpa olunaraq 2026-cı ilin sonuna qədər təhvil verilməsi qərara alınıb.

---

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Reşetnikovla görüşündə iqtisadi-ticarət əməkdaşlığının aktual məsələləri müzakirə edilib. Söhbət zamanı M. Cabbarov respublikamızın Rusiya ilə iqtisadi əlaqələrin inkişafına önəm verdiyini vurğulayıb. Nazir, həmçinin ölkələrimiz arasında imzalanan 260-dan çox sənədin münasibətlərimizin çoxistiqamətli şəkildə genişləndirilməsi üçün möhkəm hüquqi baza yaratdığını diqqətə çatdırıb.**

# Rusiya ilə ticarətin həcmi 4,5 milyard dollara çatıb



Görüşdə bildirilib ki, Azərbaycanın qeyri-neft ixracatında ən böyük tərəfdaşı olan Rusiya ilə ticarət dövriyyəsi dinamik artır. Keçən il Rusiya ilə ticarət dövriyyəsinin həcmi təxminən 4,5 milyard dollar təşkil edib. 2022-ci illə müqayisədə isə ötən il qonşu ölkə ilə ticarət dövriyyəsi 17 faiz artıb. Rusiya ilə iqtisadi əlaqələrin güclənməsi fonunda ölkələrimizin işgüzar dairələrinin tərəfdaşlıq münasibətləri də genişlənib. Mövcud iqtisadi əməkdaşlıq potensialının reallaşdırılması ticarət dövriyyəsinin həcmini daha da artıra bilər.

Rusiyanın iqtisadi inkişaf naziri Maksim Reşetnikov Azərbaycanla iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən qarşılıqlı ticarətin artan tendensiyası, birgə istehsal və digər sahələr üzrə səmərəli əməkaşlığa dair göstəriciləri müsbət qiymətləndirib. Vurğulanıb ki, qeyri-neft sənayesi üzrə birgə layihələr uğurla həyata keçirilir. Nümayəndə heyətləri arasında mütəmadi olaraq keçirilən görüşlərin və tədbirlərin əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynadığı qeyd edilib. Maksim Reşetnikov tərəfdaşlığın inkişaf etdirilməsi imkanları və bu sahədə təşəbbüslər haqqında düşüncələrini bölüşüb.

***XQ***

---

# Biznesə “yaşıl işıq!”

**Dünən Bakıda biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın təşkilatçılığı ilə “Biznes mühitinin yaxşılaşdırılması üzrə iqtisadi islahatlar və müasir çağırışlar” mövzusunda konfrans keçirilib.**



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev tədbirdə çıxış edərək bildirib ki, komissiya çərçivəsində daha səmərəli və çevik koordinasiya/kommunikasiyanın təşkil edilməsi, eləcə də inklüzivliyin və vahid sinerjinin yaradılması hədəflənir. Qeyd olunub ki, bu il üçün əsas hədəflər islahat təşəbbüslərinə özəl sektorun və maraqlı tərəflərin daha geniş cəlb edilməsi, işçi qruplarda təmsil olunan özəl sektor nümayəndələrinin rolunun gücləndirilməsindən ibarətdir.

Ötən il komissiya çərçivəsində bir sıra iqtisadi təşəbbüslərin irəli sürüldüyünü, islahat layihələri hazırlanaraq aidiyyəti qaydada təsdiq edildiyini diqqətə çatdıran sektor müdirinin sözlərinə görə, komissiyanın mandatına uyğun olaraq aidiyyəti dövlət qurumlarının təşəbbüsü ilə prioritet istiqamətlərdə 5 yeni işçi qrup və 2 yeni əlaqələndirmə qrupu yaradılıb. “Bütövlükdə, komissiya çərçivəsində 25 işçi qrup, 2 əlaqələndirmə qrupu və spesifik sahələr (ekoloji nəqliyyat, elmi potensial, sərhəddə ticarət) üzrə 4 altqrup fəaliyyət göstərir və komissiyanın işçi qruplarının üzvlərinin ümumi sayı 660-dan çoxdur”, – deyə V.Şıxəliyev əlavə edib.

Azərbaycanda biznes startapları üçün rəqəmsal dövlət xidmətlərinin əhatə dairəsinin genişləndirilməsinin hədəflədiyini vurğulayan Prezident Admininstrasiyasının rəsmisi deyib ki, bu məsələ komissiyanın ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, əlverişliliyin artırılması üzrə prioritetlərinə daxildir. Onun bildirdiyinə görə, “yaşıl binalar” və “yaşıl tikinti" ilə bağlı norma və standartların hazırlanması, qəbulu, daşınmaz əmlakın ilkin qeydiyyatı üzrə elektron sistemin yaradılması, elektrik şəbəkəsinə qoşulma üzrə onlayn müraciət sisteminin əhatə dairəsinin genişləndirilməsi, su şəbəkəsinə qoşulma üzrə tələb olunan prosedurların, müddətin və xərclərin azaldılması, “bir pəncərə” prinsipinin tətbiqi, internetə qoşulma və internet infrastrukturu üzrə təkmilləşmələrin aparılması, dövlət məşğulluq xidmətlərinin rəqəmsallaşma səviyyəsinin artırılması, malların beynəlxalq ticarətin asanlaşdırılması üçün dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, vergi inzibatçılığı sahəsində yeni elektron xidmətlərin yaradılması və s. məsələlər həmin prioritetlər sırasındadır.

“2023-cü ildə Azərbaycanla Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasında ticarət dövriyyəsinin dəyəri təxminən 9 milyard ABŞ dolları təşkil edib. Türkdilli ölkələr arasında əsas ticarət tərəfdaşımız isə qardaş Türkiyə olub”. Bu fikirləri iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov tədbirdə çıxışı zamanı səsləndirib. 2009-cu il oktyabrın 3-də Naxçıvanda imzalanmış anlaşma ilə yaradılmış Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının hazırda Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirdiyini, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın üzv, Türkmənistan, Macarıstan və Şimali Kiprin isə müşahidəçi statusu ilə qurumda iştirakını xatırladan nazir müavini deyib ki, ticarətin asanlaşdırılması üzrə strategiya sənədi TDT çərçivəsində ticarət əlaqələrinin inkişafına və biznes mühitinə müsbət təsir göstərəcək. Qeyd olunub ki, sənədin icrası ilə bağlı tədbirlər planının hazırlanması məqsədilə müəyyən edilmiş istiqamətlərə regional ticarət sazişlərinin təşviqi, ticarətin asanlaşdırılması fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi, eləcə də ticarət əməliyyatlarının rəqəmsallaşdırılması daxildir ki, bunlar da təşkilat çərçivəsində fəaliyyət, cari mühit və gələcək çağırışlar ölkə üçün olduqca əhəmiyyətlidir.

Türkiyə ilə ticarət həcminin artırılması üçün ortaq işçi qrupunun yaradıla biləcəyini vurğulayan S.Ələkbərov deyib ki, ölkələrimiz arasında ikitərəfli ticarət həcminin artırılması, xarici ticarət üzrə xərclərin azaldılması və gömrük əməliyyatlarının sürətləndirilməsi məqsədilə ticarətin asanlaşdırılması üzrə ortaq işçi qrupunun yaradılması ilə bağlı müzakirələr aparılır.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, “Texnologiya və innovasiyalar” işçi qrupunun rəhbəri Samir Məmmədov çıxış edərək bildirib ki, hazırda Azərbaycanda fəal mobil internet istifadəçilərinin sayı 8,8 milyon nəfərdən çoxdur, hər 100 nəfərə düşən fəal mobil internet abunəçilərinin sayı isə 86 nəfər təşkil edir. Əhali üzrə 3G və 4G şəbəkəsinin əhatə dairəsinin 100 faizə yaxın olduğunu deyən nazir müavininin sözlərinə görə, 2021–2023-cü illərdə rabitə sektoruna 792 milyon manat, informasiya sektoruna isə 133,6 milyon manat vəsait yatırılıb. Ölkə əhalisinin 88,1 faizinin internetdən istifadə etdiyini vurğulayan S.Məmmədov, həmçinin deyib ki, hazırda Azərbaycanda 150-dən çox internet operatoru və provayderinin 1,9 milyona yaxin sabit genişzolaqli internet abunəçisi var. Bunun isə təxminən 70 faizə yaxınına fiber-optik kabel üzərindən internet xidmətləri göstərilir.

Mərkəzi Bankın sədrinin birinci müavini Rəşad Orucov çıxışında bildirib ki, 2023-cü ildə ölkəmizdə maliyyə sektorunun aktivləri 5 faiz artaraq 52 milyard manata çatıb. Hesabat dövründə bankların kredit portfelinin 18 faiz artdığını, kapitalın adekvatlıq göstəricilərinin isə 20 faiz təşkil etdiyini diqqətə çatdıran birinci müavininin dediyinə görə, görülmüş işlər nəticəsində biznes mühitində maliyyə əlçatanlığı artıb, maliyyə xidmətlərinin rəqəmsallaşması genişləndirilib. Qeyd olunub ki, ötən il həyata keçirilmiş təşəbbüslərin başlıca məqsədi maliyyə institutlarının dayanıqlığının artırılması, elektron ödənişlərin genişləndirilməsi, kredit informasiya infrastrukturunun təkmilləşdirilməsi, kapital bazarlarının genişləndirilməsi, habelə “yaşıl maliyyə” üzrə ekosistemin formalaşdırılması olub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

---

## Ağdamda beton zavodu



***Azərbaycanın yerli kapitallı “Kontakt Kaspi” Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) Ağdam Sənaye Parkında qeyri-rezident olaraq beton və beton məmulatları zavodu quracaq.***

Bu barədə MMC-nin direktoru Nərgiz Bədəlova məlumat verib. Onun dediyinə görə, artıq parkın ərazisində zavod üçün yer ayrılıb. Cari ilin aprelinə qədər zavodun tikinti layihəsi təsdiqlənərsə may ayından inşaat işlərinə başlanılacaq. Tikinti işlərinin, təxminən 2-3 ay davam edəcəyi gözlənilir.

Zavodun məhsulları daxili tələbatın ödənilməsi ilə yanaşı, “Made in Azerbaijan” brendi altında xaricə də ixrac ediləcək. Layihənin investisiya dəyəri isə təqribən 1 milyon 250 min manatdır.



## Azərbaycan Yaponiya sərgisində

***Yaponiyanın paytaxtı Tokio şəhərində 49-cu Beynəlxalq Qida və İçkilər sərgisi keçirilib.***

İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin məlumatına görə, martın 5-dən 8-dək davam edən “FOODEX Japan–2024” sərgisində Azərbaycanın şirkətləri məhsullarını “Made in Azerbaijan” vahid ölkə stendi altında təqdim edib. Belə ki, milli stenddə şərablar, meyvə şirələri, mineral sular, kürü, qənnadı məhsulları, qurudulmuş meyvələr, fındıq, zeytun yağları və digər məhsullar nümayiş olunub. Sərgi çərçivəsində Azərbaycan sahibkarları xarici həmkarları ilə görüşlər keçirib, ixraca dair müzakirələr aparıblar.

Xatırladaq ki, hər il, təxminən, 90 ölkədən 3500-ə yaxın iştirakçı məhsullarını “FOODEX Japan” sərgisində nümayiş etdirir.

***XQ***

# Dünyamızın dayağı, qəlbimizin çırağı

## Özü şəhid oldu, anası şair

**Mayisə Səbuhi dərdin şair etdiyi fədakar qadınlarımızdandır. Oğlu Səbuhi Həsənquliyev Vətən müharibəsində qəhrəmanlıqla şəhid olandan sonra qəlbinin ağrı-acısını şeirlə söyləməyə başlayıb. Səbuhinin adını da özünə təxəllüs götürüb ki, ruhu daim şad olsun.**

Müharibəyə qədər onun şeir yazdığını bilən az idi. Amma Şuşa ətrafında döyüşə yollanan oğlunun son sözləri – "Anama deyin ki, ağlamasın" – vəsiyyəti onu ağlamayıb, dərdini şeirlə ovutmağa vadar edib:

**Nə zaman böyüyüb qəhrəman oldun?**
**Şuşanı qurtarıb arzuna doldun.**
**Vətənçün döyüşüb gül kimi soldun,**
**Məzarın zirvədə qazılıb sənin...**

Bu şeir parçasında oxşanıb qutsallaşan igid Səbuhi 2002-ci ilin bir yaz günündə Ucarın Boyat kəndində doğulub. Sonra ailə Sumqayıta köçüb. Orta məktəb illərində bir sıra idman növləri ilə məşğul olan Səbuhi Həsənquliyev 2020-ci ilin iyulunda hərbi xidmətə yollanıb. İri cüssəsinə və ayıq-sayıqlığına görə onu XTQ-yə cəlb ediblər. Müharibə başlananda bir neçə ayın əsgəri olsa da, özünü cəsur, hünərvər hərbçi kimi göstərə bilib. İlk döyüşdən sonra axşam anası ilə telefonda danışarkən "Ana, oğlun düşmən öldürüb", – deyə qürurlanıb da.

"Yaşma"larla birgə daim öndə gedən Səbuhinin döyüş yolu Beyləqan, Füzuli, Cəbrayıl, Hadrut və Şuşadan keçib. Noyabrın 8-də tac şəhərimiz Şuşa uğrunda son döyüş ərəfəsində sanki şəhid olacağını əvvəlcədən hiss edib və toya gedirmiş kimi, qoluna qırmızı lent bağlayıb. Döyüşə şir kimi girib, çox sayda düşməni məhv edib.



Dostunun yaralandığını görüb və onu mərmi yağışının altından çıxarmağa çalışarkən özü də gülləyə tuş gəlib…

Siz deyin, bütün bunlardan xəbər tutan həssas, kövrək qəlbi ana necə odlanıb şeir yazmayaydı? Şəhadətindən sonra "Cəbrayılın azad olunmasına görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və digər medallara layiq görülən Səbuhinin ən böyük mükafatı anasının ona həsr etdiyi Vətən sevgili misralardır. Mayisə xanım hər gün oğlunun ziyarətinə getdiyi Sumqayıt Şəhidlər xiyabanından qayıdanda duyğulanaraq, qəlb çırpıntılarını ağ vərəqlərə hopdurub. Nəticədə "Şəhidlik Tanrı hədiyyəsidir" kitabı ərsəyə gəlib.

Təkcə Səbuhinin deyil, torpağı Vətən edən digər şəhidlərimizin haqqında da qürur dolu neçə-neçə şeirin yer aldığı həmin kitab "Azəri" Poliqrafiya müəssisəsinin direktoru Mirfazil Əliyevin təşəbbüsü ilə təmənnasız olaraq nəşr edilib. Ötən yaz Sumqayıtdakı Əli Kərim adına Poeziya evində toplunun təqdimatı keçirilib. Mərasimdə şəhid general Polad Həşimovun anası Səmayə xanım, "Şəhid analarına dəstək" İctimai Birliyinin sədri, şəhid Əbdülməcid Axundovun anası Ceyran Həsənova, şəhid Əlizamin Mustafalının anası Ülviyyə xanım və digərləri çıxış edərək kitabın gənc nəslin formalaşmasında rolundan, oxucularda vətənpərvərlik duyğuları aşılamasından danışıblar.

Bu yaxınlarda isə Sumqayıt Tarixi Muzeyində Vətən müharibəsi şəhidi Səbuhi Əlixan oğlu Həsənquliyevin xatirəsinə həsr olunmuş anım mərasimində anasının ona həsr etdiyi şeirləri söyləməsi hər kəsi təsirləndirdi. Ölümü ilə tarix yazan igidin anası kitabının üzqabığına Səbuhinin şəklini qoydu-




rub, səhifələrində isə ən duyğulu şeirləri yerləşdirib. Şair dostumuz Xaqani Abbasəli Öztürk "Ön söz əvəzi" adlı təqdimatında yazıb: "Bu ithafnamələrin çoxunu göz yaşları içində oxudum. Özəlliklə vurğulamaq istəyirəm ki, müəllif Mayisə xanımın içindəki Vətən sevgisinə heyran olmamaq mümkün deyil. Unudulmamalıdır ki, şəhid valideynlərinin könlü həsrət sığınacağı və hətta "iş yeri"dir".

Kitabdakı "El aslanları" şeirində Mayisə xanım şəhidlərə xitabla yazır:

**Dişə-diş, qana-qan, cana-can aldız,**
**Düşmənin canına vəlvələ saldız.**
**Tutub əl-qolunu kökdən qopardız,**
**Siz məlhəm oldunuz çəkilən dağa.**

Bəli, saf ürəkli, məğrur şəhid anası Mayisə xanım oğlu Səbuhi kimi qəhrəmanlarımızı şöhrət zirvəsində belə görür. Ağlayıb-sıtqamaq onluq deyil. Çünki şeirlərinin baş qəhrəmanı Vətəndir.

## Qadın şairlərin könül söyləmələri



**GÜZGÜ**

**Hərə bir şəkil asdı**
**yaxandan.**
**Hamı boylanıb baxdı**
**yaxından.**
**Çatlayarsan,**
**sınarsan**
**gözlərimin ahından.**
**Paşa güzgü,**
**Xan güzgü,**
**Üzünə üz bağlayıb,**
**Üzümə baxan güzgü.**

**Gülnarə CƏMALƏDDİN**

* * *

**AÇAR CİNGİLTİSİ**



**...hardasa uzaqlarda bir ev**
**itmiş adamlarını gözləyir,**
**adamlar itmiş açarlarını**
**axtarır...**
**(açarlar bağlı qapıların**
**azadlıq ümidi,**
**itmiş adamların**
**tapılmaq sevinci...)**
**Həsrətin bətni dolub,**
**açar cingiltisi eşidilir.**
**uzaqdan...**

**Sevinc QƏRİB**

## Polisdə qadının öz yeri var…

**Azərbaycan BMT-nin qadın məsələləri üzrə komissiyasının tamhüquqlu üzvüdür. 1995-ci ildə isə Azərbaycan rəsmi şəkildə qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulub. Bu gün qadınlarımız ictimai həyatın bütün sahələrində kişilərlə bərabər çalışır, cəmiyyətin tərəqqisində bilik və bacarıqlarını əsirgəmirlər.**

Ötən dövrlərdə kişilərin üstünlük təşkil etdiyi hüquq-mühafizə orqanlarında çalışan qadınlarımızın çəkisi müstəqillik illərində ilbəil artır. Artıq polis qadınlarımızın sayı barmaqla sayılacaq qədər deyil. Zərif cinsə qarşı baş verən ailədaxili zorakılıqların, təzyiqlərin, qətllərin qarşısının alınmasında qadın polislərin fəaliyyəti daha səmərəli nəticələr verir. İctimaiyyət də ümumi asayişin təmin olunmasında qadın polislərin rolunu önə çəkir. Qadınlar üçün nisbətən çətin sayılan bu sahədə onlar fədakarlıqla çalışır, mürəkkəb vəziyyətlərdə çevik xidmət nümunələri ilə seçilirlər.

Qadınların əziz günü münasibətilə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi hərəkətin təşkilinin təbliği və ictimai qurumlarla əlaqə bölməsinin inspektoru, polis kapitanı Pərvanə Muradova ilə söhbətimiz də bu mövzuda oldu.

**– Pərvanə xanım, qadın üçün ev, ailə, ictimai həyat qayğıları ilə yanaşı, həm də gündəlik fəaliyyətin yol polisi kimi heç də asan olmayan sahəsində çalışmaq çətin deyilmi?**

– Hər gün saat 6-da oyanıb, 7-də evdən çıxmalı oluram. Övladlarımı məktəbə apardıqdan sonra xidməti yerimə gəlirəm. İş yerimdə öz üzərimə düşən işlərin icrasına başlayıram, daha vacib işləri önə salıram. Qəbula gəlmiş vətəndaşların problemlərini dinləyir, həlli istiqamətində tapşırıqları icra edirəm.

Tədris planımız da var, ona uyğun 1 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzi ilə birgə həftədə 2-3 dəfə orta məktəblərdə yol hərəkətinin təhlükəsizliyi ilə bağlı maarifləndirmə işlərini nəzəri və praktiki şəkildə izah edirəm. Xidməti işim başa çatdıqdan sonra övladlarıma, ailəmə qayğım başlayır. Uşaqlarımın dərsləri ilə maraqlanır, dinləyir, ehtiyaclarını öyrənirəm. Övladlarımla aramda dostluq münasibəti var, elə bir şərait yaratmışam ki, onlar hər bir məsələni mənimlə paylaşa bilsinlər. Uşaqların qayğısı, məktəbdə verilən tapşırıqların yerinə yetirilməsi, daha sonra hər xanımın gördüyü ev işləri – bütün bunlar gecə saat 1, bəzən 2-yə kimi çəkir. Xidmətimi, Vətənimi sevirəm, ailəm də bir o qədər dəyərlidir. Həyat yoldaşım mənim üçün yüksək dəyərdir, o, ailəmin başçısıdır.

**– Necə oldu ki, polis olmaq istədiniz? Qarşınıza hansısa əngəllər çıxıbmı?**

– Polis, müstəntiq, prokuror kimi vəzifələrdə işləmək uşaqlıq arzum olub. Daha çox belə filmlərə, seriallara baxmışam. Detektiv janrda hələ kiçik yaşlarımda xeyli kitablar oxumuşam. Amma bu arzum asan reallaşmayıb. Ailə, mental dəyərlər manea olub. "Qız hara, polis hara"



fikirləri qarşımı kəsib. Elə oldu ki, 27 yaşıma qədər arzularımın istiqamətində gedə bilmədim. İstəməsəm də Avrasiya Universitetinin beynəlxalq münasibətlər fakültəsinin regionşünaslıq ixtisasına qəbul oldum. Daha sonra anamın çalışdığı "Azəriqaz"da işləməli oldum. Ali təhsili olmağıma baxmayaraq, o idarədə operator kimi işə başlasam da, 3 aydan sonra – 21 yaşımda kadrlar şöbəsinin rəisi vəzifəsinə təyin edildim.

Sonra ikinci ali təhsil aldım. İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasını bitirdim. Elə həmin il qarşıma Daxili İşlər Nazirliyinin elanı çıxdı. Düşünürdüm ki, artıq mənim üçün gec olar. Əvvəllər polis olmağıma qarşı çıxan rəhmətlik atam bu dəfə məni həvəsləndirdi. Elan verilən idarəyə getdim. Burada yaxşı mühit gördüm. İdarədəki polislərin mədəni davranışı, alicənablığı mənə olduqca xoş təsir etmişdi. Sanki, başqa bir dünyada idim. Rəhbərliyin münasibəti, davranışı məni tamam dəyişmişdi. Artıq başladım işə qəbul imtahanlarına hazırlaşmağa.

Ailə qurandan sonra həyat yoldaşım polis olmağımı istəməsə də, bu dəfə mənə yardımçı oldu. Kənardan polisə münasibət fərqli olsa da, bu şərəfli və məsuliyyətli peşədir. Polis Akademiyasının hüquqşünaslıq ixtisasını bitirməyimdə, bu gün polis olmağımda ən böyük dəstəkçim vaxtilə polis olmağımı istəməyən həyat yoldaşımdır.

**– Xidmət müddətində qarşılaşdığınız maraqlı və təhlükəli hadisələr, yəqin ki, az olmayıb.**

– Biz təlimlər keçmək üçün müxtəlif müəssisələrə, ali təhsil ocaqlarına, orta məktəblərə gedirik. Uşaqları çox sevirəm, məktəblərdə onlara təlimlər keçmək xoş olur mənə. Bakıdakı 20 saylı məktəbdə uşaqlara yol hərəkəti qaydalarını izah edirdim. Əsasən, piyada keçidlərindən danışırdım. Təlimdən sonra məktəbdən çıxıb dayanacağa doğru gedəndə gördüm ki, ana və övladı yolun kənarında bir-birini sağa-sola çəkirlər. Yaxınlaşdım, məlum oldu ki, uşağın valideynidir. Soruşdum ki, nə etmək istəyir. Axı siz bizə dediniz ki, piyada zolağından keçin, təhlükəlidir. Bu mənzərə mənə çox xoş təssürat bağışladı. Gözəl və kövrək hisslər idi. Sanki, əməyimin, xidmətimin bəhrəsini almışdım.

Bir gün də Şərifzadə küçəsində piyada keçidləri ilə bağlı təbliğat işləri aparırdıq. Gördük ki, irəlidə qarışıqlıq baş verib. Ananın başı telefona qarışmışdı, övladını maşın vurub öldürmüşdü. Bu, həyatımın ən unudulmaz faciəli mənzərəsi idi və məni təbliğatı daha intensiv və dərindən aparmağa səslədi.

**– Bir xanım üçün polis olmaq nə deməkdir?**

– Nəinki xanım, bir kişi üçün də polis olmaq çətindir. Polis ailədə, cəmiyyətdə və digər yerlərdə təmiz olmalıdır. Polis üçün olmazlar çoxdur. Bizim xidmətimiz 24 saatdır. Polis üçün havanın istisi, soyuğu olmur. Evimizdə, restoranda, harada olmağımızdan asılı olmayaraq, biz polisik. Biz gündəlik həyatımızda da polisik. Xanımın incə davranışını bəyənirəm. Amma mən elə davrana bilmirəm, davranmıram. Çünki mən polisəm. Uşaqlarımla danışanda da, ailəmlə, rəfiqələrimlə gəzməyə çıxanda da polisəm. Mən artıq 14 ildir polisəm.

**– Yenidən seçim etməli olsanız, bu dəfə də polis olardınızmı?**

– Tam əminliklə və məsuliyyətlə deyirəm ki, dünyaya bir daha gəlsəydim, yenidən polis olardım. Buna qəti əminəm. Azərbaycan Respublikasının polisi olmağımla qürur duyuram.

**– Gənc qızlara, polis olmaq istəyənlərə tövsiyələriniz?**

– Əgər bu xidməti sevirlərsə və bu sahəyə özlərini hazır hiss edirlərsə, belə çətin peşənin öhdəsindən gəlməyə gücləri çatacaqsa, gənc qızlara polis olmağı tövsiyə edirəm.

**– Pərvanə xanım, sizi 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, iş və ailə həyatınızda uğurlar arzulayırıq.**

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

## Baş Prokurorluqda bayram toplantısı

**Martın 7-də Baş Prokurorluqda 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.**



Baş prokuror Kamran Əliyev qadın prokurorluq işçilərini, dövlət qulluqçularını və veteran xanımları bayram münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzu edib.

Qadınların ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində də yüksək sədaqət və peşəkarlıq göstərdikləri, onların təcrübəli hüquqşünas və qanun keşikçiləri olmaqla yanaşı, hüquq sistemində pozitiv dəyişikliklərin baş verməsində mühüm rol oynadıqları bildirilib. Hazırda prokurorluq işçisi olan qadınlardan 105 nəfərin müsabiqə yolu ilə işə qəbul edildiyi vurğulanaraq diqqətə çatdırılıb ki, onlardan 10 nəfər rəhbər vəzifədə, o cümlədən 1-i idarə rəisi, 3-ü idarə rəisinin müavini, 1-i şöbə rəisi, 4-ü rayon prokuroru və 1-i rayon prokurorunun müavini vəzifəsində işləyir.

Daha sonra xidməti fəaliyyətdə fərqlənən qadın prokurorluq əməkdaşlarına və veteran xanımlara mükafatlar təqdim olunub.

***XQ***

## Arəstənin Vətən sevgisi hekayəti

### Vətən müharibəsinin tək şəhid qadınını yad edirik

**Adı Arəstə olsa da, ahəstə gəzib dolanmağı, bəzənib-düzənməyi sevməyib. Bəlkə də, atası – baş leytenant Kərim Baxışovun həmişə kəmhövsələliyi keçib ona. Fövqəladə Hallar Nazirliyində Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışan atası həyatda daim harasa tələsdiyi kimi, elə ölümə də tələsib. Arəstəgil onu itirəndə qızcığazın cəmi 4 yaşı olub.**

Tibb bacısı olan Arəstə də həmişə harasa tələsib. Azərbaycan Dövlət Pedaqoji Kollecində ingilis dili üzrə təhsil alsa da, hərb sənətinə könül verib. 2018–2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Baş Hərbi Hospitalında tibbi statist işində çalışıb. 2019-cu ilin iyulundan isə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə operator vəzifəsində xidmət edib.

Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzuli, Zəngilan və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə səngərdəcə tibbi yardım göstərib. Oktyabrın 23-də Qubadlı döyüşləri zamanı vəzifə borcunu yerinə yetirərkən şəhid olub. Vətən naminə ölümə də tələsən cəsur tibb işçisi Biləcəri qəsəbəsinin Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Dünyanı vur-tut 31 yaşında – erkən tərk etmiş gənc ananın Mərdan və Zəhra adında övladları yadigar qalıb. Mərdan jurnalistlərə müsahibəsində deyib ki, anası ingilis dili müəllimi olsa da, bundan imtina edərək, hospitalda tibb bacısı işləyib. O da anasının



sağlığında riyaziyyatçı olmağı qərara almışdı, amma indi hərbçi olmaq fikri var. Çox güman ki, bunun əsas səbəbi anasının Vətənə bağlılığı, Qarabağ uğrunda şəhid olmasıdır.

Gənc heykəltaraş Müstəqil Balayev Vətən müharibəsinin yeganə xanım şəhidi Arəstə Baxışovanın büstünü hazırlayıb. Çöhrəsindən cəsarət, mərdlik, eyni zamanda qadın ləyaqəti aşkar hiss olunur. Vətən uğrunda canından keçərək daşa dönmüş qəhrəman el qızının məğrur obrazı qəlbimizi fəxarət duyğuları ilə döyündürür.

Şamama Ələsgərova – 120

# Anaların anası

## Xalqımızın sevimli qızı

**Dünyada anadan yüksək zirvə, anadan müqəddəs varlıq yoxdur. Övladının çətin anında, uzaqda da olsa, bunu fəhmi ilə hiss edən, bir “oy!” kəlməsinə – yüz dəfə “can!” deyən də ana olur, onun xoşbəxt günlərində sevincdən ürəyi titrəyən də. Uşağını hələ bətnindəykən sevir, qeyri-adi duyum, hissiyyatla ona ömürlük bağlanır, dünyaya gəlişini səbirsizliklə gözləyir. Vaxt tamamında, qaranlıq dünyadan işığa çıxan körpəni ilk görən, onunla təmas quran isə...**

Bəli, analıq hissinin nə demək olduğunu gözəl bilən, körpə qığıltısı eşidəndə göz yaşlarını gizlətməyə çalışan gənc xanımlara bu duyğunu yaşadan həkim olur. Yeni doğulan körpəni anadan öncə ilk görən, əlinə götürən, onunla təmas quran da mama-ginekoloq–həkim olur. Elə körpə də qıyıq, yarıaçıq gözü ilə ilk ağxalatlı xilaskarını görür.

Minlərlə körpənin dünyaya göz açmasında böyük rolu olan belə həkim-ginekoloqlarımızdan biri – Şamama xanım Ələsgərova haqqında onun doğum günündə söz açmağı qərara aldıq. O, mamalıq və ginekologiya sahəsində tanınmış çox bacarıqlı həkim olub. Haqqında yazılan xatirələr dil açıb söyləyir ki, Şamama xanım qucağına körpə verdiyi anaların, uşaq nəfəsinə illərlə həsrət qalan, nəhayət, onun şəfalı əllərinə sığınıb övlad sahibi olan ailələrin, həmkarlarının və doğmalarının ürəyində yaşayır və yaşayacaq. O dövrdə onu tanıyanlar böyük qədirbilənliklə Şamama xanımı mərhəmət mücəssəməsi, el anası, ürəyinin odundan ailələrə nur paylayan insan adlandırıblar.

### Ömür yoluna bir nəzər

Şamama Ələsgərova böyük və görkəmli bir nəslin davamçısı olub. O, 1904-cü ildə İrəvanda Məmmədkərim Əliyevlə Zəhra Süleymanbəyovanın ailəsində dünyaya göz açıb. Ailədə 5 uşaq böyüyüb. Bu nəsil Azərbaycan tibb elminə görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyev, Azərbaycan SSR Əməkdar elm xadimləri – tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Zərifə Əliyeva, Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor Tamerlan Əliyev, Respublika Milli Onkologiya Mərkəzinin direktoru, akademik Cəmil Əliyev, eyni zamanda, tibb elmləri doktoru, professor, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Cəmil oğlu Əliyev kimi dəyərli nümayəndələr bəxş edib. Bu mötəbər ailənin digər layiqli təmsilçiləri də mama-ginekoloq, Əməkdar həkim, Sosialist Əməyi Qəhrəmanı Şamama Ələsgərova və “Dan ulduzu” instrumental ansamblının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Gülarə Əliyeva olub.



Mama-ginekoloqların VII Beynəlxalq Konqresi

Şamama Məmmədkərim qızı Ələsgərova 120 il bundan öncə, martın 8-də İrəvanda anadan olmuş və ilk təhsilini gimnaziyada almışdır. O, 1941-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Müharibə illərində Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığında şöbə müdiri, kadrlar idarəsinin rəisi vəzifələrində çalışıb. 1945-ci ildə N.Krupskaya adına 5 nömrəli klinik doğum evinə baş həkim təyin olunub və ömrünün sonuna–1977-ci ilədək həmin vəzifədə işləyib. Doğum evinin təşkilində böyük əmək sərf edərək bu tibb ocağının maddi texniki bazasını o zamanın tələblərinə uyğun yüksək səviyyədə təşkil edən Şamama xanım kadr seçiminə də xüsusi diqqət yetirib. O, həkim personalını işə götürəndə həmin şəxsin peşə bacarığını, elmi səviyyəsini müfəssəl öyrənib. Nəinki həkimlər, hətta orta və kiçik tibb işçiləri də Şamama xanımın “süzgəcindən” keçdikdən sonra işə qəbul ediliblər. Beləliklə, bacarıqlı və istedadlı rəhbər az zaman içərisində yüksək professionallığı ilə seçilən tibbi heyəti olan, ciddi sanitariya rejimli, nümunəvi, böyük bir tibb ocağını qurmağı bacarıb.

Şamama Ələsgərovanın tədqiqatları əsasən, ana və uşaqların sağlamlığının qorunmasına, ginekoloji xəstəliklərin müalicə və profilaktikasına həsr olunub. O, respublikada malyariya və helmintoz xəstəliklərinə qarşı mübarizə tədbirlərində də fəal iştirak edib. Şamama xanım haqqında o dövrün mərkəzi və yerli mətbuat orqanlarında müntəzəm olaraq məqalələr dərc edilib. Xidmətlərinə görə, 1958-ci ildə “Səhiyyə əlaçısı”, iki il sonra “Əməkdar həkim”, 1969-cu il fevralın 5-də isə “Sosialist Əməyi Qəhrəmanı” fəxri adlarına layiq görülüb. Qeyd edək ki, o, respublikada bu ada layiq görülən ilk səhiyyə işçisi olub. Şamama xanım Azərbaycan SSR Ali Sovetinin IX çağırış deputatı seçilib, “Lenin”, “Şərəf nişanı” ordenləri və medallarla təltif edilib. Görkəmli mama-ginekoloq Şamama Ələsgərova 1977-ci il iyunun 2-də vəfat edib. 5 nömrəli doğum evi hazırda Şamama Ələsgərovanın adını daşıyır.

### Yaxşılıq unudulmur

Azərbaycanın səhiyyə tarixində Şamama xanımın danılmaz xidmətləri vardır. Onu çox fədakar və gözəl insan, xeyirxah həkim kimi xatırlayırlar. Xəstəxanada vəziyyət gərgin olan vaxtlarda o, günlərlə evə getmir, ağır xəstələrin yanında qalır, onları şəxsi nəzarətindən kənarda qoymurmuş.

1925-ci ildə Samama xanımla Əbdül İbrahimovun izdivacından bir övlad dünyaya gəlir. Sona adı verilən bu qız da böyüyüb həkimlik peşəsinə yiyələnir. Əməkdar həkim fəxri adına layiq görülən kardioloq Sona İbrahimova Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunda çalışıb, yüzlərlə həkimin peşəsini daha dərindən öyrənməsi üçün biliyini əsirgəməyib, ürək xəstəliklərinin müalicəsində yeni üsulları tədris edib. O, görkəmli tərcüməçi, ssenarist və tənqidçi İshaq İbrahimovla ailə qurub. Sona xanımın qızı, Şamama xanımın nəvəsi Lalə xanımın söhbətlərini dinləsək, əminəm ki, gözümüzün önündə möhtərəm bir insanın portreti canlanar.

Qeyd edək ki, Lalə Cəfərova Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində Dövlət Protokolu İdarəsinin müşaviri vəsifəsində işləyib. 1999–2004 illərdə BMT-də ölkəmizin Daimi Nümayəndəliyində birinci katib vəzifəsində çalışıb. Bu müddət ərzində 2 il BMT Uşaq Fondunun (UNİSEF) bürosunda, 3 il isə qurumun Qadınların Məsələləri üzrə Komissiyasının bürosunda Şərqi Avropa qrupunu təmsil edib.



Əziz Əliyev və həyat yoldaşı Leyli xanımla

Gəlin, cəmiyyətdə xüsusi mövqeyi ilə seçilən qadın, öz fəaliyyəti ilə peşəsinin mahir bilicisi olduğunu təsdiq edən mama-ginekoloq, ailədə qayğıkeş həyat yoldaşı, gözəl ana, mehriban nənə olan Şamama xanımı yaxından tanıyaq.

**Lalə xanımın dedikləri:**

– Nənəm Şamama xanım haqqında xatirələrim qədərsizdir, günlərlə danışa bilərəm. Çünki uşaqlığımı daha çox nənəmgildə keçirmişəm. Məktəbin birinci sinfinə gedəndən nənəmlə yaşamışam. Məktəb nənəmin evinə çox yaxın olduğundan dərsə qonşuluqda yaşayan məktəbli qızlarla birgə gedib-gəlirdik. Demək olar ki, nənəmin həyat və fəaliyyətinin müəyyən hissəsini görmək kiçik yaşlarımdan mənə qismət olub. Özünə və başqalarına qarşı həddən artıq tələbkar olmasına baxmayaraq, nənəm qardaşlarım–indi tarixçi olan Çingizə, iqtisadçı olan Tahirə və mənə böyük sevqi, güzəşt və qayğı ilə yanaşırdı. Şamama xanım çətinliklərlə dolu ömür yolu keçməsinə baxmayaraq, heç vaxt “yoruldum” demədi, kimsənin qarşısında əyilmədi, dünya malında gözü olmadı və həyatın sınaqlarından başı uca çıxdı və zəfərlərə yol açdı.

Anam Sona xanım danışırdı ki, İkinci dünya müharibəsi dövründə Şamama xanım Bakıda Hərbi Hospitalda Cərrahiyyə şöbəsinin müdiri vəzifəsində çalışıb. Gecə-gündüz hospitala döyüş bölgələrindən faşizmlə ölüm-dirim mücadiləsi aparan döyüşlərdən yaralılılar daxil olurdu. İşi o qədər çox, ağır və gərgin idi ki, evə yalnız əynini dəyişməyə gəlir, yenidən hospitala qayıdırmış.

Hospitalla bağlı anam bir maraqlı xatirə danışmışdı. Deməli, hospitala ölümcül halda yaralı bir rus zabiti gətirilir. Şamama xanım ona böyük soyuqqanlılıqla xidmət edir, özünə gələnə qədər yanından çəkilmir. Nəhayət, zabiti həyata qaytarır. Zabit bütün ailəsinin müharibədə həlak olduğunu bildirir. Sonra üstündə saxladığı xeyli pulu nənəmə vermək istəyir. “Sağalmağımda əziyyətiniz çox olub. Bilirəm ki, sizin qızınız var, çox çətin bir vaxtda yaşayırıq, hamı üçün ağır zamandır. Mən əlimdə olan bu pulu sizə vermək istəyirəm”, – deyəndə nənəm qəti şəkildə etiraz edir. Amma zabit israr edib: “Heç kimsəm qalmayıb, bu pul nəyimə lazımdır?”, – deyəndə, nənəm ona: “Yaxşı, sabah bu ünvana gələrsən”– deyir. Ertəsi gün həmin zabiti rayon partiya komitəsinə aparır. Dərhal komissiya təşkil edilir. Akt tərtib olunur və həmin zabitin bütün varidatı 1941-ci ilin avqustunda təsis olunmuş SSRİ Müdafiə Fonduna köçürülür.

Zamanın çətinliyinə, onun da ehtiyacı olduğuna baxmayaraq, nənəm son dərəcə təvazökar, gözütox insan idi. İllər ötəndən sonra nənəmə Sosialist Əməyi Qəhrəmanı adı veriləndə “Oqonyok” jurnalında bu barədə məqalə çap olunur. Taleyin işinə baxın ki, təsadüfən həmin hərbçi jurnalda nənəmin şəklini görüb onu tanıyır. Sonra, o, Şamama xanımı axtarıb tapır və gəlib onunla görüşür.

İkinci dünya müharibəsindən sonra Azərbaycan KP MK Şamama xanıma hospitalın əvvəllər qadınlar üçün nəzərdə tutulmuş yarısökülmüş binasını təmir etdirib orada doğum evi yaratmaq tapşırığını verir. Müharibədən sonrakı ağır bir dövrdə tikinti materiallarını tapmaq da çox çətin idi. Şamama xanım müxtəlif təşkilatlara müraciət edir. Köməyə neftçilər və Qırmızı Bayraqlı Xəzər Donanmasının dənizçiləri gəlirlər. Ona çox böyük hörmətlə yanaşır, sözünü eşidir, tapşırıqlarını yerinə yetirməyə çalışırdılar. Şamama xanım və xəstəxana kollektivi fəhlələrlə bərabər işləyirlər. Nəhayət, təmir başa çatır və dogum evi fəaliyyətə başlayır. O, 1945-ci ildə N.Krupskaya adına 5 nömrəli klinik doğum evinə baş həkim təyin olunur. Şamama xanımın həyatında açılan bu yeni kitaba hər il, hər gün, hər saat onun zəhmətkeş, özünü əsirgəmədən yaşadığı şanlı ömür səhifələri yazılır. Onun rəhbərliyi və yüksək təşkilatçılıq qabiliyyəti sayəsində doğum evi respublikanın iri müalicə-profilaktika müəssisəsinə çevrilir.

***

Son dərəcə fədakar insan olan nənəmin, demək olar ki, şəxsi həyatı olmayıb. O, bütün həyatını xalqın sağlamlığına həsr edib.

Hər gün səhər saat səkkizdə keçirilən gündəlik kollektiv toplantısından sonra həkimlərlə bərabər şöbələrə baş çəkər, palataları gəzər, xəstələrin vəziyyətilə şəxsən özü maraqlanardı. İşində ciddi və tələbkar olduğu üçün dogum evinin hər bir işçisindən də bunu tələb edərdi. Evə axşama doğru, saat 4-dən sonra gələrdi. Amma hər gün düz saat 6-da növbətçi sürücünü çagırıb yenidən xəstəxanaya qayıdar, vəziyyətlə yerindəcə maraqlanardı. İşdən döndükdən sonra tibb bacısının növbətçi yerini tərk etdiyini, yatdığını, ələlxüsus da, bu səbəbdən körpələrin agladığını bilsəydi, ciddi tədbirlər görərdi. Bəzən gecənin bir vaxtı telefonla doğum evinə agır xəstənin daxil olduğu xəbərini alırdı. Dərhal təcili yardım maşınını çagırıb vəziyyətlə yerində tanış olmaq üçün yenidən işə qayıdırdı.

Aşağı siniflərdə oxuyanda həm də nənəmin iş yerinə yaxın musiqi məktəbində təhsil alırdım. Dərsdən sonra nənəmin yanına gələr, əksər vaxtlarda onu gözləyərdim ki, işini bitirsin, evə bir yerdə gedək. Bir dəfə evdən nənəmə zəng vurdum. Katibəsi Katya xala “Damdan su axır, nənən ustalarla ora çıxıb” – deyə cavab verəndə heç təəccüblənmədim.



### Haşiyə



SSRİ səhiyyə naziri Mariya Dmitriyevna Kovrigina ilə

1995-ci il aprelin 7-də ulu öndər Heydər Əliyev Ümumdünya Səhiyyə Təşkilatı və BMT-nin UNİSEF təşkilatı ilə birgə Ümumdünya Sağlamlıq Günü münasibətilə Bakıdakı 5 saylı Kliniki doğum evinin işçiləri ilə görüşür. Görüş zamanı kollektiv 5 nömrəli doğum evinə Şamama Ələsgərovanın adını vermək təşəbbüsünü irəli sürür.

Həmin görüşdə ulu öndər Şamama Ələsgərova ilə bağlı maraqlı xatirə danışır: “Bu doğum evi mənim üçün də çox əzizdir. Çünki hər iki övladım – qızım və oğlum burada anadan olub. Bir şeyi deyə bilərəm ki, 1954-cü ildə qızım anadan olarkən mən bütün gecəni burada keçirdim. Lakin Şamama xanım mənə yuxarı qalxmağa icazə vermədi. Qızım olması münasibətilə məni təbrik etdi, amma mənə onu görməyə icazə vermədi. Üç gün ərzində uşağı görmək mümkün olmadı. Mən mərhum həyat yoldaşım Zərifə xanıma məktub yazırdım, Şamama xanım onu aparırdı və cavab gətirirdi.

Oğlum olanda isə Şamama xanım məni aldatdı. Mən axşam həyat yoldaşımı doğum evinə gətirəndə Şamama xanım dedi ki, uşaq hələ gec olacaq, sən burada qalma. Mən də ona inandım və evə getdim. Təxminən üç saatdan sonra zəng vurub məni təbrik edərək dedi ki, oğlun olubdur. Mən çox sevindim. Səhərisi günü yenə bura gəldim.

Amma Şamama xanım yenə də məni yuxarı buraxmadı. Mən bunları ona görə deyirəm ki, o, çox nizam-intizam sevən adam idi. Heç kəsə güzəşt etmirdi. Siz bilirsiniz ki, Şamama xanım mənim qohumumdur. O mənim həyat yoldaşım Zərifə xanımın bibisi idi. Buna baxmayaraq o, nə qohumluğu, nə tanışlığı, nə dostluğu, nə vəzifəni, nə də başqa bir şeyi nəzərə alan adam deyildi. Şamama xanım deyirdi: qanun hamı üçün qanundur, kimsəyə güzəşt olmayacaqdır. Nə vaxt həyat yoldaşınız buradan çıxacaqsa, onda gəlib uşağı görərsiniz. Mən Şamama xanıma sağlığında da böyük hörmətlə yanaşmışam, onun xatirəsi də mənim üçün həmişə əzizdir.”

***

Lalə xanım əlavə edir ki, Azərbaycanın əksər bölgələrindən də nənəmin adını tutub Bakiya xəstələr gətirilirdi. Şamama xanım onların hər birini doğması kimi qarşılayır, qaygıkeşliyini əsirgəmirdi. O, hər kəsin dərdini özününkü bilən insan idi. Hamıya doğması kimi əl uzadıb yardım etməyə çalışardı.

Ailə üzvlərini də daim diqqətdə saxlayırdı. Şamama xanım qardaşı Əziz Əliyevə “dadaş” deyə müraciət edərdi, bu da böyük qardaş anlamına gəlirdi. Qızı və nəvələri ilə bərabər qardaşının ailəsinə, uşaqlarına, nəvələrinə böyük sevgi və qaygı göstərirdi.

Sovet dönəmində nənəmin Moskvada da böyük hörməti vardı. Buna özüm şahidəm. O, müxtəlif Ümumittifaq təşkilatlarına üzv seçilmişdi, vaxtaşırı qurultaylara, simpoziumlara Moskvaya gedərdi.

O zamanlar SSRİ-nin Səhiyyə naziri Mariya Dmitriyevna Kovrigina ilə də dostluq münasibətləri vardı. Yadımdadır, 1973-cü ildə Moskvada keçirilən Mama-ginekoloqların Beynəlxalq simpoziumuna gedəndə məni də özü ilə apardı. Orada olduğumuz müddətdə SSRİ Qaz sənayesi naziri Sabit Orucov bizi evinə dəvət etdi. Söhbətdən başa düşdüm ki, həm Sabit Atayeviç, həm də həyat yoldaşı nənəmi yaxından tanıyırlar.

Moskva ilə bağlı digər xatirəm də var. Nənəm istirahətsiz çalışırdı. Bir dəfə ona Moskva ətrafında yerləşən Sov.İKP MK-nın Vasnetsovo sanatoriyasına yollayış–göndəriş verdilər. Dincəlmək əvəzinə Şamama xanım evlə və işlə gün ərzində dəfələrlə telefonla əlagə saxlayırdı. Sonda sanatoriyadan istirahətini tamamlamadan yarımçıq qayıtdı. Sonralar mənimlə bərabər Puşkino sanatoriyasında dincəlməyə gedəndə, yəqin ki, mənim xətrimə sonadək qaldı. Açıqcası ora mənim üçün heç də maraqlı deyildi. Mən məktəbli qız, ətrafdakılar isə Sov.İKP MK-nın müalicə alan yaşlı əməkdaşları idi.

Uşaqlıq çağlarımın başqa xatirəsi də var. Hər il Pravoslav rusların qeyd etdiyi Pasxa bayramında sübh tezdən qapımız döyülərdi və nənəmin sürücüsü Pavlik dayı dümağ süfrəyə bükülmüş boxçada həyat yoldaşı Polina xalanın bişirdiyi bayram payını gətirərdi. Boxçada müxtəlif şirniyyatlar, boyanmış yumurtalar olardı. Nənəm də onlara hazırladığı bayram hədiyyələrini Pavlik dayı ilə göndərərdi...

Lalə xanımın simasına kədər qarışıq qürur qonur. Özünü dikəldib: “Nənəm dünyasını dəyişəndə onu son mənzilə yola salmaq üçün şəxsən ulu öndərimiz Heydər Əliyev, bir sıra hökumət nümayəndələri və onu tanıyan insanlar gəlmişdilər.”– deyir. – Həmin günlərdə ölkənin müxtəlif bölgələrindən ünvanımıza çoxsaylı başsağlığı məktubları və teleqramlar gəlirdi. Adamlar tam səmimiyyətlə bizimlə birgə saf, gözəl insanın itkisindən kədərləndiklərini, dərdimizə şərik olduqlarını bildirirdilər. Şamama xanıma həsr edilmiş dövlət və hökumət adından yazılan nekroloqda “Büllur kimi saf insan” ifadəsi yazılmışdı. Bu insan, həqiqətən də, büllur kimi saf idi. Nənəm Şamama xanım, sözün əsl mənasında, Azərbaycan qadını olaraq, qismətinə yazılan ömür yoluna zəhməti, ziyası, şəxsiyyəti ilə özünəməxsus naxış vurdu, şərəf, dəyər qatdı və saflığını son günədək qorudu.

***

Bu xatirələr bir işıqlı insanın nümunəvi ömür yoludur. Gərək elə yaşayıb-işləyəsən, ətrafındakılarla elə münasibət qurasan, cəmiyyətə elə yararlı insan olasan ki, dünyadan köçəndə xeyir əməllərin, insanlığın xatırlansın. Böyük nəslin ləyaqətli davamçısı, minlərlə ailənin işığının yanmasında rolu olan Şamama Məmmədkərim qızı Ələsgərova kimi.

**Zərifə HÜSEYNOVA**
**XQ**



# "Toplum TV"nin haradan və necə "qidalandığı" üzə çıxdı

**Azərbaycanın müstəqil daxili və xarici siyasət yürütməsi, heç bir dövlətdən, beynəlxalq və ya donor təşkilatdan, maliyyə qurumundan asılı olmaması Qərbdəki azərbaycanofob dairələrə rahatlıq vermir. Ölkəmiz dünyada mövqelərini xeyli möhkəmləndirib və hazırda "orta güc" hesab olunan ölkələr kateqoriyasına daxildir. Yeri gəlmişkən, qeyd edək ki, bu sırada Kanada, Norveç, Niderland, İsveç, Birləşmiş Ərəb Əmirlikləri və İsrail kimi dövlətlər yer alır. Ölkəmizin türk dövlətləri ailəsinin və müsəlman dünyasının fəal üzvü olması da bizə edilən hücumların digər bir səbəbidir.**




2020-ci ilin payızında Vətən müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi, 2023-cü ilin sentyabrında isə lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlət suverenliyimizin bərqərar olması xaricdəki bədxahlarımızı lap hövsələdən çıxarıb. Onlar yaranmış vəziyyətlə hələ də barışa bilmirlər. Daxildə güclü həmrəyliyin mövcud olması isə bütün mümkün vasitələrin onların əlindən çıxması anlamına gəlir. Belə olan təqdirdə xaricdəki bədniyyətlilər kiçik, dağınıq qruplara "stavka" etmək məcburiyyətində qalırlar. Bir müddət öncə baş verən "Abzas Media" işi, indi isə "Toplum TV" internet televiziyası ilə bağlı məsələlər, əslində, eyni prosesin tərkib hissəsidir. Bu iki hadisə ilə bağlı aparılan əməliyyat-axtarış tədbirlərinə dair məlumatları tutuşdurduqda, onların arasında yaxın bağlılıq olduğunu görmək mümkündür. Əslində, bu proseslər arasında çox asanlıqla ümumiləşdirmə də aparmaq mümkündür. Bütün bunlar Qərbin dağıdıcılıq siyasətinin, qarayaxma kampaniyasının bir elementidir. Azərbaycanla yanaşı, Gürcüstan, Rusiya və digər ölkələrlə bağlı yürüdülən siyasət və törədilən təxribatlar eyni dəst-xətt üzrə həyata keçirilir.

"Toplum TV"-nin ofisində axtarış-əməliyyat tədbirlərinin həyata keçirilməsi Qərb institutlarının medianı, jurnalistləri və ayrı-ayrı şəxsləri Azərbaycan qanunlarına zidd şəkildə maliyyələşdirməsinə dair ciddi dəllilərin müəyyən edilməsi ilə bağlıdır. Bundan əvvəl "Abzas Media" ilə bağlı oxşar tədbirlər həyata keçirilmişdi. Məlum istiqamət üzrə aparılan istintaq tədbirləri zamanı çoxsaylı qanun pozuntuları müəyyən edilmişdi. Faktlar geniş şəbəkə yaradılmaqla qanunsuz maliyyə maxinasiyalarının həyata keçirildiyinə və çirkli pulların yuyulduğuna dəlalət edir. Maliyyə Qərb institutları tərəfindən Gürcüstan vasitəsilə həmin şəbəkəyə ötürülüb. Proses zamanı Şərq ölkələrində terror təşkilatlarının da istifadə etdiyi üçüncü tərəflərə həvalə mexanizmi, adsız kartlardan geniş istifadə olunub. Bu vəziyyət bir daha göstərir ki, Qərbin bəzi dairələri Azərbaycanla bağlı fəaliyyətini nəinki səngitməyib, əksinə, ölkəmizdə qarışıqlıq yaratmaq üçün bütün mümkün vasitələrdən əvvəlkitək istifadə edirlər. Prosesdə ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) və onun rəhbəri Samanta Pauer başda olmaqla Qərb fondları, hüquq-müdafiə təşkilatları, mediası mühüm rol oynayır. Təsadüfi deyil ki, baş verənlər fonunda Azərbaycana qarşı xarici mediada qarayaxma kampaniyası davam etdirilir, əsassız ittihamlarla dolu materiallar dərc olunur.

Prosesin sxemi isə belə təsvir oluna bilər: Əvvəlcə şəbəkə qurulur və onların vasitəsilə daxildə qarışıqlıq yaradılır. Mövzu Qərb mediası və qeyri-hökumət təşkilatlarının gündəminə gətirilir. Daha sonra isə rəsmi müstəviyə keçirilir. Konkret ölkə beynəlxalq ictimaiyyətin hədəfinə çevrilir. Buna misal olaraq, Gürcüstanda xarici agent mövzusunu, USAID-in çevriliş etmək cəhdlərini, Azərbaycanda mühüm tədbirlər, seçkilər dövründə Qərb şəbəkəsinin fəaliyyətinin aktivləşməsini göstərmək olar.

Maraqlıdır ki, Azərbaycana qarşı təşkil olunan kampaniyaların arxasında öz ölkəsində xarici agent statusundan geniş yararlanan, xaricdən dəstək alan və ya yad təsir altında olmaqda şübhəli bilinən vətəndaşlarına qarşı ciddi tədbir görən ABŞ dayanır. ABŞ başda olmaqla Qərb ölkələrində bu sahədə mövcud vəziyyət acınacaqlıdır. Jurnalistlər, vətəndaş cəmiyyəti nümayəndələri, tanınmış şəxslər xarici ölkələrlə əməkdaşlıqda, məxfi informasiyaları yaymaqda və sair əməllərdə təqsirləndirilirlər. Onlara qarşı tədbirlər görülür. Buna misal olaraq, Edvard Snoudenu, Culian Assancı və digərlərini göstərmək olar. Öz daxilində hər hansı xarici təsiri qadağan edən, buna görə vətəndaşlarını qeyd etdiyimiz kimi, ciddi məsuliyyətə cəlb edən ABŞ digər ölkələrdə, o cümlədən Azərbaycanda bu işləri böyük həvəslə həyata keçirir. Müxtəlif ölkələrdə bu əməllərə qarşı tədbir görüləndə isə xarici mediada həmin ölkəyə qarşı çirkin kampaniyalar təşkil edilir.

Təbii ki, "Toplum TV" ilə bağlı tədbirlərin görülməsindən sonra xarici medianın, özlərini hüquq-müdafiə təşkilatları adlandıranların, sonra isə Qərb rəsmilərinin ardıcıl ittihamlar səsləndirəcəkləri heç bir şübhə doğurmur. Lakin bütün bu addımlar Azərbaycanın öz daxili məkanını təxribatçı hərəkətlərdən və qeyri-qanuni fəaliyyətlərdən qorumaq işindən əl çəkməsinə gətirib çıxara bilməz. Uzun illər ərzində ölkəmizdə şəbəkə vasitəsilə qarışıqlıq yaratmaq cəhdləri uğursuzluğa düçar olub. Çünki Azərbaycan girişdə qeyd etdiyimiz kimi, güclü dövlətdir. Daxildə sabitlik və həmrəylik mövcuddur. Belə metodlarla isə daxili sabitliyə xələl gətirmək cəhdləri dəfələrlə iflasa uğrayıb. Azərbaycan xalqının milli maraqlarına zidd gedən, Azərbaycan dövlətinin əleyhinə işləyən, hətta qeyri-qanuni üsullarla fəaliyyət göstərməkdən belə çəkinməyən şəbəkələrin müəyyən edilməsi və neytrallaşdırılması zəruridir.

**Mövzu üzrə fikirlərini öyrəndiyimiz Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid bildirdi ki,** ümumiyyətlə, jurnalist həbsi, bu və ya digər şəkildə medianın fəaliyyətində fasilənin yaranmasına səbəb olmuş, yaxud mövcud xüsusdakı ritorikalara yol açan meyillər Mətbuat Şurasının diqqət mərkəzində olub: "Məsələyə kompleks şəkildə yanaşırıq. Prinsipcə, səbəb və nəticə əlaqələrinə bir o qədər önəm vermirik. Çalışırıq ki, mümkün olan bütün vasitələrlə əvvəlki status-kvo bərpa olunsun. Yəni medianın və jurnalistin fəaliyyəti davam etsin".



R.Məcid qeyd etdi ki, əlbəttə, ilk növbədə, jurnalistlərin həbsi və digər bu kimi məsələlərdə söz və ifadə azadlığı ilə bağlı motivlərin mövcud olub-olmadığına diqqət yetirməliyik: "Bütün dünyada mətbuat şuralarının başlıca missiyası cəmiyyəti medianın hücumlarından qorumaqdır. Bu hücumlar nə zaman olur? O zaman ki, media özünün səlahiyyətlərini aşır, müvafiq olaraq söz və ifadə azadlığı prinsiplərinə zor tətbiq edir, sui-istifadələrə yol verir. Ona görə bizim üçün həm medianın və jurnalistlərin fəaliyyətinə mümkün maneələrdə, həm də medianın özünün qeyri-etik, jurnalistikaya uyğun tərzdə davranmaması müstəvisində həmin prinsiplərə nə dərəcədə xələl gətirilməsi əsasdır. Deməli, başlıca alət söz və ifadə azadlığının özüdür".

Mətbuat Şurasının sədri bildirdi ki, istər "Toplum TV", istərsə də ondan əvvəl "Abzas Media" ilə bağlı durumda cəmiyyətə daha çox sirayət edən məqam kimi söz və ifadə azadlığının pozulmasını görmürük: "Bəli, adları çəkilən media qurumları tənqidi ruhda fəaliyyət göstərirlər. Ancaq bir reallıq da var ki, media tənqid etməlidir. Hesab edirəm ki, fəaliyyətində daha fundamental tənqidə üstünlük verən media orqanlarımız və jurnalistlərimiz var. Onlar sərbəst şəkildə işlərini görürlər. Heç birinə hansısa maneçiliyin törədilməsindən, məhdudlaşdırmaların tətbiqindən söhbət gedə bilməz.

Bir daha deyim ki, başlıca məqam söz azadlığının imkanlarına hansı tərzdə yanaşmaqdır. Yəni məsələ tənqiddə deyil. Ona görə də hazırda bilavasitə "Toplum TV" ilə bağlı durum Mətbuat Şurasının diqqət mərkəzindədir. Arzu edərdik ki, bu media qurumu, eləcə də orada çalışanlar əvvəlki qaydada fəaliyyətlərinə davam etsinlər. Heç istəməzdik ki, onlarla bağlı irəli sürülmüş iddialar təsdiqini tapsın. Güman edirəm ki, əlaqədar instansiyalar da mövcud məqamı nəzərə alırlar. Buna görə məsələyə həssas yanaşılacağına, əsl həqiqətlərin üzə çıxarılacağına əminəm".

**"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev isə bildirdi ki,** son bir neçə ayda bəzi media qurumlarının ofislərində yoxlamaların aparılması, müəyyən məsuliyyətə cəlb etmələrin olması konkret məsələlərlə bağlıdır. Onun sözlərinə görə, bu hadisələrin hər birinin arxasında Qərbin müəyyən institutlarının dəstəkverici qüvvə kimi durduğu ilə bağlı mülahizələr var: "Görünür, Azərbaycanın hüquq-mühafizə orqanları da irəli sürülən ittihamlarda xaricdəki müəyyən dairələrə bağlılıq ehtimalını nəzərə alırlar. Amma bütün bu məsələlər hələlik araşdırma mərhələsindədir. Bütün ölkə ictimaiyyəti prosesi maraqla izləyir. Çünki müəyyən beynəlxalq təşkilatlar məsələyə çox həssas yanaşırlar. Hətta bəziləri nəticəni gözləmədən Azərbaycana qarşı ittihamlar yağdırırlar".

A.Quliyev qeyd etdi ki, Prezident İlham Əliyev fevralın 28-də Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsı qəbul edərkən bunların bəzilərinə toxundu: "Cənab İlham Əliyev Almaniya mətbuatının heç nəyi nəzərə almadan, sonunu gözləmədən Azərbaycana qarşı ittihamlar yağdırmasını



qəbul etmədiyini bildirdi. Hər şeyin sonunu gözləmək lazımdır. Yəqin ki, Azərbaycan hüquq-mühafizə orqanları və məhkəmə sistemi mümkün qədər obyektiv həqiqətin ortaya qoyulmasında maraqlı olacaqlar. Çünki bu, Azərbaycanla bəzi beynəlxalq təşkilatlar arasında müəyyən qədər gərginlik yaradan həssas mövzudur. Amma bu işlərin hər birinin arxasında konkret ittihamlar var. Qaçaqmalçılıq, xaricdən maliyyələşmə, qanunsuz sahibkarlıq fəaliyyəti kimi ittihamlar konkret şəkildə deyilir. Bunların səriştəli dövlət orqanları tərəfindən sona qədər araşdırılmasına ehtiyac var".

Baş redaktor bildirdi ki, araşdırma işləri sona yetməmiş Azərbaycanda azad medianın boğulması, jurnalistlərin təqib olunması təbliğatını aparmaq, hay-küy qaldırmaq düzgün deyil. Təəssüf ki, bəziləri bu taktika ilə hərəkət edirlər.

***Səxavət HƏMİD***
***XQ***

# "Panaçeya məntiqi" və Ermənistanın iflas anonsu

## Mariya Zaxarova ilə Armen Qriqoryanın fərqi

**Heç şübhəsiz, Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın fikirləri Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın dediklərindən daha inandırıcıdır. Məsələ heç də onda deyil ki, birinci sərt reallıqları ifadə edir. Başlıca məqam ikincinin söylədiklərinin arxasında heç bir gerçəkliyin dayanmamasıdır. Bəlkə də Zaxarova Qriqoryanın yerində olsaydı, gülməli görünərdi. Amma birinci öz yerindədir, ikinci isə özünə yer tapa bilmir. Elə Ermənistan kimi...**



Başlayaq A.Qriqoryandan. Ermənistanın təhlükəsizlik şurasının katibi deyir ki, ölkəsi öz təhlükəsizlik zəmanətini ən azı 2021-ci ilin dekabrınadək Rusiyaya etibar etmişdi. Lakin həmin müddətdə Azərbaycan üç irimiqyaslı hücum gerçəkləşdirdi və Ermənistan ərazisini işğal etdi. İddia çox gülüncdür. Söhbət ondan getmir ki, ölkəmiz heç bir dövlətin ərazisini ələ keçirməyib. Azərbaycan–Ermənistan sərhədi şərtidir, yəni dəqiqlik yoxdur, hərbçilərimiz sadəcə təhlükəsizlik baxımından strateji nöqtələri tutublar.

Məsələ ondadır ki, İrəvanın Azərbaycanı işğalçı kimi təqdim etməsi 2022-ci ildən sonraya təsadüf edir. Daha doğrusu, həmin ilin sentyabrında şərti sərhəddə yaşanmış gərginlikdən sonrakı dövrə. Ancaq, görünür, Qriqoryanın fantaziyası və anti-Rusiya köklənişi o qədər güclüdür ki, zamanı səhv salır. Nə isə... Qriqoryan demək istəyir ki, Rusiyaya bel bağladıq, bizə kömək olmadı, ona görə üzümüzü Qərbə tutmuşuq. Əlbəttə, bu yerdə Ermənistan baş naziri Nikol Paşinyanın 44 günlük müharibədə Qərb dövlətlərinə aramsız telefon zənglərini və yalvarışlarını xatırlatmağa ehtiyac var. Həmin dövlətlərdən hansısa biri İrəvana kömək göstərdimi? Xeyr! Müharibəni dayandıran kim oldu? Rusiya Prezidenti Vladimir Putin.

Moskva, necə deyərlər, Ermənistanı Azərbaycanın əlindən aldı, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasına nail oldu. Çox güman, Rusiya rəhbərliyində heç kim sənədin ərsəyə gəlməsindən üç il sonra Ermənistan parlamentinin spikeri Alen Simonyanın Moskvanın sözügedən bəyanatla Qarabağı Azərbaycana verməsinə dair sərsəmləyəcəyini ağlına gətirməzdi. Ümumən, Kremldəkilər nə zamansa İrəvanın onların üzünə belə ağ olacağını da düşünməzdilər. Amma, necə deyərlər, sən saydığını say, görək fələk nə sayır.

İş elə gətirib ki, hazırda Ermənistan tam şəkildə üzünü Qərbə çevirib. Qriqoryan və digər erməni rəsmiləri isə arqumentləri, daha doğrusu, gətirdikləri bəhanələr ilə İrəvanın əsaslı şəkildə siyasi kurs dəyişməsinə haqq qazandırmağa çalışırlar. Əlbəttə, onlara bu işdə Qərb dairələri yaxından kömək göstərirlər. Məsələn, Qriqoryanın hazırkı, Fransanın Ermənistandakı səfiri Olivye Dekotininin isə "Armenpress"ə bir neçə gün əvvəlki açıqlaması arasında tam oxşarlıq var. Fransız səfir Ermənistan üçün 2020-ci ildən sonrakı təhlükəsizlik təminatlarının faydasızlığı ritorikasına baş vurmuşdu. Onun sözlərindən gəlinən qənaət bu idi ki, Rusiya Qarabağda Ermənistana bağlı idarəçiliyin, yəni separatçı rejimin saxlanmasını təmin etməli idi, lakin bunu bacarmadı.

Əlbəttə, Dekotini və Qriqoryan Moskvanın hansı səbəbdən Ermənistanın arxasında dayanmadığını açıqlamırlar. Məsələn, onlar Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun vaxtilə səsləndirdiyi və Azərbaycan cəmiyyətində böyük qıcıq doğurmuş fikirlərini yaddan çıxarırlar. Lavrov Qarabağın statusunun həlli məsələsinin sonraya saxlanılmasının tərəfdarı olduğunu bildirmişdi. Hər halda, İrəvana qızıl məcməyidə nə isə verəsi deyildi...

Ən böyük jesti isə Prezident Putin etmişdi. O, Ermənistan rəhbərliyinə Qarabağla bağlı müzakirələr aparmaq üçün meydan verdiyini vurğulamışdı. Yeri gəlmişkən, Rusiyanın dövlət başçısının bu fikri də Qarabağdakı rus sülhməramlılarının bölgəyə silah-sursat daşınmasındakı fəallığı da ölkəmizdə böyük qəzəb və hiddət doğurmuşdu. Amma məsələ bunda deyil.

Məsələ ondadır ki, rəsmi İrəvan Kremlin jestlərinə ciddi yanaşmamış, üzünü tamamilə Qərbə çevirmək üçün fürsət axtarmış, Azərbaycanla danışıqlar prosesini Qərb platformasına çıxarmış, habelə çalışmışdı ki, Qarabağ avantürasını bu müstəvidə davam etdirsin. Əlbəttə, istəyinə nail ola bilməmiş və qəribədir ki, hər uğursuzluqda Rusiyanı ittiham yolu tutmuşdu. Paşinyan administrasiyası çox həyasızcasına bir tərəfdən Qərbə güvənmək kursu götürmüş, digər tərəfdən isə bu kursun nəticəsində meydana çıxmış neqativ durumlara görə Kremli günahlandırmaq xətti seçmişdi. Həqiqətən, paradoks yaranır. Necə ola bilər ki, Fransaya arxalanıb Avropa İttifaqının mülki müşahidə missiyasını Azərbaycanla sərhədə gətirəsən, Moskvanın təhlükəsizlik zəmanətini heçə sayasan, sonra da deyəsən ki, bütün günahlar Rusiyadadır? Görünür, erməni düşüncə tərzi üçün bu kimi hallar münasibdir...

Əlbəttə, Rusiya da Ermənistandan az nə isə istəməyib. Moskva Qərbpərəst Paşinyan hakimiyyətinin Kremlin orbitinə qayıtmasında israr göstərib və göstərməkdədir. Yəni yuxarıda sadaladığımız jestlər bundan irəli gəlirdi. Rusiya bu gün də Ermənistanla bağlı hadisə və proseslərə "bəlkə də qayıtdılar" məntiqi ilə yanaşır.

...Kreml göstərmək istəyir ki, Ermənistanın Qarabağ avantürası yalnız onun patronajlığı altında davamını tapa bilər. Həmin avantürizmi Qərbin dəstəyi ilə yaşatmağı düşünən, məqsədinə çatmayan Paşinyan administrasiyası hər uğursuzluqda bir qədər də azğınlaşır. Hazırda İrəvan öz avantürizmini, daha doğrusu, işğalçılıq niyyətini tam şəkildə Qərbin musiqisinin notlarına kökləyib. Bu köklənişdəki ən böyük motiv daha qlobaldır – Moskvanı Cənubi Qafqazdan tamamilə sıxışdırmaq. Rəsmi İrəvan hesab edir ki, əgər proses reallaşsa, Qərb ona mükafat qismində itirilmiş mövqelərini geri qaytarmağa, Azərbaycan üzərində üstünlük qazanmağa şərait yaradacaq. Şübhəsiz, bu, xam xəyaldır. İndiki durumdakı reallığı isə Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova açıqlayır.

***

Ümumən, xanım Zaxarova hazırda Rusiyanın Ermənistana qarşı qəzəbinin obrazıdır. İstər XİN rəhbəri Sergey Lavrov, eləcə də digər ölkə rəsmiləri fikirlərini korrekt şəkildə ifadə edirlərsə, Zaxarovada bu baxımdan heç bir "stop" yoxdur. Diplomat, əvvəldə də bildirdiyimiz kimi, gerçəkliyi, kifayət qədər, çılpaq tərzdə ifadə edir. Məsələn, o deyir ki, Ermənistan sülh şəraitində yaşamağa layiqdir və heç bir halda vicdansız Qərb siyasətçilərinin əlində alver predmetinə çevrilməməlidir: "Ermənistan soyqırımları, öz suverenliyi, mədəniyyəti uğrunda mübarizəni, mürəkkəb ərazi mübahisələrini, münaqişələri əhatə edən çətin tarixi yolu keçib. Bu ölkə sülh içində yaşamağa layiqdir və heç bir halda vicdansız Qərb siyasətçilərinin əlində sövdələşmə obyektinə çevrilməməlidir".

M.Zaxarova obrazı həm də Rusiyanın xəbərdarlıq məntiqinin özüdür. Sitatdan da göründüyü kimi, bu obraz rəsmi İrəvana Ermənistanı indiyədək ayaqda saxlayan avantürizm motivlərini bir-bir açıqlayır. Belə bir açıqlama təsadüf sayıla bilməz. Zaxarova həmin avantürizm meyillərinin hər birində Rusiyanın rolunun olduğuna dair subliminal mesaj verir. Xanım diplomat, eyni zamanda Qərbin vaxtilə Ukrayna hakimiyyətinin təmsilçilərinə çox şey vəd verdiyini və sonra "onları tərk etdiyini" vurğulayır. Yəni o, İrəvanın yağlı vədlərə inanmasının yanlışlığını əsaslandırır.

Rusiya XİN-in sözçüsü fikirlərini geniş şəkildə, ən əsası sentimental tonda çatdırır. Bildirir ki, ölkəsi tam səmimiyyəti ilə Ermənistana sülh arzulayır: "Biz bu dövlətə, həm bu ölkəyə və xalqa sevgi, həm də praqmatik baxımdan səmimi qəlbdən sülh, sabitlik və firavanlıq arzulayırıq. Çünki regionun rifahı sabitlikdən və firavanlıqdan asılıdır. Amma təəssüf ki, Qərb Ukrayna ilə kifayət qədər oynayıb onu "sındırıb", qolu və ayağı olmayan döyülmüş gəlincik kimi küncə ataraq, yeni qurban axtarmağa başlayıb. Qoy, Ermənistan aldadılaraq, bu yeni qurbana çevrilməsin".

Özünün bədii təfəkkürünü işə salan M.Zaxarova onu da deyib ki, bəzi erməni liderlər Aİ-nin artan diqqətini Panaçeya (qədim mifologiyaya görə hər dərdin dərmanı – red.) kimi görürlər. "Daha dərinə baxmaq lazımdır. Bu ki güzgünü göstərən, yerli əhalidəki ən dəyərli şeyləri ələ keçirməyən "ağ adam"ın xarakterik xüsusiyyəti idi. Təəssüf ki, Ermənistanın bəzi siyasi xadimləri ölkəni Qərb geosiyasətinin başqa alətinə, əyləncəsinə çevirdiklərini düşünmürlər. Hesabı boyunlarına götürürlər", – deyən Rusiya XİN-in sözçüsü son nöqtəni qoyub: Aİ Ermənistana regiona "giriş nöqtəsi" kimi baxır.

***

Əlbəttə, A.Qriqoryanın məsələ ilə bağlı təsəvvürü başqadır. Yuxarıda həmin təsəvvürün bir vacib elementini diqqətə çatdırdıq və bildirdik ki, Ermənistanın təhlükəsizlik şurasının katibi İrəvanın Qərblə yaxınlığını yeni təhlükəsizlik rıçaqları tapmaq istəyi ilə əsaslandırır. Bu istəyin Ermənistan üçün hansı nəticələr doğuracağı önəmlidir. Yeri gəlmişkən, məsələ erməni cəmiyyətində də geniş müzakirə olunur. Ona görə müzakirə olunur ki, Ermənistanda ölkənin iqtisadi dayanıqlılığının Rusiyadan asılı olduğunu anlayanlar var. Zaxarovanın, belə demək mümkünsə, bədii tonlu xəbərdarlığından sonra belələrinin sayının daha da artacağı şübhəsizdir.

Bəli, hazırda Ermənistan rəhbərliyi ölkənin iqtisadi inkişaf tempi ilə öyünür. Rusiya iqtidarının nümayəndələri və onlara yaxın şəxslər isə hər imkandaca bu inkişafın, əslində, Moskva seqmentinin mövcudluğunu əsaslandırırlar. Yəni, demək istəyirlər ki, it araba kölgəsində yatıb, həmin kölgəni özününkü zənn etməsin. Elə jurnalistlərin Qriqoryana ünvanladıqları növbəti sual da dolayısı ilə məhz bu deyimdən qaynaqlanır. Media təmsilçiləri təhlükəsizlik şurasının katibindən Rusiya ilə gərgin münasibətlər fonunda Lars sərhəd-keçid məntəqəsinin tamamilə bağlanma mövzusuna toxunurlar. Qriqoryanın cavabında fərqli motiv yoxdur. Əgər o, ölkənin təhlükəsizlik alətlərinin genişləndirilməsi xüsusunda söz açıb, bu baxımdan Qərblə yaxınlıq amilini qabardırdısa, eyni düşüncəni iqtisadi ritorikaya da daşıyır. Bu dəfə Ermənistan iqtisadiyyatının şaxələndirilməsindən, yeni tərəfdaşlar tapmaqdan danışır: "Uzunmüddətli perspektivdə problemlərimizin olmaması üçün Ermənistan öz iqtisadiyyatını şaxələndirmək, yeni tərəfdaşlar tapmaq yolu ilə gedir".

***

Sonda onu deyək ki, Ermənistanın hansı yolla getdiyi nə Qriqoryana, nə də N.Paşinyana bəllidir. Ölkə obrazlı desək, ikimərtəbəli avtobusun yuxarı mərtəbəsinə çıxıb orada sürücü axtaran birinə oxşayır. Ermənistan adlı sınıq avtobus isə tüstüləyə-tüstüləyə, ətrafa pis qoxu saça-saça gedir. Hazırkı erməni iqtidarı bu hərəkəti inkişaf kimi görür. Ancaq tam aydındır ki, həmin iqtidarın inkişaf məsələsinə baxışda ciddi problemləri var. Elə bir problemlər ki, üfüqdə iflas perspektivini görməyəcək qədər korluq gətirir. A.Qriqoryanın bildirdikləri korluq durumunun təsviri, Zaxarovanın vurğuladıqları isə korun ya eynək taxmayacağı, ya da gözünü müalicə etdirməyəcəyi halda yıxılıb başını-gözünü dağıdacağının anonsu idi.

***Ə.CAHANGİROĞLU***
***XQ***




# Çexiya Slovakiyadan niyə inciyib?

**Slovakiyanın baş naziri Robert Fitso deyib ki, Çexiya planlaşdırılan hökumətlərarası məsləhətləşmələri ləğv etməklə Slovakiya–Çexiya münasibətlərini təhlükə altında atıb. Cənab Fitsonun sözlərinə görə, Praqa Nazirlər Kabinetinin birgə iclasının ləğv edilməsinə səbəb kimi Çexiya və Slovakiya hökumətlərinin Ukraynadakı münaqişəyə baxışındakı fərqliliyi göstərib.**

Robert Fitso Facebook-da videomüraciət paylaşıb və bildirib ki, Çexiya hökuməti martın 6-da axşam saatlarında Slovakiya tərəfini hökumətlərarası məsləhətləşmələrin qeyri-müəyyən müddətə təxirə salınması ilə bağlı xəbərdar edib. Görüş apreldə Çexiyada baş tutmalı idi. Cənab Fitsonun sözlərinə görə, bu yolla Çexiya Ukraynadakı münaqişədə maraqlı olduğunu təsdiqləyib. Baş nazir Slovakiyanın həmişə sülhə çağırdığını vurğulayıb.

O videomüraciətində bildirib ki, Slovakiya hökuməti heç vaxt - təkrar edirəm, heç vaxt - dərin Çexiya-Slovakiya münasibətlərini heç bir təhlükəyə məruz qoymayacaq: "Nəzərə alırıq ki, Çexiya hökumətinin rəhbərləri yalnız Ukraynadakı müharibəni dəstəkləməkdə maraqlı olduqları üçün onları riskə atmaq qərarına gəliblər, halbuki Slovakiya hökuməti açıq şəkildə sülhdən danışır".

Eyni zamanda, Robert Fitso Çexiyanın qərarının Slovakiyanın xarici siyasətinə təsir etməyəcəyini vurğulayıb: “Çexiya hökuməti istənilən vaxt Slovakiyada xoş qarşılanır. Biz Slovakiyadakı siyasi münasibətlərimizi Çexiya-Slovakiyanın birgəyaşayışı ilə heç bir əlaqəsi olmayan müxtəlif dünyagörüşü ilə yükləməyəcəyik”.

**S.ELAY**
**XQ**

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

Dəniz Nəqliyyatı Donanmasının inzibati binasının yanğın xəbərverici siqnalizasiya sisteminin quraşdırılması (mal-material və işçi qüvvəsi ilə birlikdə) işlərinin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il martın 18-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1132.

Ünvan – Bakı, Mikayıl Useynov küçəsi 2

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun tabeliyindəki idarələrə tələb olunan brezent, divan üzlüyü və örtük materiallarının satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il martın 14-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1263.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

# Rusiya–Ukrayna savaşı: sülhə yol tapılacaqmı?



## *Tərəflər güzəştə getməyi düşünmürlər*

**Rusiya-Ukrayna müharibəsi uzandıqca bəşəriyyət üçün sözün əsl mənasında ciddi təhlükəyə çevrilir. Münaqişə tərəfləri arasında hələ ki, danışıqlardan söhbət belə getmir, amma Qərb, xüsusilə son vaxtlar NATO blokunun “qırğısı” rolunu üzərinə götürən Fransa prezidenti Emmanuel Makron alyans ölkələrinin Ukraynaya əsgəri dəstək göndərmək kimi çox təhlükəli açıqlamalar verir. Maraqlıdır ki, güc potensialı baxımından Rusiya ilə müqayisəyə belə gəlməyən bəzi postsovet ölkələri də alyansı bir çox hallarda münaqişənin tərəfi olmağa çağırır, məsuliyyətsiz bəyanatlar verirlər. Bəs gerçək vəziyyət necədir?**

Münaqişənin üçüncü ilə keçməsinə baxmayaraq, bu gün də Ukrayna və onun Qərb tərəfdarlarının Rusiya ilə ümumi cəhətləri çox azdır. Lakin bununla belə, münaqişənin bütün əsas oyunçuları əsas məsələdə həmfikirdirlər: Ukraynadakı münaqişə danışıqlarla yekunlaşacaq. Rusiya prezidenti Vladimir Putinin mühafizəkar televiziya jurnalisti Taker Karlsona verdiyi son müsahibəsində demişdir: “Biz danışıqlara hazırıq”. ABŞ Milli Təhlükəsizlik Şurasının rəsmi nümayəndəsi Putinin səmimiliyinə şübhə etsə də, “həm biz, həm də prezident Zelenski dəfələrlə demişik ki, bu hərbi münaqişənin danışıqlar yolu ilə bitəcəyinə inanırıq”, – deyə cavab verib. Son iki il ərzində döyüş meydanında kardinal nəticələrin olmaması, tərəflərdən birinin mütləq qələbə əldə etməməsi münaqişənin danışıqlar yolu ilə yekunlaşacağının alternativini fantaziyaya çevirir.

Lakin danışıqlara uyğun mümkün alternativin olmamasına baxmayaraq, hazırda müharibə edən tərəflərin tezliklə danışıqlara başlayacağına dair də heç bir işartı yoxdur. Tərəflərin hər ikisi hesab edir ki, məqbul razılaşma əldə etmək hazırda mümkün deyil. Həm Rusiya, həm də Ukrayna qarşı tərəfin kompromisə getməyəcəyindən və ya istənilən fasilədən növbəti döyüşə hazırlaşmaq üçün istifadə edəcəyindən ehtiyat edir. Bu da səbəbsiz deyil. Çünki hələ müharibənin qanlı xarakter almadığı dövrlərdə Türkiyənin vasitəçiliyi ilə İstanbulda baş tutan Rusiya-Ukrayna danışıqlarının və əldə edilən razılaşmaların son məqamda Qərb ölkələrinin diqtəsi ilə pozulmasından sonra, qarşılıqlı etimad ciddi şəkildə şübhə altına düşdü.

İndi dünyanın tanınmış siyasi xadimləri və bir çox ölkələrin rəhbərləri hazırda hər hansı sülh sazişindən söhbət getməsə belə, bütün tərəflərin danışıqların gələcəkdə mümkün olmasını təmin edəcək addımlar atmasını vacib hesab edirlər. “Foreign Affairs” nəşri haqlı olaraq yazır ki, “döyüş əməliyyatları zamanı düşmənin həqiqətən də döyüşü dayandırmağa hazır olub-olmadığını və ya yalnız münaqişənin məqsədlərinə çatmaq üçün qərəzli şəkildə sülh danışıqlarını apardığını bilmək çətindir. Dialoq olmadığı halda düşmənin niyyətini bilmək də praktiki olaraq mümkün deyil. Ona görə də ünsiyyət kanalları yaratmaq lazımdır ki, belə bir imkan yarananda sülhə nail olmaq fürsətindən istifadə edilsin”.

Dünyada sabitliyin və əmin-amanlığın hökm sürməsində maraqlı olan təcrübəli siyasi xadimlər bildirirlər ki, indi belə kanalların yaradılmasına başlamağın vaxtıdır. Ukrayna və onun Qərb tərəfdaşları üçün bu, “ünsiyyət kanallarını” və ya münaqişə diplomatiyasını ikitərəfli və çoxtərəfli əməkdaşlığın əsas mərkəzinə çevirmək deməkdir. Əlbəttə, bütün tərəflər mümkün danışıqlara açıq olduqlarını bildirməlidirlər. Bu, müharibə edən dövlətlərdən və onların müttəfiqlərindən öz niyyətlərini qarşı tərəfə çatdırmaq üçün birtərəfli addımlar atmağı tələb edəcək. Bu cür siqnallara ritorikanın dəyişməsi, danışıqlar üçün xüsusi elçilərin təyin edilməsi, düşmən ərazisinin dərinliklərində zərbələrə könüllü məhdudiyyətlərin qoyulması və hərbi əsirlərin mübadiləsi daxil ola bilər.

Əgər tərəflərdən heç biri bu prosesə başlamasa, çox güman ki, insan həyatı və regional sabitlik üçün çox ciddi problemlər yaranacaq. Əslində, son vaxtlar hadisələr məhz bu istiqamətdə davam edir. Nəzərə almaq lazımdır ki, döyüşən tərəflər arasında qarşılıqlı inamsızlıq istənilən müharibənin, deməli, bu müharibələrə son qoyan bütün danışıqların xarakterik xüsusiyyətidir. Əgər etimad ünsiyyət üçün əsas şərt olsaydı, müharibə edən tərəflər heç vaxt bir-biri ilə danışmağa başlamazdılar. Ona görə də qarşılıqlı inamsızlığa baxmayaraq, tərəflər söhbətə başlaya bilərlər və başlamalıdırlar. Bəs dünya buna nail olmaq üçün hansı addımları atır və ümumiyyətlə, sülhə yol açmaq üçün töhfə verən varmı?

Bu gün Rusiya-Ukrayna müharibəsinə yanaşmalarına və baxışlarına görə dünya dövlətlərini iki düşərgəyə bölmək olar. Aydın məsələdir ki, birinci düşərgədə “Rusiyanı məğlub etmək” və onu “zəiflədib dağıtmaq” istəyində olan Qərb və ilk növbədə Şimali Atlantika blokuna daxil olan ölkələr durur. Müşahidələrdən və baş verən hadisələrdən aydın görünür ki, bu düşərgənin siyasi isteblişmenti Rusiya-Ukrayna münaqişəsinin gerçək olaraq danışıqlar yolu ilə həllində maraqlı deyil. Bu, onların danışıqlar üçün irəli sürdükləri şərtlər və Ukraynaya nümayiş etdirdikləri hərbi-siyasi dəstəkdə də özünü aydın göstərir.

Bu düşərgənin bəzi dövlət rəhbərləri və siyasətçiləri münaqişə başlayandan bu günə qədər təkidlə Ukraynanın dərhal NATO-ya üzvlüyə qəbul edilməsi ideyasını müzakirəyə çıxarırlar. Rusiyanın Ukraynada xüsusi hərbi əməliyyatlara başlamasının kökündə məhz Qərbin belə bir istəyinin durduğunu nəzərə alsaq, indiki vaxtda belə bir addımın atılmasını nə qədər düzgün və düşünülmüş hesab etmək olar?

“Foreign Policy” jurnalının şərhçisi, Harvard Universitetinin beynəlxalq münasibətlər üzrə professoru Stiven Uolt məsələ ilə bağlı maraqlı bir analitik məqalə ilə çıxış edib. S.Uolt yazır: “Döyüşlərin gedişi Ukraynaya qarşı çevrilib və Konqresin Kiyevə daha bir yardım paketini təsdiqləyəcəyi şübhəsi fonunda, NATO-nun keçmiş rəhbəri Anders Foq Rasmussen və ABŞ-ın NATO-dakı keçmiş səfiri İvo Daalder kimi nüfuzlu ekspertlər nə qədər gec deyil Ukraynanın NATO-ya qəbul edilməsi ilə bağlı əvvəlki çağırışlarla çıxış ediblər. Bu addım bir tərəfdən heç bir hərbi kampaniyanın Ukraynanı alyansdan kənarda saxlamayacağına Rusiyanı inandırmaq üçün, digər tərəfdən isə nəhayət döyüşlər bitəndə Kiyevin təhlükəsizliyini təmin etmək zərurəti kimi təqdim edilir”.

Stiven qeyd edir ki, “ağıllı insanlar bu tövsiyə ilə razılaşmaya bilər və yəqin ki, razılaşmayacaqlar da, çünki o, qeyri-müəyyən gələcək haqqında fərziyyələrə əsaslanır. Əslində, biz hamımız Ukraynanın alyansa daxil olmasının nəticələrinin nə olacağını təxmin edirik. İcazə verin mövqeyimi açıq deyim: ... Ukraynanı hazırda NATO-ya dəvət etmək axmaq fikirdir və bu, nəinki münaqişəni uzadacaq, həm də Kiyevdəki vəziyyəti daha da pisləşdirəcək”.

Beynəlxalq münasibətlər üzrə professor fikrini daha da genişləndirərək bildirir ki, Ukraynanın istər indi, istərsə də yaxın gələcəkdə NATO-ya buraxılmasının ağılsızlıq olduğuna inamı bir neçə səbəblə bağlıdır. “Birincisi, Ukrayna daha çox silah almayana qədər və ötən ilin uğursuzluqlarından sonra özünə gəlmək üçün vaxt qazanmasa, döyüş meydanında vəziyyəti dəyişməyəcək və itirilmiş əraziləri geri qaytarmayacaq. Ukraynanın Qərb tərəfdarları ötən ilin yazında gözlənilən əks-hücumla bağlı həddən artıq optimist proqnozlarında yanılmışdılar və Ukraynanın vəziyyəti dəyişdirmək üçün bir yol tapacağına ümid etməklə, bu səhvi təkrarlayırlar. İnanmaq istərdim ki, hər şey düşündüyümdən fərqlidir, lakin biz siyasi seçimlərimizi öz istəklərimizə deyil, obyektiv reallıqla əsaslandırmalıyıq”.

Stivenin ikinci qənaəti ondan ibarətdir ki, Ukraynanın taleyi Rusiya liderlərinə daha vacibdir, nəinki Qərbə. “Təbii ki, ukraynalıların özləri bundan daha çox narahatdırlar, lakin Rusiya rəhbərliyi üçün bu, hələ də əksər NATO dövlətlərinin rəhbərləri və əhalisindən daha aktual məsələdir. NATO ölkələrindən fərqli olaraq, prezident Vladimir Putin və onun yaxınları minlərlə əsgəri Ukraynaya ölümə göndərməyə hazırdır. Keçən həftə Fransa prezidenti Emmanuel Makron qəfildən NATO qoşunlarının mümkün göndərilməsi barədə danışanda Almaniya kansleri Olaf Şols və alyansın rəhbəri Yens Stoltenberq onu danlamağa tələsdilər. Bu o demək deyil ki, NATO Ukraynanın taleyi ilə maraqlanmır, sadəcə olaraq, Rusiya bundan daha çox narahatdır”.

Siyasi şərhçi üçüncü arqumentini belə əsaslandırır ki, Rusiyanın 2022-ci ilin fevralında xüsusi hərbi əməliyyatlara başlamasının əsas səbəbi Ukraynanın Qərblə yaxınlaşmasına imkan verməmək və onun alyansa birləşməsinin qarşısını almaq idi. “Mərkəzi Kəşfiyyat İdarəsi ilə Ukrayna xüsusi xidmət orqanları arasında getdikcə artan əməkdaşlığın son zamanlar aşkarlanması, Qərbin 2014-cü ildən sonra Ukraynanın müdafiəsini gücləndirmək səyləri və Kiyevi alyansa qəbul etmək üçün mütəmadi vədlər, şübhəsiz ki, Moskvanın narahatlığını daha da artırdı. Bu, beynəlxalq münasibətlərdə “təhlükəsizlik dilemması” adlandırılan klassik nümunədir”, – deyə Stiven Uolt qeyd edir.

Şərhçi haqlı olaraq yazır: “...İndiyədək nə ABŞ, nə də müttəfiqlərdən hansısa biri Ukrayna uğrunda döyüşmək üçün qoşun göndərməyə hazır olduğunu bildirməyib. Silah və pulla kömək - bəli, şəxsi heyətlə - yox. Biz buna hazır olsaydıq, qoşunlarımız artıq Ukraynada olardı. Ukraynaya beş, on və ya iyirmi ildən sonra onun uğrunda mübarizə aparacağını vəd etməyin nə mənası var – əgər bu gün heç kimin buna həvəsi yoxdursa?”

**(ardı var)**

**İlqar RÜSTƏMOV**
**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 53 (30457) 8 mart 2024-cü il, cümə

# “Xalq qəzeti”nin əməkdaşı təltif edilib



**8 Mart Beynəlxalq Qadınlar Günü şərəfinə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ölkənin ictimai həyatında səmərəli fəaliyyətinə görə “Tərəqqi “ medalı ilə təltif edilmiş bir qrup qadın arasında “Xalq qəzeti”nin əməkdaşı Zərifə Bəşir qızı Hüseynovanın da adı var.**

Qələm yoldaşımızı yüksək dövlət təltifinə layiq görülməsi münasibətilə təbrik edir, ona yeni uğurlar arzulayırıq.

*XQ-nin kollektivi*

# Keşlədəki Şah Abbas məscidi yeni qiyafədə





**Bakının ən qədim kəndlərindən olan Keşlədəki məscid 4 əsr bundan əvvəl Şah Abbas zamanında tikdirilmişdir. Elə buna görə də o vaxtdan “Şah Abbas məscidi” adlanır. Əhəng daşı ilə kvadrat şəklində inşa olunmuş məscid və ətrafındakı 130 kvadratmetrlik yardımçı tikililər 4 əsrdir ki, müsəlmanların xidmətindədir.**

Son illərdə paytaxtımızda və Bakıətrafı qəsəbələrdə aparılan tikinti-quruculuq və abadlaşdırma tədbirləri ilə bağlı qədim Keşlə məscidi də diqqətdən kənarda qalmayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçən il məsciddə əsaslı yenidənqurma və bərpa işləri görülüb.

Əvvəlcə Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun əməkdaşları tərəfindən məscidə baxış keçirilmiş, mühəndis müayinəsi və texniki vəziyyəti haqqında rəy verilmiş, konstruksiya layihəsi hazırlanmışdır.



Rəyə uyğun olaraq, bünövrədə möhkəmləndirmə, binada isə mövcud mikroçatların aradan qaldırılması məqsədilə lazımi işlər görülmüşdür.

Təmir və bərpa işləri aparılarkən binanın ilkin tarixi görünüşünün qorunub saxlanılmasına xüsusi diqqət yetirilmiş, məscidin və ətrafdakı tikililərin üzlük daşları yenilənmişdir.

Məscidin günbəz örtüyü yenisi ilə əvəz olunmuş və binanın memarlıq üslubuna uyğun olaraq, hündürlüyü 20 metr olan minarə inşa edilmişdir. Həyətdə imam üçün (70 nəfərlik) otaq, əlavə ibadət xana, (80 nəfərlik) ehsan zalı, dəstəmaz almaq üçün xüsusi yerlər, mətbəx, anbar, qazanxana, təsərrüfat otaqları tikilmiş və bərpa olunmuşdur.

Məscidin həyətinə daxil olmaq üçün iki yerdən giriş qapısı və ümumi memarlıq üslubunu tamamlayan 52 metr uzunluğunda hasar inşa olunmuşdur.

Keşlədəki Şah Abbas məscidi yerli əhəmiyyətli memarlıq abidəsi kimi, dövlət tərəfindən qorunur.

*Q.PİRİYEV,*
*E. AĞALAROV (foto)*
*XQ*

# Bokşçumuzun 2-ci qələbəsi

**İtaliyanın Busto Arsizio şəhərində boks üzrə I Dünya Olimpiya Təsnifat Turniri davam edir. Yarışın beşinci günündə Azərbaycan millisinin heyətində ilk olaraq rinqə Zeynəb Rəhimova çıxıb.**



54 kq çəkidə mübarizə aparan boksçu 1/16 final mərhələsi çərçivəsində Aqerie Bayevlə (Efiopiya) üz-üzə gəlib. Döyüş Rəhimovanın qələbəsi ilə başa çatıb. O, ilk raundda rəqibini tam üstünlüklə məğlub edib.

Bununla da ardıcıl ikinci qələbəsini qazanan Zeynəb 1/8 finala yüksəlib və Paris Yay Olimpiya Oyunları üçün lisenziyaya bir addım da yaxınlaşıb. Yığma üzvü üçüncü qarşılaşmasına martın 9-da çıxacaq. O, növbəti 2 görüşünü də qalib kimi başa vuracağı halda, Fransa paytaxtına vəsiqə qazanacaq.

Qeyd edək ki, bu gün daha 4 bokşçumuz qüvvəsini sınayacaq. Məhsəti Həmzəyeva-Ağamalıyeva (57 kq) Preedakamon Tintabthhai (Tailand) ilə, Alfonso Dominqes (92 kq) Emmaneul Reyes Pla (İspaniya) ilə, Tayfur Əliyev (63,5 kq) Şion Nişiyama (Yaponiya) ilə və Sərxan Əliyev (71 kq) Aleksandr Trofimçukla (Litva) döyüşəcək.

# Hakim soydaşımız qitə çempionatında

**Bu gün Qırğızıstanın paytaxtı Bişkek şəhərində pauerliftinqin WPC/AWPC versiyası üzrə açıq Asiya çempionatı start götürür.**



İki gün davam edəcək turnirdə beynəlxalq dərəcəli hakim Zaur Cəfərov baş hakimlik edəcək.

Yarışda Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkmənistan, Özbəkistan, Belarus, Monqolustan, Rusiya, Hindistan, Türkiyə və digər ölkələrdən 250-yə yaxın atlet birincilik uğrunda mübarizə aparacaq.

Onu da qeyd edək ki, Zaur Cəfərov Dünya Pauerliftinq Konqresinin (World Powerlifting Congress) Azərbaycandakı rəsmi nümayəndəsidir.

*Leyla SABİRQIZI*
*XQ*

# Qələbəyə bərabər heç-heçə

## *"Qarabağ" Avropa futbolunun sensasiyasını yazmağa çox yaxın idi*

**Qatı futbol azarkeşlərinin əsas diqqətinin UEFA Çempionlar liqasının oyunlarına yönəlməsinə baxmayaraq, Azərbaycandakı futbol həvəskarları üçün UEFA Avropa liqasının oyunları daha maraqlı idi. Çünki martın 7-də Avroliqanın 1/8 final oyunların ilk 7 qarşılaşmasından biri də onların doğma komandası Ağdamın “Qarabağ” klubu ilə Almaniya təmsilçisi Liverkuzenin “Bayer” komandası arasında keçirilirdi.**

İş elə gətirib ki, “qarabağlılar” Azərbaycanın ən titullu komandası olmaqla yanaşı, həm də bu mövsümdə Şərqi Avropanın avrokuboklardakı ən yaxşı nümayəndəsi hesab edilirlər. Doğrudur, Qurban Qurbanovun komandası təsnifat mərhələsində Çempionlar liqasının qrup mərhələsinə yüksələ bilmədi, lakin Avropa liqasında qrup mərhləsində kvartetin ikincisi kimi pley-off mərhələsini çıxa bildi. Məhz qrup mərhələsi oyunlarında da qarabağlıların əsas rəqibi kvartetin qalibi olan Leverkuzenin “Bayer” komandası idi.

Komandaların bu mərhələdəki hər iki qarşılaşmasında “Bayer” qalib gəlmişdi. Xabi Alonsonun yetirmələri əvvəlcə 5:1, sonra isə 1:0 hesabı ilə “Qarabağ”ı üstələmişdilər. Bakıda keçirilən cavab matçında ən yaxşı oyunçulardan biri "əczaçılar"ın keçmiş, “Qarabağ”ın hazırkı qapıçısı Andrey Lunyov oldu. O, əla oyun nümayiş etdirərək keçmiş klubuna qapısından top keçirməyə imkan vermədi. Yalnız 85-ci dəqiqədə zədə səbəbindən Lunyov oyunu tərk edəndən sonra “əczaçılar” 90+4-cü dəqiqədə “Qarabağ”ın qapısından top keçirə bildilər.

Pley-offun 1/16 mərhələsində Portuqaliyanın “Braqa”sı ilə qarşılaşmada qarabağlılar favorit hesab olunmasalar da rəqib meydanında əla oyun nümüyiş etdirərək 4:2 hesablı qələbə qazandılar. Bakıda isə Qurban Qurbanovun komandası 0:2 hesabı ilə uduzsa da, əlavə vaxtda azlıqda oynayaraq iki dəfə fərqlənə bildi. Həmin oyun 3:2 hesabı ilə braqalıların xeyrinə başa çatsa da, ümumi hesabda “Qarabağ” 6:5 qələbə qazanaraq 1/8 finala yüksəldi.

Amma etiraf edək ki, ağdamlıların bugünkü rəqibi “Bayer” Avropanın, elə dünyanın da ən güclü futbol liqası hesab edilən Almaniya bundesliqasında möhtəşəm oyun nümayiş etdirir. Dövrünün ən yaxşı futbolçularından olan və adlı-sanlı klublarda top qovan Xabi Alonso məşqçi kimi də sensasiya yaradır. Onun yetirmələri ən yaxın zamanlarda əsl qol maşını sayılan "Bavariya"nı 10 xal qabaqlayaraq Almaniya çempionatında liderdirlər. Komanda çempionluğa doğru inamla irəliləyir.





“Əczaçılar” çempionat boyu əla oyun nümayiş etdirirlər və trebl qazanmağa çox yaxındırlar. “Bayer” Avropa liqasının qrup mərhələsində keçirdiyi altı oyunun hamısında qalib gəlib. Beləliklə, klub bu mövsüm bir dəfə də olsun məğlubiyyətlə üzləşməyib və cəmi dörd heç-heçə edib. Bu müddət ərzində onlar qapılarından 24 qol buraxsalar da, 99 qola imza atıblar. "Bayer"in cinah müdafiəçiləri Jeremi Frimponq, Alexandro Qrimaldo və Florian Virts kimi futbolçuların bu uğurlarda böyük payı var.

Görək doğma divarlar və 13-cü oyunçu amili ağdamlılara bu komanda ilə oyunda heç olmaya heç-heçəyə nail olmağa imkan verəcəkmi? Əgər Lunyov bu dəfə də sona qədər qapısını toxunulmaz saxlaya bilsə, hətta qələbə şansımız da yarana bilər. Beləliklə, oyun başladı.

İlk dəqiqələrdən “Qarabağ” təşəbbüsü ələ almağa başlayır. Rəqib topa sahib olmağa çalışsa da ağdamlılar pressinqdən istifadə edib bir-birinin ardınca əks-hücumlar təşkil etməyə başlayırlar. Oyunun 2-ci dəqiqəsində Juninio sağ cinahdan rəqib qapısının önünə əla ötürmə edir. Ucaboy və cüssəli alman futbolçuları bu təhlükəli ötürməni qola çevirməyə imkan vermirlər. Oyunun 8-ci dəqiqəsində Juninio rəqibə qarşı elə ilk kobud oyununa görə, qarşısında fransalı hakim Bastianın sarı vərəqəsini görür.

Oyunun ən yaxşılarından olan Veşoviç, Yankoviç və Juninio 11, 22, 24-cü dəqiqələrdə rəqib qapıçı Kovara effektli zərbələri ilə rahat nəfəs almağa imkan vermirdilər. 26-cı dəqiqədə Yankoviç yoldaşının ötürməsini güclü zərbə ilə çərçivəyə endirdi. Alman qolkiper aciz qalsa da, qapı dirəyi köməyinə gəldi.

26-cı dəqiqə Juninio "Bayer"in kapitanı və mərkəz müdafiəçisindən topu oğurlayır və sürətlə hücuma keçir. Cərimə meydançasında Banzaya əla ötürmə və qoooolll! Aramsız yağan yağışa baxmayaraq, meydanın kənarından komandasına göstərişlər verən Xabi Alonso kor-peşiman əllərini yelləyir. Bəli, bu 34 oyunda məğlubiyyətin nə olduğunu bilməyən gənc məşqçinin komandasına sözsüz ifadə etdiyi narazılıq nişanəsi idi.

"Bayer" qoldan sonra hücumlarını gücləndirməyə çalışır, lakin “Qarabağ”ın pressinqi ona məhsuldar hücumlar təşkil etməyə imkan vermir. Nəticədə, Xabi Alonsonun yetimələri yalnız 42-ci dəqiqədə qarabağlıların qapı çərçivəsinə düşə bilirlər. Birinci hissənin əlavə vaxtında isə müdafiəçidən əla ötürmə alan Juninio bu dəfə rəqiblərini arxada qoyub qapıçı Kovarla təkbətək çıxdı. Alman qapıçı onun qarışısını kəsə bilmədi – qol. 2:0.

“Eto cudo!” – “Bu möcüzədir”deyə “Matç TV”-nin rusiyalı şərhçisi heyrət içində qışqırdı. Bəli, bu, doğurdan, möcüzə idi, “Qarabağ”ın möcüzəsi. Komandalar elə bu hesabla da fasiləyə yollandılar.

İkinci hissə gözlədiklərim elə ilk dəqiqələrdən özünü göstərməyə başladı. Meydanda artıq güclü pressinq edən “Qarabağ” yox, “kar” müdafiəyə keçən komanda qalmışdı. Yəqin, Qurban Qurbanovun taktiki göstərişi belə idi. Komanda əks-hücum imkanları axtarışında idi. Lakin “alman maşını” bütün gücü ilə işə düşmüşdü. Hücumların ardı-arası kəsilmirdi.

Vaxt keçdikcə və hesab dəyişmədikcə Xabi Alonso bir-birinin ardınca oyuna yeni qüvvələri buraxırdı. Matçın 70-ci dəqiqəsinə qədər əzmkarlıqları hesabına "Bayer"in qarşısını kəsməyə nail olan komandamızın yorğunluğu açıq-aydın özünü göstərirdi. İndi oyun tamamilə "Qarabağ"ın qapısı qarşısında gedirdi.

Budur, oyun boyu elə də gözə döyməyən Zubir kobud səhvə yol verib topu geri atır və ikinci hissədə oyuna daxıl olmuş alman futbolçu fürsəti əldən verməyib topa yiyələnir. Lunyovla təbətək çıxandan sonra topu çərçivədən keçirmək ona elə də çətin olmur.

Oyunun 83-cü dəqiqəsində Juninio yenə müdafiəçi yoldaşlarından əla ötürmə alıb alman qapıçı ilə randevuya çıxır. Lakin bu dəfə Kovar onun zərbəsinin qarşısını ala bilir.

Qurbanov bundan sonra 3 dəyişiklik edib "Bayer"in hücumlarının qarşısını almağa və qələbə hesabını qorumağa çalışır. Amma bu dəfə əlavə vaxt “Braqa” ilə matçdan fərqli olaraq "Qarabağ"ın əleyhinə işləyir. Matça əlavə edilmiş 90+2-ci dəqiqədə Andrixdən əla hava ötürməsi alan Şik əla baş zərbəsilə də topu qapının sol uzaq küncünə vurur. Lunyov bu dəfə keçmiş komanda yoldaşlarını peşman etməkdə aciz qalır – 2:2. Matç elə bu hesabla da başa çatır. "Qarabağ" Avropa futbolunun sensasiyasının yazmağa dəqiqələr qalmış qələbəni əldən verir.

Ümid qalır Leverkuzendə keçiriləcək cavab görüşünə. Hesaba baxmayaraq, etiraf edək ki, "Qarabağ"ın hazırda Avropanın ən güclü klublarından biri sayılan "Bayer" ilə dünənki heç-heçəsi, əslində qələbəyə bərabər idi. Bu, həm də Azərbaycan futbolunun uğur nişanəsi oldu.

*İlqar ÇAYRUDLU*
*XQ*

**Hava**

# Abşeronda – küləkli, bölgələrdə – yağıntılı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən martın 8-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə və səhər bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək,gündüz mülayimləşəcək. Gecə 3-6°, gündüz 6-10° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək, nisbi rütubət 75-85 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-7°, gündüz 10-15° isti dağlarda gecə 0-5° şaxta, gündüz 1-6° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3915
SİFARİŞ 524
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00